

Mən çox xoşbəxtəm ki, Bakı Dövlət Universitetinin məzunuyam...

Ümummilli Lider HEYDƏR ƏLİYEV

Qəzet 1929 -cu ildən nəşr olunur. Təsisçi: Bakı Dövlət Universiteti

30 noyabr 2022-ci il

# BAKI UNİVERSİTETİ

MİLLİ TƏRƏQQİ ELM VƏ TƏHSİL OCAĞINDAN BAŞLAYIR

**BDU-da akademik Rəfiqə Əliyevanın 90 illiyinə həsr olunmuş "Təbiət qığılcımı" adlı fotomüsabiqə**

→Səh.5

**AzTV-nin sədr müavini Rafiq Həşimov Jurnalistika fakültəsinin qonağı olub**

→Səh.9

**BDU-nun İsrailin Holon Texnologiya İnstitutu ilə ikili diplom proqramı davam edir**

→Səh.10

**Azərbaycan Yazıçılar Birliyinin katibi Səlim Babullaoğlu ilə görüş keçirilib**

→Səh.11

**Sumqayıt Dövlət Universitetinin 60 illik yubileyinə həsr olunmuş dəyirmi masa**

→Səh.12

**İrəvan Müəllimlər Seminariyasının 140 illiyinə həsr olunmuş Respublika elmi konfransı keçirilib**

→Səh.12

**Hüquq fakültəsinin tələbələri Probasiya Xidmətinin fəaliyyəti ilə tanış olublar**

→Səh.23



**Türkiyənin TED Universitetinin rektoru BDU-da**

→Səh.5



**Serbiyanın Union-Nikola Tesla Universitetinin nümayəndə heyəti BDU-da olub**

→Səh.5



**Vətən müharibəsində iştirak etmiş məzunlar və qazilərlə görüş**

→Səh.6



**Akademik Vasim Məmmədəliyevin anadan olmasının 80 illik yubileyinə həsr olunmuş Respublika elmi konfransı keçirilib**

→Səh.8



**Tələbələr AMEA Mərkəzi Elmi Kitabxanasının iş təcrübəsi ilə tanış olublar**

→Səh.9




## BDU-da Zəfər Günü təntənəli şəkildə qeyd olunub

### *Noyabrın 5-də Bakı Dövlət Universitetində 8 Noyabr - Zəfər Günü münasibətilə tədbir keçirilib*

***Tədbirdə əvvəlcə Hərbi orkestrin ifasında Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, canlarını Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda qurban vermiş şəhidlərin əziz xatirəsi ehtiramla anılıb.***

Tədbirdə çıxış edən BDU-nun rektoru Elçin Babayev qeyd edib ki, artıq ikinci ildir Azərbaycan xalqı möhtərəm Prezidentimiz, Müzəffər Ali Baş Komandanımız İlham Əliyevin mahir sərkərdəliyi ilə, şəhidlərimizin canı, qazilərimizin qanı, sarsılmaz xalq-iqtidar birliyi hesabına qazandığımız böyük qələbənin, tarixi Zəfərin qürurunu yaşayır. Bu şanlı qələbənin memarı Ulu öndərimizə, şəhidlərimizə və qazilərimizə böyük ehtiram və tarixi Zəfərin lideri Müzəffər Ali Baş Komandanımıza sonsuz minnətdarlıq hissləri duyuruq. 2020-ci ilə qədər adi təqvim günlərindən biri olan 8 noyabr iki il öncə xalqımızın minilliklərə gedib çıxan tarixinə böyük və parlaq hərflərlə əbədi həkk olundu. 8 Noyabr miqyasına və əhəmiyyətinə görə yalnız Azərbaycanın deyil, bütün türk dünyasının son iki yüz il ərzində qazandığı ən böyük tarixi Zəfər hesab olunur.

Rektor vurğulayıb ki, 2020-ci ilin 8 noyabrında milli qürurumuzun rəmzi olan Şuşanın azad olunması ilə 44 günlük Zəfər yürüşümüz öz zirvəsinə çatıb, düşmənin acı məğlubiyyətini etiraf etməkdən və təslimçilik sənədinə imza atmaqdan başqa çarəsi qalmayıb: "8 Noyabr tarixi haqlı olaraq ölkəmizin, xalqımızın həyatında yeni eranın başlanğıcı kimi qiymətləndirilir. Vətən müharibəsini qalibiyyətlə başa vuran qüdrətli Azərbaycan öz şərtlərini diqtə edən və uğurla həyata keçirən ölkə kimi daha böyük imkanlar əldə edib".

Elçin Babayev BDU-nun çoxminli kollektivi və tələbələrinin tarixi Zəfərin ikinci ildönümünü yüksək ovqatla qarşıladıqlarını diqqətə çatdırıb: "Vətən müharibəsi günlərində həm ön, həm də arxa cəbhədə fədakarlıq göstərmiş, 20 nəfər məzun və tələbəsi şəhidlik zirvəsinə ucalmış BDU kollektivi bu Zəfərdən sonra artıq tarixə çevrilən Qarabağ münaqişəsinin səbəbləri, müharibə və postmüharibə dövründəki ictimai-siyasi proseslərlə bağlı elmi araşdırmalarını davam etdirir. Artıq bu istiqamətdə əldə etdiyimiz mühüm nəticələr var. Müharibədən sonra Universitetin artıq ictimaiyyət tərəfindən rəğbətlə qarşılanmış iki akademik layihəsi - "İşğal altında olmuş Azərbaycan Respublikası ərazilərində məcburi köçkünlərin pozulmuş hüquqlarına dair Beynəlxalq Kompleks Hesabat" və "Vətən müharibəsi dövründə ölkə və xarici medianın fəaliyyətinin təhlili" layihələri uğurla gerçəkləşdirilib".

Daha sonra çıxış edən Baş nazirin müavini Əli Əhmədov qeyd edib ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə cəmi 44 gün sürən hərbi əməliyyatlar nəticəsində rəşadətli ordumuz 30 il erməni əsarətində olan torpaqlarımızı azad edərək regionda yeni reallıq yaradıb.

*(Ardı 2-ci səhifədə)*

## Zəfər Günü ilə əlaqədar yürüş

→Səh.2

# BDU-da Zəfər Günü təntənəli şəkildə qeyd olunub

*(əvvəli 1-ci səhifədə)*






Vətən müharibəsində qazanılan Zəfərlə Azərbaycan dövləti qalib dövlət, Azərbaycan xalqı isə qəhrəman xalq olduğunu sübuta yetirib. Baş nazirin müavini vurğulayıb ki, Vətən müharibəsində qazanılan şanlı Qələbə tarixi ədaləti bərpa etməklə yanaşı, Cənubi Qafqazda sülh və firavanlıq üçün də etibarlı zəmin yaradır.

Qarabağ Dirçəliş Fondunun İdarə Heyətinin sədri Rəhman Hacıyev, Milli Məclisin komitə sədri Sadiq Qurbanov, millət vəkilləri Rafael Hüseynov, Jalə Əliyeva, Anar İsgəndərov, Xüsusi Təyinatlı Qüvvələrin polkovnik-leytenantı, Vətən müharibəsi qəhrəmanı Ramiz Cəfərovun qızı, Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin II kurs tələbəsi Rəbiqə Salayeva və Vətən müharibəsi iştirakçısı, BDU-nun məzunu Qədir Daşdəmirov çıxışlarında 44 günlük Vətən müharibəsində Müzəffər Ali Baş Komandanın qətiyyəti, xalqımızın sarsılmaz birliyi və əsgərlərimizin qəhrəmanlığı sayəsində əldə etdiyimiz Zəfərə gedən yoldan, ordumuzun hərbi gücündən, əsgərlərimizin şücaətindən, Azərbaycan dövlətinin şəhid ailələrinə və müharibə iştirakçılarına diqqət və qayğısından qürurla bəhs ediblər.

Tədbir BDU-nun Mədəniyyət Yaradıcılıq Mərkəzinin hazırladığı ədəbi-bədii proqramla davam edib.

## BDU-da Zəfər fləşmobu

***Bakı Dövlət Universitetində Tələbə Gənclər Təşkilatı və Tələbə Həmkarlar İttifaqı Komitəsinin birgə təşkilatçılığı ilə 8 Noyabr - Zəfər Gününə həsr olunmuş fləşmob keçirilib. Fləşmob iştirakçıları Universitetin həyətində 44 rəqəmi formasında düzülərək "Qarabağ Azərbaycandır!" şüarını səsləndiriblər.***

BDU Tələbə Həmkarlar İttifaqı Komitəsinin təşkilatçılığı ilə həmçinin "Xarıbülbül" aksiyası da keçirilib. Aksiya çərçivəsində tələbələr Universitetin həyətində 3000-dən çox "Xarıbülbül" döş nişanı-sancağını professor-müəllim heyəti və tələbələrə paylayıblar.

Qeyd edək ki, aksiyanın keçirilməsində məqsəd 44 günlük Vətən müharibəsində qələbənin əsas simvolu olan "Xarıbülbül" sancağının Zəfər Günündə taxılmasının ənənə halını alması və bütün dünyaya Azərbaycan xalqının birliyini nümayiş etdirməkdir.

## Zəfər Günü ilə əlaqədar yürüş

***Noyabrın 5-də Bakı Dövlət Universitetində 8 Noyabr - Zəfər Günü ilə əlaqədar yürüş keçirilib.***

BDU tələbələri Cəmşid Naxçıvanski adına hərbi liseyin hərbi orkestrinin müşayiəti ilə Azərbaycan bayrağını Universitetin girişindən əsas binaya qədər aparıblar. Hərbi orkestrin ifasında Azərbaycan marşları səsləndirilib.






## Zəfər Gününə həsr olunmuş "Şeir və incəsənət günü"

***Noyabrın 4-də Tarix fakültəsində Zəfər Gününə həsr olunmuş "Şeir və incəsənət günü" adlı tədbir keçirilib.***



Əvvəlcə Dövlət himni səsləndirilib, sonra şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbirdə çıxış edən Tarix fakültəsinin dekanı İbrahim Zeynalov 44 günlük Vətən müharibəsinin tariximizin ən şanlı səhifəsi olduğunu və yaddaşlardan heç vaxt silinməyəcəyini qeyd edib. Bildirib ki, şanlı Zəfər Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə Ordumuzun şücaəti, xalqımızın birliyi nəticəsində qazanılıb. Zəfər Günü hər bir azərbaycanlı üçün qürur və iftixar günüdür.

Tarix fakültəsinin Qədim dünya və orta əsrlər tarixi kafedrasının müdiri Yaqub Mahmudov Vətən müharibəsinin tarixi əhəmiyyəti, regionda yaranan reallıqlar barədə tələbələri məlumatlandırıb. O, yeniyetmələrin və gənclərin vətənpərvərlik ruhunda tərbiyəsinin Vətən müharibəsində qələbəmizi şərtləndirən əsas amillərdən biri olduğunu diqqətə çatdırıb.

Çıxışlardan sonra Tarix fakültəsinin tələbələrinin ifasında vətənpərvərlik mövzusunda müxtəlif şeir və mahnılar səsləndirilib.

Tədbirin sonunda Vətən müharibəsinə həsr edilmiş səhnəcik nümayiş etdirilib.

## Filologiya fakültəsində Zəfər Günü qeyd olunub

***Noyabrın 5-də Filologiya fakültəsində Tələbə Həmkarlar Təşkilatının təşəbbüsü ilə 8 Noyabr - Zəfər Gününə həsr olunmuş tədbir keçirilib.***

Tədbir Dövlət himninin səsləndirilməsi və şəhidlərimizin əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb.

Filologiya fakültəsinin Sosial məsələlər və tələbələrlə iş üzrə dekan müavini Anar Fərəcov Vətən müharibəsində şanlı Zəfərə aparan yoldan, qəhrəman oğullarımızın göstərdikləri şücaətlərdən, hazırda işğaldan azad olunmuş ərazilərdə həyata keçirilən böyük quruculuq işlərindən, həmin dövrdə fakültə tələbələrinin arxa cəbhədəki fəallığından söz açıb.

İngilis dili (təbiət fakültələri üzrə) kafedrasının müdiri, professor Abbas Abbasov xalqımızın milli qürur tarixinə çevrilmiş böyük Zəfərin əldə olunmasında Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin hərbi və diplomatik uğura aparan fəaliyyətinin, Dövlət-Xalq-Ordu birliyinin həlledici rol oynadığını vurğulayıb.

Filologiya fakültəsinin tələbəsi Xanım Əhmədzadə Vətən müharibəsində şəhidlik zirvəsinə ucalmış əmisi Famil Əhmədzadənin döyüş meydanında göstərdiyi qəhrəmanlıqlar, Azərbaycan Silahlı Qüvvələrinin zabiti kimi şəxsi keyfiyyətləri, həmçinin dövlətimizin şəhid ailələrinə göstərdiyi xüsusi diqqət və qayğıdan bəhs edib.

Vətən müharibəsi iştirakçısı, BDU-nun Geologiya fakültəsinin I kurs tələbəsi Musa Abbasov torpaqlarımızın işğaldan azad olunması istiqamətində aparılan uğurlu hərbi əməliyyatlardan danışıb, döyüş xatirələrini bölüşüb.

Tədbirin bədii hissəsində Zəfər Gününə həsr olunmuş videoçarx nümayiş olunub, ədəbi-bədii çıxışlar edilib. Tələbələrdən Qaratel İsmayılova, Samirə Haqverdiyeva, Aytən Qarayeva, Aidə Qurbanova, Aynurə Abbaszadə, Cəmilə Quliyeva, Xəyal Topçuyev, Ülviyyə Orucova, Qorqud Məmmədli, Fidan Bəylərova və başqalarının ifasında vətənpərvərlik və qələbə mövzusunda şeirlər və mahnılar səsləndirilib.

# "Beynəlxalq münasibətlər tarixində dönüş yaradan 44 gün" mövzusunda elmi seminar

***Noyabrın 5-də Tarix fakültəsində 8 Noyabr - Zəfər Gününə həsr olunmuş elmi seminar keçirilib.***

Tarix fakültəsinin dekanı İbrahim Zeynalov Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qəhrəman hərbçilərimizin qanı, canı bahasına qazanılan şanlı Zəfərin tariximizin ən parlaq səhifəsi olduğunu bildirib. O, bu şərəfli tarixin hər bir səhifəsinin öyrənilməsinin zəruriliyini vurğulayıb və tarixçilərin öhdəsinə böyük məsuliyyət düşdüyünü xatırladıb.

Tarix fakültəsinin elmi işlər üzrə dekan müavini Kəmalə Nəcəfovanın moderatorluğu ilə keçirilən elmi seminarda Qədim dünya və orta əsrlər tarixi kafedrasının müdiri, akademik Yaqub Mahmudov "Beynəlxalq münasibətlər tarixində dönüş yaradan 44 gün" mövzusunda məruzə ilə çıxış edib.

Məruzəçi bildirib ki, Vətən müharibəsində Azərbaycan silahlı qüvvələri tərəfindən 300-ə yaxın kənd, 5 şəhər, 4 qəsəbə və bir çox strateji yüksəkliklər erməni işğalçılarından təmizlənib. Bu gün həmin ərazilərdə Azərbaycanın üçrəngli bayrağı əzəmətlə dalğalanır. Bu qələbə Müzəffər Ali Baş Komandan, Prezident İlham



Əliyevin qətiyyətli mövqeyi, düşünülmüş, məharətli diplomatiyası, qəhrəman əsgərlərimizin igidliyi sayəsində əldə edilib. Artıq qələbəmizin ikinci ilidir. Azərbaycanın həyatında yeni dövr başlayıb, Qarabağda və Şərqi Zəngəzurda böyük quruculuq-yenidənqurma işləri aparılır. Bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın beynəlxalq siyasətinin yeni konturları cızılmağa başlayıb. İkitərəfli və çoxtərəfli əlaqələrdə yeni əməkdaşlıq parametrləri müşahidə olunur. Ən önəmli məqam isə ondan ibarətdir ki, dünya bu müharibənin gedişində Azərbaycanı yaxından tanımaq imkanı qazanıb. Artıq ölkəmiz, onun qalib ordusunun gücü barədə beynəlxalq birliklərdə dəqiq təsəvvür formalaşıb. Onlar görürlər ki, xalqın maraqlarını bütün dəyərlərdən üstün tutan, ölkənin bütün potensialını Vətən naminə səfərbər edən, "Qarabağ Azərbaycandır" kəlməsini Azərbaycan tarixinə əbədi yazan lideri var.

Elmi seminar maraqlı müzakirələrlə yadda qalıb.

# "Döyüşən jurnalistika" adlı tədbir keçirilib

***Jurnalistika fakültəsinin müəllim və tələbələrinin Vətən müharibəsində ön cəbhədə döyüşən və hərbi əməliyyatların gedişini işıqlandıran jurnalistlərlə görüşü keçirilib.***

Əvvəlcə torpaqlarımızın azadlığı uğrunda həlak olan şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbirin moderatoru, Jurnalistika fakültəsinin dekan müavini Samir Mirzəyev fakültənin döyüşlərdə igidlik göstərən, müxtəlif medallara layiq görülən məzunlarını və informasiya cəbhəsində vuruşan jurnalistləri iştirakçılara təqdim edib.

Fakültənin dekan əvəzi Sevinc Əliyeva Vətən müharibəsində şücaət göstərən jurnalist həmkarlarımızın əvəzolunmaz rolunu diqqətə çatdırıb.

Müharibə iştirakçısı olmuş məzunlar - "Azərbaycan" qəzetinin şöbə redaktoru, baş leytenant Rəşad Baxşəliyev, Azərbaycan Futzal Federasiyasının mətbuat katibi Mahal Məmmədov, AZƏRTAC-ın müxbiri Elmir Səftərov, Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinin proqramçısı Əli Allahverdiyev döyüş xatirələrini bölüşüblər. Tələbələri Zəfər



Günü münasibətilə təbrik edən məzunlar Azərbaycan gənclərini hər zaman istər ön cəbhədə, istərsə də informasiya cəbhəsində sayıq olmağa çağırıblar.

Sonra döyüş bölgəsinə ezam olunmuş, müharibəni işıqlandıran jurnalistlərdən Azərbaycan Televiziyasının "Xəbərlər" studiyasının direktoru Vüsal Qaraca, bölgə müxbiri Elnur Əkbərov, İctimai Televiziyanın Analitik şöbəsinin redaktoru Araz Xan və "ARB24" televiziyasının redaktoru Nurlan Vilayətoğlu müharibə jurnalistikasının incəliklərindən bəhs ediblər.

Səmimi, interaktiv mühitdə keçən görüşdə qonaqlar tələbələrin çoxsaylı suallarını cavablandırıblar.

# BDU-da postmüharibə dövründə gənclərdən olan gözləntilər müzakirə olunub

***Bakı Dövlət Universitetində "Postmüharibə dövründə gənclərdən olan gözləntilər və informasiya müharibəsində aktiv iştirakçılıq" mövzusunda gənclər təşkilatlarının rəhbərləri ilə görüş keçirilib.***

Zəfər Gününə həsr olunmuş görüşdə BDU-nun Humanitar məsələlər və gənclər siyasəti şöbəsinin müdiri Ramin Səmədov, Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqının sədri Pərviz Mirələmli, Azərbaycan Könüllü Təşkilatları İttifaqının sədri Yusif Vəliyev, Demokratik Azərbaycan Naminə Gənclər İctimai Birliyinin sədri Elməddin Behbud və NAYORA-nın Baş katibi Ramin Həbibzadə iştirak edib.

Görüşdə informasiya müharibəsində gənclərin rolundan və postmüharibə dövründə onların üzərinə düşən əsas vəzifələrdən bəhs olunub. Çıxışlarda gənclərin milli maraqlarımızı qoruması və sosial şəbəkələr vasitəsilə dünya



ictimaiyyətinə çatdırması, tələbə təşkilatlarının bu istiqamətdə layihələri və ölkədə uğurla həyata keçirilən gənclər siyasəti əsas müzakirə mövzusu olub.

Universitetin tələbələri müzakirələrdə aktiv iştirak edib, təkliflərini səsləndirib və gənclər təşkilatlarının rəhbərlərinə suallar ünvanlayıblar.

# BDU-nun şəhid məzunları Şəhriyar Həbibi və Fikrət Zeynallının məzarları ziyarət olunub

***Noyabrın 14-də Fizika fakültəsinin əməkdaşları fakültənin məzunları olan Vətən müharibəsi şəhidləri Şəhriyar Həbibi və Fikrət Zeynallının xatirəsini anıblar.***

Fakültə əməkdaşları tərəfindən Şəhriyar Həbibinin Lənkəranın Osakücə, Fikrət Zeynallının Tovuzun Aşağı Öysüzlü kəndlərində yerləşən məzarları ziyarət olunub.

Fakültənin müəllimləri Şəhriyar Həbibi və Fikrət Zeynallı barədə xatirələrini bölüşüb, BDU rəhbərliyi tərəfindən şəhid məzunların xatirələrinin həmişə əziz tutulduğunu bildiriblər. Daha sonra fakültə əməkdaşları Osakücə kəndinin mərkəzində Şəhriyar







Həbibinin xatirəsinə ucaldılan abidəni, Aşağı Öysüzlü kəndində isə Fikrət bulağını ziyarət edib, şəhidlərin ailələrinə baş çəkib, onların ev muzeyləri ilə tanış olublar.

Qeyd edək ki, Şəhriyar Həbibi 2010-2014-cü illərdə Fizika fakültəsində təhsil alıb. Hərbi xidmətdə olduğu dövrdə Aprel döyüşlərində iştirak edib. Vətən müharibəsində Cəbrayıl, Zəngilan rayonlarının azad edilməsində şücaət göstərib, 2020-ci il noyabrın 6-da Qubadlı uğrunda gedən döyüşlərdə həlak olub. Şəhriyar Həbibi ölümündən sonra "Vətən uğrunda", "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edilib. Fikrət Zeynallı 2012-2016-cı illərdə Fizika fakültəsində təhsil alıb. Vətən müharibəsində Şuşa və Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib, 2020-ci il noyabrın 9-da Xocavənd döyüşləri zamanı şəhid olub. Fikrət Zeynallı ölümündən sonra "Döyüşdə fərqlənməyə görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif olunub.

# Xalqımızı tarixi ədalətə qovuşduran Qələbə

***Artıq ikinci ildir ki, Azərbaycan xalqı möhtərəm Prezidentimiz, müzəffər Ali Baş Komandanımız İlham Əliyevin mahir sərkərdəliyi ilə, şəhidlərimizin canı, qazilərimizin qanı, sarsılmaz xalq-iqtidar birliyi hesabına qazandığımız böyük Qələbənin, tarixi Zəfərin qürurunu yaşayır. 2020-ci ilə qədər adi təqvim günlərindən biri olan 8 Noyabr 2 il öncə xalqımızın minilliklərə gedib çıxan tarixinə böyük və parlaq hərflərlə əbədi həkk olundu. 8 Noyabr miqyasına və əhəmiyyətinə görə yalnız Azərbaycanın deyil, bütünlüklə, Türk dünyasının son iki yüz il ərzində qazandığı ən böyük tarixi Zəfər hesab olunur.***

Qədirbilən xalqımız möhtəşəmliyini, əhəmiyyətini, hər birimizin taleyindəki həlledici rolunu adi sözlərin ifadə edə bilməyəcəyi bu tarixi günü- Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2020-ci il 3 dekabr tarixli sərəncamı ilə Zəfər Günü kimi təsis edilən 8 Noyabrı böyük coşqu və sevgi ilə qarşılayır. Ölkəmiz bu tarixi qələbənin ildönümünü 2 ildir ki, uğurlarımızın memarı ulu öndər Heydər Əliyevin ölməz xatirəsinə, şəhidlərimizin ruhuna və qazilərimizin hünərinə böyük ehtiram və əlbəttə ki, tarixi Zəfərin lideri müzəffər Ali Baş Komandanımıza sonsuz minnətdarlıq hissləri ilə qeyd edir.

Birinci Qarabağ müharibəsindəki uğursuzluqdan, tarixi ərazilərimizin itirilməsindən sonra böyük məhrumiyyətlərə düçar olan xalqımız hər an qələbə arzusu ilə yaşayır, zəfər müjdəsini gözləyirdi. Şükürlər olsun ki, bu ümidlər doğruldu. 1993-cü ilin 15 iyununda böyük zəfərə gedən yolumuzun ilk işartıları göründü. Məhz bu tarixdən başlayaraq möhkəm təməlləri xalqımızın xilaskarı, ulu öndərimiz Heydər Əliyev tərəfindən qoyulan müstəqil Azərbaycan Respublikası yeni inkişaf mərhələsinə qədəm qoydu. Ötən əsrin 90-cı illərinin əvvəllərindəki xaos, hakimiyyətsizlik mühiti əminamanlıqla, rifahla əvəz olundu. Müdrik xalqımız həmin günləri yaxşı xatırlayır və uğurlarımızın, qələbələrimizin memarı ümummilli lider Heydər Əliyevi hər zaman qədirşünaslıqla yad edir.

Ulu öndərimizin siyasətini qətiyyətlə davam və inkişaf etdirən möhtərəm Prezidentimiz İlham Əliyevin uğurlu siyasəti, müdrik qərarları sayəsində son 20 ildə Azərbaycan qüdrətli bir dövlətə çevrildi, ölkəmiz, müzəffər xalqımız tariximizin heç bir mərhələsində görünməyən uğurlara imza atdı. Hər zaman xalqın dəstəyinə arxalanan, ondan güc alaraq müstəqil siyasət yürüdən Prezident İlham Əliyevin mahir idarəçilik təfəkkürü, fenomenal bacarıqları sayəsində ölkəmizin siyasi, iqtisadi, hərbi qüdrəti günbəgün artdı. Bütün bunlar, əlbəttə, çoxdan arzusunda olduğumuz tarixi zəfərimizi şərtləndirir və günü-gündən yaxınlaşdırdı. Nəhayət, 2020-ci ilin 27 sentyabrından başlayaraq 44 gün boyunca Zəfər salnaməmizin ən şanlı, ən parlaq səhifələri yazıldı. 2020-ci ilin 8 noyabrında milli qürurumuzun simvolu olan Şuşanın azad olunması ilə 44 günlük Zəfər yürüşümüz öz zirvəsinə çatdı - düşmənin acı məğlubiyyətini etiraf etməkdən və təslimçilik sənədinə imza atmaqdan başqa çarəsi qalmadı.

İllərlə arzusunda olduğumuz gün gəldi, xəyallarımız gerçəkləşdi, ölkəmizin ərazi bütövlüyü təmin olundu. Müqəddəs yurdumuz - Qarabağımız azadlığına qovuşdu. Başımızın üstündəki qara buludlar əbədi olaraq dağıldı. Üstümüzə gün doğdu, taleyimizə yeni həyat bəxş olundu. Bu mənada 8 Noyabr tarixi haqlı olaraq ölkəmizin, xalqımızın həyatında yeni eranın başlanğıcı kimi qiymətləndirilir. Məhz bu tarixdən sonra regionda yeni geosiyasi reallıqlar yarandı. Vətən müharibəsini qalibiyyətlə başa vuran qüdrətli Azərbaycan öz şərtlərini diqtə edən və uğurla həyata keçirən ölkə kimi daha böyük imkanlar əldə etdi.

Qədirbilən xalqımızın müdrik rəhbərimizin ətrafında dəmir yumruq kimi birləşərək Zəfər salnaməmizi yazdığı 44 günlük Vətən müharibəsindən sonra diplomatik cəbhədə, informasiya savaşında və azad Qarabağdakı quruculuq cəbhəsində davam edən qələbələrimizin gətirdiyi ovqatla tarixi Zəfərimiz günügündən daha da möhkəmlənir. 44 günlük Vətən müharibəsi günlərində olduğu kimi, bu günlər də hər birimiz qürur və sevinc hissləri yaşayırıq. Qalib ölkənin qürurlu vətəndaşları kimi hər gün hansısa əlamətdar bir hadisəyə, tarixi bir məqama şahidik edirik.

30 il işğal altında qalan ərazilərimizdə qələbədən sonra miqyası heç bir ölçüyə sığmayan layihələr həyata keçirilir. Torpaqlarımıza yeni nəfəs gəlir, keçmiş məcburi köçkünlərin uzun illər boyunca məşəqqətlə keçən həyatlarında yeni ab-hava hökm sürür. Artıq şagirdlərimiz öz yurdlarında dərsə gedir, müəllimlərimiz doğma el-obalarında çalışmağın sonsuz qürurunu yaşayırlar. Bütün bunlar hər birimizin qəlbini fərəh və qürur hissləri ilə doldurur. Bu günlərdə Zəngilanın Ağalı kəndində möhtərəm Prezidentimiz, qalib sərkərdəmiz İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın erməni vandalizminin xarabaya çevirdiyi bir məkanda ən qısa müddətdə dünya standartları səviyyəsində tikilmiş məktəbi ziyarət etmələri, öz yurdlarında təhsil almağın nəhayətsiz xoşbəxtliyini yaşayan şagirdlərlə söhbətləri bütün dünyaya bir daha dövlətimizin, xalqımızın sülh mesajları kimi yayıldı.

Tarixi zəfərdən sonra azad edilmiş rayon və şəhərlərimizin baş planlarının təsdiqi, yaşayış məhəllələrinin təməlinin qoyulması insanların sabaha olan ümidlərini daha da artırır, keçmiş məcburi köçkünlərin illərlə həsrətində olduqları doğma yurd-yuvalarına əbədi qayıdışını günbəgün yaxınlaşdırır. Xüsusilə düşmənin xarabalığa çevirdiyi, heç bir infrastrukturun mövcud olmadığı ərazilərdə ən qısa zaman ərzində müasir dünya standartları səviyyəsində Füzuli Beynəlxalq Hava Limanının və Zəngilan Beynəlxalq Hava Limanının inşa edilib istifadəyə verilməsi, Laçın Beynəlxalq Hava Limanının təməlinin qoyulması Azərbaycan dövlətinin qüdrətini bir daha bütün dünyaya nümayiş etdirir.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun Prezidenti Mehriban xanım Əliyevanın rəhbərliyi ilə dini abidələrimizin, məscidlərimizin bərpası, "Xarı bülbül" Musiqi Festivalının, Vaqif Poeziya Günlərinin keçirilməsi ölkəmizdə mənəvi mühitin formalaşmasına yeni çalar verir, bərpa-quruculuq işlərində əsrarəngiz bir harmoniya yaradır.

44 günlük Vətən müharibəsinin ilk anlarından etibarən ölkəmizə mənəvi-siyasi dəstəyini ifadə edən qardaş Türkiyə Respublikası ilə tarixi Zəfərimizdən sonra əlaqələrimizin daha da möhkəmlənməsi Azərbaycanın bölgədə və eləcə də dünyada nüfuzunu daha da artırmış, siyasi arenada, diplomatik danışıqlarda manevr imkanlarını yüksəltmişdir. Ulu öndər Heydər Əliyevin "Biz bir millət, iki dövlətik!" kəlamının qüdrəti ilə günbəgün inkişaf edən Azərbaycan-Türkiyə münasibətləri hazırda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın səyləri ilə özünün ən yüksək inkişaf səviyyəsinə gəlib çatmışdır. 2021-ci ilin 15 iyununda, müasir Azərbaycanın tarixində xüsusi önəm və rəmzi məna daşıyan Milli Qurtuluş Günündə ölkələrimiz arasında imzalanmış "Şuşa Bəyannaməsi", hər iki dövlət başçısının Zəfər Paradında və azad edilmiş ərazilərimizdə istifadəyə verilən beynəlxalq hava limanlarının açılışında birgə iştirakı, həmin tədbirlərdəki bəyanatlar dostlarımıza və eləcə də düşmənlərimizə önəmli mesajlar verir. Dostlar sevinir, düşmən bir daha rəzil olur.

Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin diplomatik qələbələri bu gün də davam edir. Müzəffər Ali Baş Komandanımızın dəmir yumruğu, əyilməz iradəsi sayəsində Laçın şəhərinin, ətraf kəndlərin üzərində ordumuzun nəzarətinin bərpa olunması tarixi Zəfərimizi daha da möhkəmləndirmiş, Azərbaycanın bölgədəki mövqeyini, nüfuzunu daha da artırmışdır. Artıq dünyanın güc mərkəzləri, siyasi dairələr Azərbaycanla hesablaşırlar.

Bu gün düşmən ölkənin xaincəsinə davam edən hərbi və siyasi təxribatlarına baxmayaraq, Azərbaycan dövləti, onun başçısı humanist, sülhsevər mövqeyi, konstruktiv siyasəti ilə seçilir, bölgədə əbədi sülhə, inkişafa və rifaha nail olmaq üçün ardıcıl səylərini davam etdirir. Bütün danışıqlar prosesində sülhsevər mövqeyini qətiyyətlə ortaya qoyan Azərbaycan lideri təmkinlə, səbrlə və məğrurluqla müzəffər xalqımızın maraqlarını ifadə edir. Son dövrlər Avropa İttifaqının təşəbbüsü və vasitəçiliyi ilə keçirilən görüşlərin hər birində sülh müqaviləsinin imzalanması üçün Azərbaycanın təqdim etdiyi 5 şərt ədalətli prinsiplər kimi qəbul olunur, təklifləri-miz dövlətimizin konstruktiv mövqeyinin ifadəsi kimi səslənir. Azərbaycan sərhədlərin delimitasiyası və demarkasiyası prosesinin həyata keçirilməsinə, bununla da bölgədə əbədi sülhün əldə edilməsinə hər zaman hazır olduğunu ifadə edir.

Bu günlərdə Soçi şəhərində keçirilən görüş cənab İlham Əliyevin növbəti və inamlı qələbəsi ilə nəticələndi. Özünün növbəti sərsəm və məsuliyyətsiz çıxışını vərəqdən güclə oxuyan düşmən ölkənin başçısının səksəkəli, güvənsiz davranışlarının əksinə olaraq qalib ölkənin rəhbəri kimi çıxış edən cənab İlham Əliyev: "Qarabağ münaqişəsi artıq tarixdə qalıb. O, iki il bundan əvvəl həll edilib. Buna görə də bu baxımdan burada praktiki olaraq müzakirə edilməli məsələ yoxdur" - fikri ilə 2019-cu ildə "Valday" sammitində söylədiyi və 44 günlük Vətən müharibəsindəki qələbəmizin simvoluna çevrilən tarixi - Qarabağ Azərbaycandır - nida - kəlamının gətirdiyi ovqatı bir daha yenilədi, cəmiyyətimizə olduqca müsbət ipmulslar verdi.

Ulu öndərimiz Heydər Əliyevin Azərbaycan xalqının milli sərvəti, iftixarı adlandırdığı, hər zaman məzunu olması ilə fəxr etdiyi, bu gün isə möhtərəm Prezidentimiz İlham Əliyevin və Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın hərtərəfli diqqət və qayğısı ilə əhatə olunan Bakı Dövlət Universitetinin çoxminli kollektivi tarixi zəfərimizin ikinci ildönümünü yüksək ovqatla qarşılayır. Vətən müharibəsi günlərində həm ön, həm də arxa cəbhədə fədakarlıq göstərmiş, 19 nəfər məzun və tələbəsi şəhidlik zirvəsinə ucalmış universitetimizin kollektivi tarixi Zəfərdən sonra artıq tarixə çevrilən Qarabağ münaqişəsinin baş vermə səbəbləri, müharibə və postmüharibə dövründəki ictimai-siyasi proseslərlə bağlı elmi araşdırmalarını davam etdirir.

Artıq bu istiqamətdə əldə etdiyimiz mühüm nəticələr var. Müharibədən sonra Universitetin artıq ictimaiyyət tərəfindən rəğbətlə qarşılanmış iki akademik layihəsi - "İşğal altında olmuş Azərbaycan Respublikası ərazilərində məcburi köçkünlərin pozulmuş hüquqlarına dair Beynəlxalq Kopmpleks Hesabat" və "Vətən müharibəsi dövründə ölkə və xarici medianın fəaliyyətinin təhlili" layihələri uğurla gerçəkləşdirilmiş, bu mövzuda konfranslar, seminarlar, ictimai tədbirlər keçirilmişdir.

Tarixi Zəfərdən sonra Bakı Dövlət Universitetinin Elmi Şurasının təşəbbüsü ilə ərsəyə gəlmiş "Azərbaycan Respublikasının tarixi" kitabını da bu mənada xüsusi qeyd etmək olar. Müstəqil Azərbaycan Respublikasının tarixini özündə əks etdirən nəşrin Qarabağ Zəfərindən sonra ərsəyə gəlməsi əlamətdar və qürurvericidir. Kitabın ümummilli liderimiz Heydər Əliyevin memarı olduğu dövlətçiliyin möhkəmlənməsi və çiçəklənməsi dövrünü əhatə edən birinci hissəsində həmin dövr müasir Azərbaycanın tarixində inkişaf mərhələsi kimi səciyyələnir. Kitabın ikinci cildi isə 2003-cü ildən günümüzə qədərki dövrü əhatə edir.

Sevindirici haldır ki, ikinci cildin son bölməsi Zəfər tariximizi özündə əks etdirir. Burada işğaldan azad olunmuş torpaqlardakı quruculuq işləri, Prezident İlham Əliyevin və Birinci vitse - Prezident Mehriban xanım Əliyevanın azad olunmuş ərazilərə tarixi səfərləri, azad edilmiş ərazilərdə həyata keçirilən böyük layihələr əksini tapıb.

Bütün bunlar qüdrətli Azərbaycanın parlaq gələcəyindən xəbər verir. Xoşbəxt xalqıq ki, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə zəfər tariximiz davam edir, hər gün bu tarixin yeni səhifələri yazılır.

Qələbələr silsiləmiz bitməsin! Xalqımızı tarixi ədalətə qovuşduran Zəfər günümüz mübarək olsun!

**Elçin Babayev,**
Bakı Dövlət Universitetinin rektoru

5 noyabr 2022

Mənbə: "Xalq qəzeti"

# Türkiyənin TED Universitetinin rektoru BDU-da

*Noyabrın 25-də Bakı Dövlət Universitetinin rektoru Elçin Babayev Türkiyə Respublikasının TED Universitetinin rektoru İhsan Sabunçuoğlu ilə görüşüb.*

Rektor Elçin Babayev qonağa BDU-nun tarixi, strukturu, burada tədris və elm fəaliyyəti ilə bağlı məlumat verib. Qeyd edib ki, ölkənin ən qədim və böyük universiteti olan BDU-nun bazasında indiyədək 4 universitet yaradılıb. 25 minə yaxın tələbəsi olan BDU-nun 16 fakültəsi, bir kolleci, bir liseyi, Qazax filialı fəaliyyət göstərir. Təhsil-elm-tədqiqat-innovasiya mərkəzlərindən birinə çevrilməkdə olan BDU-da elmin bütün sahələri üzrə kadr hazırlığı həyata keçirilir.

Rektor son illər BDU-nun beynəlxalq əlaqələrinin daha da genişləndiyini, dünyanın müxtəlif ölkələri ilə ikili diplom proqramları və əməkdaşlıq müqavilələrinin imzalandığını qeyd edib. Vurğulayıb ki, qardaş Türkiyə universitetləri ilə əməkdaşlığın genişləndirilməsi BDU üçün prioritet təşkil edir.

TED Universitetinin rektoru İhsan Sabunçuoğlu rəhbərlik etdiyi ali təhsil müəssisəsi barədə məlumat verib. Dünyanın 35 ölkəsindən tələbələrin təhsil aldığı TED Universitetində tədrisin ingilis dilində təşkil olunduğunu bildirib. O, BDU ilə kompüter elmləri, informasiya texnologiyaları, dəqiq elmlərin digər sahələri üzrə əməkdaşlıq imkanlarının olduğunu vurğulayıb.

Görüşdə iki universitet arasında əməkdaşlığın perspektivləri və qarşılıqlı maraq doğuran məsələlər müzakirə olunub.



# BDU-da akademik Rəfiqə Əliyevanın 90 illiyinə həsr olunmuş "Təbiət qığılcımı" adlı fotomüsabiqə

*Noyabrın 1-də Ekologiya və torpaqşünaslıq fakültəsində akademik Rəfiqə Əliyevanın 90 illiyinə həsr olunmuş Azərbaycan təbiətinin füsunkarlığını özündə əks etdirən "Təbiət qığılcımı" adlı fotomüsabiqə keçirilib.*

Müsabiqənin keçirilməsində məqsəd Azərbaycanın müxtəlif bölgələrinin gözəlliyini fotolar vasitəsilə təbliğ etmək, gənc nəslin ekoloji tərbiyəsini gücləndirməkdir.

İki mərhələdə keçirilən müsabiqənin finalında 34 namizədin 65 fotosu qiymətləndirilib.

Yekun qiymətləndirmənin nəticələrinə əsasən, müsabiqədə I yerə Torpaqşünaslıq və aqrokimya ixtisası üzrə I kurs tələbəsi Fərid Ağababalının Oğuz rayonu ərazisində çəkdiyi "Ağaclıq" fotosu layiq görülüb.

II yeri Balakən rayonu ərazisində çəkdiyi "Daşlar" fotosu ilə Torpaqşünaslıq ixtisaslaşması üzrə II kurs magistrantı Cavid Nurməmmədov tutub.

III yerə isə Torpaqşünaslıq və aqrokimya ixtisası üzrə I kurs tələbəsi Fərid Ağababalının Oğuz rayonu ərazisində çəkdiyi "Meşə" və Torpaqşünaslıq və aqrokimya ixtisası üzrə cari ilin məzunu Xalidə Şabanovanın Zaqatala rayonu ərazisində "Lil fraksiyaları" fotoları layiq görülüb.

# Serbiyanın Union-Nikola Tesla Universitetinin nümayəndə heyəti BDU-da olub

*Noyabrın 5-də Bakı Dövlət Universitetində Serbiyanın Union-Nikola Tesla Universitetinin nümayəndə heyəti ilə görüş keçirilib.*

Görüşdə Universitetin Beynəlxalq əlaqələr şöbəsinin müdiri Rauf Həsənov, BDU-nun Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin dekanı, dosent Laçın Abışlı, Serbiyanın Union-Nikola Tesla Universitetinin Beynəlxalq münasibətlər və təhlükəsizlik fakültəsinin dekanı, professor Violeta Talovic, Beynəlxalq münasibətlər kafedrasının müdiri, professor Ağalar Abbasbəyli iştirak ediblər.



BDU-nun Beynəlxalq əlaqələr şöbəsinin müdiri Rauf Həsənov son illər BDU-nun beynəlxalq əlaqələrinin daha da genişləndiyini, müxtəlif ölkələrin nüfuzlu ali məktəbləri ilə əməkdaşlıq müqavilələrinin imzalandığını və ikili diplom proqramlarının həyata keçirildiyini deyib.

Daha sonra Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin dekanı Laçın Abışlı və professor Ağalar Abbasbəyli fakültədə tədris olunan fənlər, tədrisin təşkili və ikili diplom proqramları barəsində qonaqları məlumatlandırıblar.

Union-Nikola Tesla Universitetinin Beynəlxalq münasibətlər və təhlükəsizlik fakültəsinin dekanı Violeta Talovic təmsil etdiyi ali məktəb barədə məlumat verib və Azərbaycanın ən böyük ali təhsil müəssisəsi olan BDU-da olmaqdan məmnunluğunu ifadə edib.

Görüşdə Union-Nikola Tesla Universiteti ilə elmi-pedaqoji sahədə əməkdaşlıq imkanları, ikili diplom proqramları, elmi məsləhətçilərin təyin olunması zamanı qarşılıqlı əməkdaşlıq məsələləri müzakirə olunub.

# Orta Doğu Texniki Universitetinin rektoru Mustafa Verşan Kök BDU-da

*Noyabrın 5-də Bakı Dövlət Universitetinin rektoru Elçin Babayev Türkiyə Respublikasının Orta Doğu Texniki Universitetinin (ODTU) rektoru Mustafa Verşan Kökün rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.*

Qonaqları salamlayan Elçin Babayev onlara Azərbaycanın ən qədim və böyük universiteti olan BDU-nun tarixi, strukturu və fəaliyyəti barədə məlumat verib. Qeyd edib ki, bütün sahələr üzrə kadr hazırlayan BDU Azərbaycanda "Tədqiqat universiteti" statusunu almağa əsas namizəddir. Rektor qeyd edib ki, BDU dünyanın qabaqcıl elm və təhsil məkanına inteqrasiyanı özünün əsas prioritetlərindən hesab edir. Bu istiqamətdə çoxsaylı tədbirlər həyata keçirilir. Son illər BDU-da dünyanın nüfuzlu universitetləri ilə əməkdaşlıq çərçivəsində bir neçə ikili diplom proqramı həyata keçirilir. BDU "Times Higher Education" beynəlxalq reytinqinə Azərbaycan üzrə daxil olan yeganə, "QS World University Rankings" beynəlxalq reytinqində isə ölkəmizi təmsil edən iki universitetdən biridir. Azərbaycan üzrə "Web of Science" bazasında indekslənən jurnallarda dərc olunmuş məqalələrin 25 faizi BDU-nun alimlərinə məxsusdur.




Rektor Elçin Babayev qardaş Türkiyənin ali məktəbləri, eləcə də ODTU ilə elm-təhsil-innovasiya istiqamətində əlaqələrin genişləndirilməsinin BDU-nun əsas prioritetlərindən biri olduğunu vurğulayıb.

ODTU-nun rektoru Mustafa Verşan Kök rəhbərlik etdiyi universitetdə 30-dan çox elmi-tədqiqat mərkəzi, 465 təhsil və elmi-tədqiqat laboratoriyasının fəaliyyət göstərdiyini, 28000-dən çox tələbənin təhsil aldığını və 2300-ə yaxın professor-müəllimin çalışdığını qeyd edib. O bildirib ki, "universitet-sənaye" əməkdaşlığına xüsusi önəm verən ODTU Türkiyə universitetləri arasında sənayedən ən çox gəlir əldə edən universitetdir.

Görüşdə BDU ilə ODTU arasında fizika, kimya, biologiya, kompüter mühəndisliyi, neft-kimya mühəndisliyi, qida mühəndisliyi, geologiya mühəndisliyi, elektrik və elektronika mühəndisliyi, mədən mühəndisliyi və digər sahələrdə əməkdaşlıq perspektivləri müzakirə olunub.

# Vətən müharibəsində iştirak etmiş məzunlar və qazilərlə görüş



***Noyabrın 5-də Bakı Dövlət Universitetinin Tətbiqi riyaziyyat və kibernetika fakültəsində I və II Qarabağ müharibəsi iştirakçıları ilə tələbələrin görüşü keçirilib.***

Fakültənin dekan müavini, dosent Şamo Cəbrayılov tələbələrə Vətən müharibəsində qazandığımız tarixi qələbənin əhəmiyyəti barədə danışıb, fakültənin şəhid məzunları Tural Eyyubov və Rabil İsmayılovun döyüş yolu barədə məlumat verib. Tələbələri Qarabağı azad edən qəhrəmanlardan nümunə götürməyə, onların amallarını davam etdirməyə çağırıb.

Fakültənin I Qarabağ müharibəsinin iştirakçısı olan müəllimi, mayor Hacı Məsmalıyev döyüşdə baş verən çətin və təhlükəli anlar barədə xatirələrini bölüşüb.

Vətən müharibəsi iştirakçıları, fakültənin tələbələri Vüsal Qarayev, Cavid Əliyev və Tural Şirəliyev ermənilə-ri necə məhv etmələrindən və uzun illər həsrətində olduğumuz torpaqlara qədəm qoyarkən keçirdikləri duyğulardan danışıblar.

Sonda fakültənin II kurs tələbələri "Xudayar təsnifi" ifa ediblər.

***

***Noyabrın 5-də Ekologiya və torpaqşünaslıq fakültəsində Vətən müharibəsində iştirak etmiş tələbə və məzunlarla görüş keçirilib.***



Əvvəlcə Dövlət himni səsləndirilib, sonra şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbiri giriş sözü ilə açan Ekologiya və torpaqşünaslıq fakültəsinin dekanı Akif Ağbabalı 44 günlük Vətən müharibəsinin tariximizin ən şanlı səhifəsi olduğunu və yaddaşlardan heç vaxt silinməyəcəyini qeyd edib. Bildirib ki, şanlı Zəfər Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə Ordumuzun şücaəti, xalqımızın birliyi nəticəsində qazanılıb. Zəfər Günü hər bir azərbaycanlı üçün qürur və iftixar günüdür. Bu şanlı tarixin yazılmasında Ekologiya və torpaqşünaslıq fakültəsinin tələbə və məzunlarının da payı olub.

Sonra fakültənin tələbə və məzunlarının Vətən müharibəsində iştirakını əks etdirən fotolarından ibarət slayd təqdim edilib.

Fakültənin əməkdaşları İsmayıl Əliyev, Şövqi Göyçaylı, Qismət Xanbabayev və Tahir İbrahimov çıxışlarında Vətən müharibəsinin tarixi əhəmiyyəti, regionda yaranan reallıqlar, gənc nəslin qarşısında duran mühüm məsələlər barədə danışıb, yeniyetmə və gənclərin vətənpərvərlik ruhunda tərbiyəsinin Vətən müharibəsində qələbəmizi şərtləndirən əsas amillərdən biri olduğunu diqqətə çatdırıblar.

Ekologiya və torpaqşünaslıq fakültəsinin Vətən müharibəsində iştirak etmiş tələbə və məzunlarından Sübhan Əliyev, Rüfət Bəndəliyev, Elsəs Hüseynov, Nağı Tağıyev, İlkin Məmmədzadə (onlayn) çıxış edərək döyüş xatirələrini bölüşüblər.

***

***Noyabrın 2-də Bakı Dövlət Universitetində Azərbaycan Respublikasının Gənclər Fondunun dəstəyi, Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqı (ATGTİ) və "Böyük Qayıdış" Gənclər Təşkilatının birgə təşkilatçılığı ilə "44 günlük dastan" layihəsi çərçivəsində tələbələrlə görüş keçirilib.***



Tədbirdə BDU-nun Humanitar məsələlər və gənclər siyasəti şöbəsinin müdiri Ramin Səmədov, "Böyük Qayıdış" Gənclər Təşkilatının icraçı direktoru Nail Şükürov və Universitetin Tələbə Gənclər Təşkilatının sədri Ələkbər Həsənov çıxış ediblər. Çıxışlarda 44 günlük Vətən müharibəsində qazanılan parlaq Zəfərdə gənclərimizin rolundan bəhs edilib, şəhid ailələrinin və Vətən müharibəsi iştirakçılarının daim diqqət və qayğı ilə əhatə olunduğu ifadə olunub.

Qəhrəman döyüşçülərimizin tanıdılması məqsədilə keçirilən görüşdə ölkəmizin ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş qəhrəman əsgər və zabitlərimizin xatirəsi ehtiramla anılıb.

Daha sonra tədbirin qonağı olan Vətən müharibəsi iştirakçıları Tural Abdullayev, Coşqun Şəfiyev, Vətən Süleymanov və Xəyyam Fərzəliyev keçdikləri döyüş yolu barədə xatirələrini, Vətən müharibəsi dövründə yaşadıqları hadisələri gənclərlə bölüşüblər.

44 günün qəhrəmanları tələbələrin suallarını ətraflı cavablandırıblar.

***

***Noyabrın 11-də Biologiya fakültəsində Vətən müharibəsi iştirakçıları ilə görüş keçirilib.***



Tədbirdə Dövlət himni səsləndirilib, ölkəmizin ərazi bütövlüyü uğrunda həlak olan şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Biologiya fakültəsinin dekanı, professor Afət Məmmədova Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Ordumuzun 44 günlük Vətən müharibəsində əldə etdiyi tarixi Zəfərdən, şanlı tarix yazan hərbçilərimizin misilsiz rəşadəti və əzmkarlığından, xalqımızın mübarizliyindən bəhs edib. Əldə olunan Qələbəni Prezident-Xalq-Ordu birliyinin şərtləndirdiyini vurğulayıb. Afət Məmmədova gəncləri Vətəni şəhid və qazilər qədər sevməyə, faydalı işlər görməyə səsləyib.

Professor Nuru Məmmədov ermənilərin tarixən davam edən işğalçılıq siyasəti, Azərbaycanın apardığı haqq savaşı, Vətən müharibəsinin tarixi əhəmiyyəti və yaratdığı reallıqlar barədə gəncləri məlumatlandırıb.

Tədbirdə Vətən müharibəsi iştirakçıları Tərlan Babaşov, Fərahim Əmirli, Lətif Əliyev, Savalan Maqsudov, Elgün Əsgərov öz döyüş xatirələrini danışıblar.

Tədbirin sonunda tələbələr tərəfindən qəhrəmanlıq ruhlu şerlər, mahnılar ifa olunub, videoçarxlar nümayiş etdirilib.

# Vətən Müharibəsi Qəhrəmanı Adil İbrahimlinin anım günü qeyd olunub

***Noyabrın 21-də Sosial elmlər və psixologiya fakültəsində Vətən Müharibəsi Qəhrəmanı Adil İbrahimlinin anım günü münasibəti ilə tədbir keçirilib. Tədbirdə fakültə dekanı Rövşən Cavadov, Sosial məsələlər üzrə dekan müavini Nəzakət Kərimova, Adil İbrahimlinin həyat yoldaşı Nargül İbrahimli və tələbələr iştirak ediblər.***



Əvvəlcə Azərbaycanın ərazi bütövlüyü uğrunda həlak olan şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Fakültə dekanı Rövşən Cavadov bildirib ki, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı Ordumuz 44 günlük Vətən müharibəsində Azərbaycan tarixinin ən parlaq səhifələrindən birini yazıb. Bu zəfəri xalqımıza yaşadan qəhrəmanlar daim hörmət və sevgi ilə anılır, şəhidlərimizin ailə üzvləri və övladlarına diqqət və qayğı göstərilir. Daha sonra Rövşən Cavadov Adil İbrahimlinin döyüş yolu haqqında tələbələrə məlumat verib. Qeyd edib ki, Adil İbrahimli bütün döyüş əməliyyatlarında xüsusi şücaət göstərib, Şuşanın azad edilməsi uğrunda gedən döyüşlərdə isə qəhrəmancasına həlak olub. Noyabrın 20-də Bakıda II Şəhidlər Xiyabanında torpağa tapşırılıb. Adil İbrahimli ölümündən sonra "Vətən Müharibəsi Qəhrəmanı" adına layiq görülüb. O, həmçinin "Vətən uğrunda" , "Kəlbəcərin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif olunub.

Fakültənin I kurs tələbəsi Rufiz Quluzadə bildirib ki, 2021-ci il sentyabrın 27-də Vətən müharibəsi zamanı Azərbaycanın ərazi bütövlüyü uğrunda həlak olmuş əsgər və zabitlərimizə, qətlə yetirilən mülki vətəndaşlara və itkin düşmüş soydaşlarımıza ehtiram əlaməti olaraq keçirilən yürüşdə Ali Baş Komandan İlham Əliyev əlində Vətən Müharibəsi Qəhrəmanı Adil İbrahimlinin şəklini tutub. O da vurğulanıb ki, Xüsusi Təyinatlı Qüvvələrin baş leytenantı, Vətən Müharibəsi Qəhrəmanı Adil İbrahimlinin həyat yoldaşı Nargül İbrahimli Sosial elmlər və psixologiya fakültəsinin Psixologiya ixtisası üzrə II kurs tələbəsidir.

Nargül İbrahimli həyat yoldaşının anım günü münasibəti ilə təşkil edilmiş tədbirə görə fakültə rəhbərliyinə öz minnətdarlığını bildirib.

Tədbirdə fakültənin IV kurs tələbəsi Səbinə Mirzəməmmədovanın bəstələdiyi "Ağlama, anacan" musiqisi səsləndirilib. II kurs tələbələri Samir Hacıyev və Sevil Nəsirovanın birgə hazırladıqları "Salam, şəhid anası" adlı videoçarx nümayiş etdirilib.

Sonda Sosial məsələlər üzrə dekan müavini Nəzakət Kərimovanın qəhrəman şəhidimiz Adil İbrahimli və onun həyat yoldaşı Nargül İbrahimlinin ailə tarixçəsinə həsr olunmuş videoçarxı tədbir iştirakçılarının diqqətinə çatdırılıb.

# 9 Noyabr - Dövlət Bayrağı Günüdür

***9 Noyabr Azərbaycan Respublikasının Dövlət Bayrağı Günüdür. Xalqımızın azadlıq mücadiləsinin, milli kimliyinin və özünütəsdiqinin rəmzi olan ay-ulduzlu, üçrəngli bayrağımız milli qürurumuz, güvənc yerimizdir. Vətənimizin azadlığı uğrunda şəhid olan minlərlə soydaşımızın qanına boyanan, tarixin keşməkeşli yollarından keçib gələn bayrağımız bütün dünya azərbaycanlıları üçün müqəddəsdir.***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2009-cu il noyabrın 17-də imzaladığı Sərəncama əsasən, hər il ölkəmizdə 9 noyabr Dövlət Bayrağı Günü kimi qeyd edilir.

Milli varlığımızın rəmzi olan bayrağımız ilk dəfə 1918-ci il noyabrın 9-da Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin qərarı ilə qəbul edilib. Üçrəngli bayrağımızın ikinci dəfə müstəqilliyimizin atributu kimi yüksəlməsi isə Ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri, Ulu öndər Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə keçirilən sessiyada üçrəngli, ay-ulduzlu bayrağımız Muxtar Respublikanın dövlət bayrağı kimi qəbul edildi. Bu, olduqca cəsarətli və uzaqgörən bir addım idi, eyni zamanda müstəqilliyimizə gedən yolda ciddi dönüş nöqtəsi idi. Sessiyada Naxçıvan Muxtar Respublikası Ali Məclisi Azərbaycan SSR Ali Soveti qarşısında üçrəngli bayrağımızın Azərbaycanın rəsmi dövlət rəmzi kimi tanınması haqqında vəsatət qaldırdı.

Nəticədə 1991-ci il fevralın 5-də bayraq Azərbaycan Respublikasının Ali Soveti tərəfindən ikinci dəfə dövlət rəmzi kimi təsdiq edildi.

1991-ci il oktyabrın 18-də dövlət müstəqilliyimizi bərpa etdikdən sonra "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktı ilə Azərbaycan Xalq Cümhuriyyətinin varisi kimi onun dövlət rəmzləri, o cümlədən üçrəngli bayrağımız da bərpa edildi. "Türkləşmək, müasirləşmək, islamlaşmaq" ideyasını rənglərində əbədiləşdirən bayrağımız müasir Azərbaycanın tarixi dövlətçilik ənənələrinə sadiqliyini bir daha nümayiş etdirir, bu ənənələri inamla yaşadır.

Azərbaycan Respublikasının dövlət bayrağından istifadə Azərbaycan Respublikası Konstitusiyasının 23-cü və 75-ci maddələri, "Azərbaycan Respublikasının Dövlət bayrağı haqqında" Azərbaycan Respublikasının Qanunu, eləcə də həmin Qanunla təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət bayrağı haqqında Əsasnamə" əsasında tənzimlənir. Azərbaycan Respublikasının Dövlət bayrağının rəngli və sxematik təsviri adı çəkilən Qanun və Əsasnamə ilə təsdiq edilib.

Bütün tarixi, əlamətdar günlərdə, dövlət başçılarının rəsmi səfərlərində, beynəlxalq tədbirlərdə, idman yarışlarında, olimpiadalarda Azərbaycanın adını yüksəldiyi ucalıqlardan dünyaya çatdıran da varlığımızı təsdiqləyən bayrağımızdır. Azərbaycan bayrağı bütün dövlət təşkilatlarının, respublikamızdan kənarda diplomatik korpuslarımızın, nümayəndəliklərimizin binaları üzərində müstəqilliyimizin rəmzi kimi dalğalanır. Beynəlxalq tədbirlərdə dünya dövlətlərinin bayraqları arasında Azərbaycanın simvolu kimi dayanır.

İki il öncə müzəffər Azərbaycan Ordusu otuz ilə yaxın düşmən işğalında qalan əzəli torpaqlarımızı xilas etdi. O günlərdə bütün Azərbaycan xalqını ən çox qürurlandıran anlardan biri də döyüşçülərimizin Ermənistan silahlı qüvvələrini məğlubiyyətə uğradaraq, azad etdikləri hər bir şəhərdə dövlət bayrağımızı ucaltmalarını və bu barədə Ali Baş Komandan İlham Əliyevə məlumat vermələrini əks etdirən videogörüntülər idi. Ermənistan öz layiqli cavabını döyüş meydanında aldı. Düşmənin silahlı qüvvələri qəhrəman Azərbaycan ordusu tərəfindən darmadağın edildi.

İkinci Qarabağ müharibəsində bütün Azərbaycan xalqı öz Prezidentinin, ordusunun yanında bir yumruq kimi birləşərək Vətən üçün can verməyə hazır, qan tökməyə qadir olduğunu bir daha göstərdi.

Dostlarımızı sevindirən, düşmənimizi xar edən üçrəngli bayrağımız dövlətimizin əzəmətini və gücünü bütün dünyaya təsdiqləyir. Doğma Qarabağımızda, Şərqi Zəngəzurumuzda qürurla dalğalanır - bu torpaqların əbədi sahibinin kim olduğunu bir daha bəyan edir!

Dövlətimizin, xalqımızın gücünə güc qatan bayrağımız daim zirvələrdə dalğalansın!

# 12 noyabr - Azərbaycan Respublikasının Konstitusiya Günüdür

***Konstitusiya hər bir hüquqi dövlətin sarsılmaz təməlidir. Bu gün Azərbaycan Respublikası Konstitusiyasının qəbul edilməsindən 27 il ötür. Müstəqil Azərbaycanın Ulu öndəri Heydər Əliyevin rəhbərliyi ilə hazırlanan ilk Konstitusiyası 1995-ci il noyabrın 12-də keçirilmiş ümumxalq səsverməsi (referendum) yolu ilə qəbul edilib və noyabrın 27-də qüvvəyə minib. Dövlətin əsas Qanununun yaradılmasında Bakı Dövlət Universitetinin elm xadimlərinin də müstəsna xidmətləri olub.***

1995-ci ildə qəbul olunmuş Konstitusiya müstəqil Azərbaycanın ilk, ümumilikdə isə ölkəmizin tarixində dördüncü Konstitusiyasıdır. Azərbaycanın ilk Konstitusiyası 1921-ci ilin mayın 19-da, SSRİ Konstitusiyasına uyğunlaşdırılmış yeni redaksiyalarda isə 1925-ci il martın 14-də və 1978-ci ilin aprelin 21-də qəbul edilib.

Konstitusiyanın qəbulu müstəqillik tariximizin ən mühüm hadisələrindən biri olmaqla yanaşı, Ulu öndər Heydər Əliyevin Azərbaycan dövlətçiliyi qarşısındakı böyük xidmətlərindən biridir. Bu Konstitusiya müstəqil dövlət quruculuğu prosesini tənzimləyən, demokratik inkişafa təminat yaradan, cəmiyyətin siyasi, sosial, mədəni, iqtisadi sferalarında köklü dəyişiklikləri özündə ehtiva edən, qanunvericiliyin təkmilləşdirilməsində hüquqi baza rolunu oynayan mükəmməl və mütərəqqi bir sənəddir. Konstitusiya insan və vətəndaş hüquq və azadlıqlarının təmin olunmasını dövlətin ali məqsədi kimi bəyan edir. Hakimiyyət bölgüsünün əsas prinsiplərini müəyyənləşdirir. İnsan və vətəndaş hüquqlarının, azadlıqlarının müdafiəsini qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanları üzərinə ümdə vəzifə olaraq qoyur.

Ümummilli lider Heydər Əliyev deyirdi: "Bu Konstitusiya Azərbaycan xalqının keçdiyi tarixi inkişaf yolunun məntiqi nəticəsidir. Konstitusiya ölkəmizdə vətəndaşların hüquq və azadlıqlarının təmin edilməsi, müstəqil dövlətçiliyimizin qorunub saxlanması, möhkəmləndirilməsi və demokratik dəyişikliklərin həyata keçirilməsi üçün hərtərəfli zəmin və şərait yaradır. Azərbaycanın tarixi keçmişini, bugünkü reallıqlarını və gələcək inkişaf perspektivlərini əks etdirməsi, ümumbəşəri və milli dəyərlərə söykənməsi Konstitusiyamızı səciyyələndirən əsas cəhətlərdir".

Müstəqil Azərbaycan Respublikasının Konstitusiyası ölkəmizdə demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu prosesinə hüquqi baza yaradıb və onun inkişafına güclü təkan verib. Azərbaycan Respublikasının Konstitusiyası qəbul edilərkən hüquqi dövlət quruculuğunun müasir meyllərinə istinad olunub, ölkəmizin hüquq sistemi üçün yeni bir təsisatın - konstitusiya ədalət mühakiməsi orqanının yaradılması nəzərdə tutulub, bu müddəaya əsasən Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi yaradılıb. Hazırda bu qurum qanunların Konstitusiyaya uyğunluğunu yoxlamaqla, qanunlara şərh verməklə, prezident və parlament seçkilərinin nəticələrini təsdiqləməklə, hətta vətəndaşların birbaşa müraciəti əsasında müvafiq qərarlar qəbul etməklə bütövlükdə, Konstitusiyanın aliliyini qoruyur.

Ötən 27 ildə ölkəmizin sürətli inkişafı nəticəsində yeni dövrün tələblərinin yaratdığı zərurətlə əlaqədar 2002-ci il avqustun 24-də, 2009-cu il martın 18-də və 2016-cı il sentyabrın 26-da referendum yolu ilə Azərbaycan Konstitusiyasına bir sıra əhəmiyyətli dəyişikliklər və əlavələr edilib. Konstitusiyaya edilən bu əlavə və dəyişikliklər nəticəsində əsas Qanunumuz daha da təkmilləşdirilərək yeni dövrün tələblərinə uyğunlaşdırılıb.

Prezidentimiz İlham Əliyevin də vurğuladığı kimi, "Universal dəyərlərə əsaslanan Azərbaycan Respublikasının Konstitusiyası bu gün də böyük hüquqi, siyasi və ideoloji potensiala malikdir və Azərbaycan xalqının firavanlığına xidmət edir".

# 17 Noyabr - Milli Dirçəliş Günüdür

***Noyabrın 17-si Azərbaycanda Milli Dirçəliş Günüdür. Azərbaycan xalqının azadlıq mübarizəsinin əsas mərhələlərindən birini təşkil edən Milli Dirçəliş Günü ölkəmizin müstəqilliyinin bərpa olunmasında önəmli və tarixi rol oynayıb.***

Bu tarix Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin müdrik siyasəti nəticəsində daha da əlamətdar xarakter alıb. Belə ki, 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikasının Ali Sovetinin yeni tərkibdə ilk sessiyası keçirildi. Muxtar respublikanın adından "sovet" və "sosialist" sözləri çıxarıldı. Bununla da milli dövlətçiliyimizin dirçəlişi istiqamətində ilk böyük addım atılmış oldu. Ulu öndərin sədrliyi ilə keçirilən həmin tarixi sessiyada Muxtar Respublikanın dövlət rəmzləri haqqında məsələ müzakirə edildi. Üçrəngli bayrağın dövlət rəmzi kimi qəbulu ilə əlaqədar təklif irəli sürüldü. Sessiya Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağının bərpa olunması barədə qərar çıxararaq onun dövlət bayrağı kimi qəbul edilməsi ilə bağlı Azərbaycanın Ali Soveti qarşısında vəsatət qaldırdı. Beləliklə, milli dirçəlişdən milli tərəqqiyə doğru uzanan tarixi yolun başlanğıcı qoyuldu.

Ümummilli lider Heydər Əliyevin hakimiyyətə gəlişi xalqa ümid oldu. Bütün sahələrdə inkişaf müşahidə olunmağa başladı, xalqımızın milli dirçəlişi və mənəvi dəyərlərinin yüksək tutulması, adət və ənənələrimizin qorunub saxlanılması reallığa çevrildi.

Bu gün Ulu öndər Heydər Əliyevin siyasi kursunu davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev dövlətçiliyin möhkəmləndirilməsinə, iqtisadiyyatın inkişafına və milli-mənəvi dəyərlərin qorunub saxlanmasına xüsusi diqqət yetirir, ölkəmiz dünyada söz və nüfuz sahibi kimi tanınaraq müdafiə qüdrətini daha da artırır.

Artıq iki ildir ki, Milli Dirçəliş Günü Azərbaycanın ərazi bütövlüyü şəraitində qeyd olunur. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 2020-ci il sentyabrın 27-dən başlayaraq Azərbaycan Ordusunun həyata keçirdiyi əks-hücum əməliyyatları nəticəsində uzun illər düşmən tapdağı altında olan torpaqlarımız azad edildi. 44 gün davam edən Vətən müharibəsi dövründə hər gün yaşayış məntəqələri işğaldan azad olunurdu və həmin torpaqlarda Azərbaycanın şanlı bayrağı ucaldılırdı. Hazırda azad edilmiş bütün torpaqlarımızda bayrağımız əzəmətlə dalğalanır.

Artıq iki ildir ki, azad olunmuş bütün ərazilərimiz dirçəlir, Qarabağa və Şərqi Zəngəzura həyat qayıdır. Rəhbər-dövlət-ordu-xalq birliyi ilə qazanılan Qələbəmizi gələcəyə sarsılmaz inam və qürur duyğuları daha da möhkəmləndirir. Xalqımızın həmrəyliyi və dövlət müstəqilliyimiz əbədi olsun! Milli Dirçəliş Gününüz mübarək!

# BDU-da görkəmli hüquqşünas-alim Məmməd Xələfovun 100 illik yubileyi qeyd olunub

***Noyabrın 10-da Bakı Dövlət Universitetində görkəmli hüquqşünas-alim, hüquq elmləri doktoru, professor Məmməd Xələfovun anadan olmasının 100 illik yubileyinə həsr olunmuş tədbir keçirilib.***

Tədbirdə çıxış edən BDU-nun rektoru Elçin Babayev Hüquq fakültəsinin inkişafında mərhum alimin əvəzsiz xidmətlərini vurğulayıb. O, BDU-da fakültənin köklü ənənələrindən istifadə etməklə müasir hüquq məktəbinin yaradılmasının nəzərdə tutulduğunu bildirib. Rektor Universitetin Məmməd Xələfovun həyatı və fəaliyyəti haqqında kitabın nəşrini üzərinə götürməyə hazır olduğunu bildirib: "BDU-da Məmməd Xələfov adına auditoriyanın təsis edilməsinin də artıq vaxtı çatıb. Bu auditoriya BDU-nun ən nümunəvi auditoriyalarından biri olacaq və orada Məmməd Xələfovun ruhuna, əməllərinə layiq dərslər keçiriləcək".

Daha sonra çıxış edən BDU-nun Elm və innovasiyalar üzrə





prorektoru Hüseyn Məmmədov ölkəmizdə hüquq elminin inkişafında və hüquqşünaslıq ixtisası üzrə kadr hazırlığında professor Məmməd Xələfovun xidmətlərini xatırladıb. Prorektor bildirib ki, Məmməd Xələfov 18 il Hüquq fakültəsinə rəhbərlik edib. Bu müddətdə fakültədə 6 yeni kafedra açılıb, ölkədə hüquq təhsili keyfiyyətcə yeni mərhələyə qədəm qoyub, elmi ixtisaslaşma dərinləşib. Məmməd Xələfov yerli və xarici elmi nəşrlərdə dərc edilmiş 150-dən çox elmi əsərin müəllifi olub. Onun rəhbərliyi altında 10-dan çox elmlər namizədi hazırlanıb.

Əmək və ekologiya hüququ kafedrasının müdiri, professor Alış Qasımov "Professor Məmməd Xələfovun həyat və yaradıcılığı haqqında", Mülki hüquq kafedrasının müdiri Məhəbbət Dəmirçiyeva "Azərbaycan Respublikasında mülki hüquq elminin inkişafında professor Məmməd Xələfovun rolu" mövzularında məruzələr ediblər.

Daha sonra qocaman ədliyyə işçisi İkram Kərimov, hüquq üzrə fəlsəfə doktorları Səfa Mirzəyev, Yusif İldırımzadə, İsaxan Vəliyev, Konstitusiya Məhkəməsinin hakimi İsa Nəcəfov, millət vəkili Qüdrət Həsənquliyev, Qafqaz Müsəlmanları İdarəsinin aparat rəhbəri Simran Həsənov, baş ədliyyə müşaviri Adil Əsgərov, müharibə veteranı Şəmsəddin Əliyev, mərhum alimin qardaşı oğlu, Azərbaycan Respublikası Ali Məhkəməsinin hakimi İlqar Xələfov professor Məmməd Xələfovla bağlı xatirələrini bölüşüblər.

# Akademik Vasim Məmmədəliyevin anadan olmasının 80 illik yubileyinə həsr olunmuş Respublika elmi konfransı keçirilib

***Noyabrın 15-də Bakı Dövlət Universitetində görkəmli şərqşünas-alim, əməkdar elm xadimi, akademik Vasim Məmmədəliyevin anadan olmasının 80 illik yubileyinə həsr olunmuş "Şərqşünaslıq: yeni istiqamətlər" mövzusunda Respublika elmi konfransı keçirilib.***

Konfransın açılış mərasimində çıxış edən BDU-nun rektoru Elçin Babayev akademik Vasim Məmmədəliyevin Azərbaycanda şərqşünaslıq və ilahiyyat elmlərinin, təhsilin inkişafında misilsiz rola malik olduğunu xatırladıb, onun işıqlı xatirəsinin daim davamçılarının, tələbələrinin və bütün Azərbaycan xalqının qəlbində yaşayacağını bildirib. Rektor görkəmli alimin elmin və dinin kütləviləşməsi istiqamətində mühüm fəaliyyətini də diqqətə çatdırıb, Şərqşünaslıq fakültəsinin inkişafında oynadığı xidmətləri xatırladıb.



BDU-nun Tədrisin təşkili və təlim texnologiyaları üzrə prorektoru Fərda İmanov konfrans iştirakçılarını akademik Vasim Məmmədəliyevin həyatı və zəngin, çoxşaxəli fəaliyyəti ilə tanış edib. Bildirib ki, fəaliyyət göstərdiyi illər ərzində böyük uğurlara imza atan Vasim Məmmədəliyev 10 il Şərqşünaslıq, 25 il İlahiyyat fakültələrinin dekanı olub, habelə Universitetin Humanitar fakültələr üzrə prorektoru, 30 ilə yaxın Ərəb filologiyası kafedrasının müdiri vəzifəsində çalışıb. Vasim Məmmədəliyev ərəb dilinin mahir bilicisi kimi şərqşünaslıq elminin müasir səviyyəyə yüksəlməsində, müstəqilliyimizin ilk illərində xalqımızın İslam dininin əsasları ilə yenidən tanışlığında, ölkədə tolerant mühitin formalaşdırılmasında əvəzedilməz xidmətlər göstərib. Alimin ən böyük xidmətlərindən biri isə müqəddəs "Qurani-Kərim"in tərcüməsidir. Akademik Ziya Bünyadov ilə birgə hazırlanan tərcümə çox uğurlu alınıb, xalqımızı müqəddəs kitabla yaxından tanış edib.

Daha sonra Vasim Məmmədəliyevin həyatı və fəaliyyəti ilə bağlı video izlənilib.

İlahiyyat İnstitutunun rektoru Aqil Şirinov, Əməkdar elm xadimi, professor Qəzənfər Paşayev, Füzuli adına Əlyazmalar İnstitutunun direktoru, akademik Teymur Kərimli görkəmli alimlə bağlı xatirələrini bölüşüblər.

Şərqşünaslıq fakültəsinin dekanı Aydan Xəndan "Əsl ziyalı timsalı Vasim müəllim", Milli Məclisin üzvü, akademik Rafail Hüseynov "Azərbaycan şərqşünaslığının həmişə qayıdılacaq səhifəsi", Milli Məclisin üzvü, professor Jalə Əliyeva "Vasim Məmmədəliyev - elmin müdrik ziyası", Ərəb filologiyası kafedrasının professoru Elxan Əzizov "Azərbaycan şərqşünaslığının inkişafında akademik Vasim Məmmədəliyevin rolu" mövzularında məruzələr ediblər.

Konfransda Azərbaycanın Səudiyyə Ərəbistanı Krallığında, Əlcəzairdə, Müqəddəs Taxt-Tacda (Vatikan) fövqəladə və səlahiyyətli səfirləri Şahin Abdullayevin, Tural Rzayevin, İlqar Muxtarovun, Türk Dövlətləri Təşkilatının Baş katibinin müavini Qismət Gözəlovun konfrans iştirakçılarına təbrik məktubları səsləndirilib.

Görkəmli akademikin oğlu Ayaz Məmmədəliyev atasının xatirəsinə göstərilən ehtiram üçün BDU rəhbərliyinə təşəkkürünü bildirib.

Öz işini plenar iclaslarla davam etdirən konfrans noyabrın 16-da yekunlaşıb.

# Akademik İbrahim İbrahimovun 110 illik yubileyi qeyd olunub

***Noyabrın 28-də Bakı Dövlət Universitetində akademik İbrahim İbrahimovun anadan olmasının 110 illik yubileyinə həsr olunmuş "Funksiyalar nəzəriyyəsi, funksional analiz və onların tətbiqləri" mövzusunda Respublika elmi konfransı keçirilib.***

Konfransın açılışında çıxış edən BDU-nun Mexanika-riyaziyyat fakültəsinin dekanı Ziyatxan Əliyev görkəmli akademikin Azərbaycanda funksiyalar nəzəriyyəsi elmi məktəbini yaratdığını qeyd edib. Bildirib ki, onun akademik Mstislav Keldışla birlikdə "Nyutonun interpolyasiya sırasının bütün tam funksiyalar sinfində yığılması üçün dəqiq əlamət"i tapması, akademik Aleksandr Gelfondla birgə interpolyasiya nəzəriyyəsinin üsulları vasitəsilə "İki nöqtə haqqında problem" adlanan məsələni həll etməsi funksiyalar nəzəriyyəsinin böyük elmi nailiyyəti və bir sıra elmi-tədqiqatların çıxış nöqtəsi olub. İbrahim İbrahimovun Azərbaycanda ali riyaziyyatın tədrisi və təşkili sahəsində böyük xidmətləri var. O, 200-dən çox elmi əsərin, bir sıra monoqrafiya və dərsliklərin müəllifidir. 60-dan çox fəlsəfə doktoru və 10 elmlər doktoru hazırlayıb. İbrahim İbrahimov "Əməkdar elm xadimi" fəxri adına, Azərbaycan Respublikasının Dövlət mükafatına layiq görülüb, "Xalqlar dostluğu" ordeni ilə təltif edilib.

BDU-nun Ali riyaziyyat kafedrasının müdiri Misir Mərdanov "Riyaziyyata həsr olunmuş alim ömrü" adlı məruzəsində akademik İbrahim İbrahimovun riyaziyyat elminin inkişafındakı əvəzsiz xidmətlərindən danışıb. Bildirib ki, İbrahim İbrahimov riyaziyyat sahəsində elmlər namizədi elmi dərəcəsini almış ilk azərbaycanlı alimdir. Alim analitik funksiya vasitəsilə düzələn bəzi sistemlərin tamlığını tədqiq edərək riyazi analiz sahəsində klassik nəticələrə nail olub. O, İbrahim İbrahimovun təvazökar, sadə insan, prinsipial, öz haqlı mövqeyindən dönməyən şəxsiyyət kimi onu tanıyanların qəlbində hər zaman yaşayacağını qeyd edib.

BDU-nun Tətbiqi riyaziyyat və kibernetika fakültəsinin Riyazi fizika tənlikləri kafedrasının müdiri, akademik Yusif Məmmədov, Funksiyalar nəzəriyyəsi və funksional analiz kafedrasının professoru Camali Məmmədxanov çıxışlarında alimin Azərbaycanın ali məktəblərində riyaziyyatın tədrisi və təşkili sahəsində böyük xidmətləri barədə məlumat veriblər. Çıxışlarda İbrahim İbrahimovun yetirmələrinin onun yolunu uğurla davam etdirdiyi, riyaziyyat elminin nəzəri və praktiki məsələlərinin tədqiqi ilə məşğul olduqları vurğulanıb.

Sonda alimin qızı, professor Səidə İbrahimova atasının xatirəsinə göstərilən yüksək ehtirama görə tədbirin təşkilatçılarına və iştirakçılarına minnətdarlığını bildirib. Bölmə iclasları ilə davam edən konfrans öz işini noyabrın 29-da yekunlaşdırıb.

# AzTV-nin sədr müavini Rafiq Həşimov Jurnalistika fakültəsinin qonağı olub

*Noyabrın 24-də Azərbaycan Televiziya və Radio Verilişləri Qapalı Səhmdar Cəmiyyətinin (AzTV) sədr müavini, aparıcı, ssenarist, rejissor Rafiq Həşimov Jurnalistika fakültəsinin qonağı olub.*



Jurnalistin nitq mədəniyyəti dərsi çərçivəsində təşkil olunmuş görüşdə fənn müəllimi Xatirə Hüseynova tələbələrə Rafiq Həşimovun yaradıcılığı barədə məlumat verib, onun müəllifi olduğu filmlərdən, tərcümələrdən, televiziya və radiodakı fəaliyyətindən danışıb.

Dəvətə görə təşəkkürünü bildirən Rafiq Həşimov məzunu olduğu Jurnalistika fakültəsinin tələbələri ilə ünsiyyətdən məmnunluğunu diqqətə çatdırıb. O, televiziya aparıcısının iş xüsusiyyətləri, jurnalistin nitq mədəniyyətinin təməl prinsipləri, müasir jurnalistikanın yeni yaradıcılıq trendləri barədə tələbələrə ətraflı məlumat verib. Tələbələr Rafiq Həşimovun radioda səsləndirdiyi maraqlı nümunələri dinləyiblər.

Görüşdə iştirak edən dekan müavini Samir Mirzəyev, Beynəlxalq jurnalistika və informasiya siyasəti kafedrasının müdiri Aynur Nəsirova belə tədbirlərin gənclərin təhsili və dünyagörüşünün inkişafında səmərəsindən bəhs ediblər.

Görüş səmimi interaktiv mühitdə davam edib. Rafiq Həşimov tələbələri maraqlandıran çoxsaylı sualları cavablandırıb.

# Tələbələr AMEA Mərkəzi Elmi Kitabxanasının iş təcrübəsi ilə tanış olublar

*Noyabrın 30-da Kitabxanaçılıq-informasiya fakültəsinin III kurs tələbələri Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Mərkəzi Elmi Kitabxanasının (MEK) iş təcrübəsi ilə tanış olublar.*



Kitabxananın direktoru, professor Məmməd Əliyev MEK-in tarixi, strukturu, müasir dövrdəki fəaliyyəti, sənəd dövriyyəsi, kitab fondu və eləcə də prioritetləri barədə tələbələrə ətraflı məlumat verib. O vurğulayıb ki, kitabxananın yeni binası Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2011-ci il 29 aprel tarixli Sərəncamına əsasən tikilib. Kitabxana ən müasir avadanlıqlarla təchiz olunub, ötən dövr ərzində qurumun kadr potensialı inkişaf etdirilib. Tələbələr təcrübə zamanı kitabxananın şöbələri, həmçinin ənənəvi və elektron kataloqu ilə tanış olublar, burada həyata keçirilən rəqəmsallaşdırma prosesləri barədə informasiyalar onların diqqətinə çatdırılıb. Kitabxanada yeni yaradılmış Qarabağ Qəhrəmanları Fondu ilə tanışlıq təcrübə iştirakçılarında böyük təəssürat yaradıb.

Görüş zamanı tələbələrin sualları MEK-in mütəxəssisləri tərəfindən cavablandırılıb, qarşılıqlı fikir mübadiləsi aparılıb. BDU-nun Kitabxanaçılıq-informasiya fakültəsinin dosenti, təcrübə rəhbəri Rəşad Qardaşov kitabxananın rəhbərliyinə yaradılmış şəraitə, tələbələrə göstərilən xüsusi diqqət və qayğıya görə təşəkkürünü bildirib.

# "İtaliyada türkoloji araşdırmalar" mövzusunda elmi seminar keçirilib

*Noyabrın 29-da Filologiya fakültəsinin Türkologiya kafedrasının nəzdində "Türkoloji araşdırmalar" elmi-tədqiqat laboratoriyasının təşkilatçılığı ilə "İtaliyada türkoloji araşdırmalar" mövzusunda elmi seminar keçirilib.* "Kitabi-Dədə Qorqud" dastanının ikinci əlyazmasının (Vatikan nüsxəsi) italyanlar tərəfindən aşkar edilməsinin 70 illiyinə həsr olunmuş seminarda Azərbaycan dilçiliyi kafedrasının professoru Zemfira Şahbazova, Türkologiya kafedrasının dosenti İslam Vəliyev, Azərbaycan dili və ədəbiyyatının tədrisi metodikası kafedrasının dosenti Rəhilə Quliyeva və fakültənin magistrantları iştirak ediblər.

Seminarı giriş sözü ilə açan laboratoriyanın elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru Ramil Bayramov türkologiyanın inkişafında Avropadakı əsas türkoloji mərkəzlərin, o cümlədən italyan türkoloqlarının fəaliyyətinin əhəmiyyətli rol oynadığını vurğulayıb. Bildirib ki, italyan türkoloqu Ettore Rossinin 1952-ci ildə "Kitabi-Dədə Qorqud" dastanının Vatikan nüsxəsini üzə çıxarması türkoloji aləmdə böyük hadisə kimi yadda qalıb.

Mövzu ilə bağlı məruzə edən laboratoriyanın elmi işçisi Pərvin Eyvazov italyan türkologiyasının tarixi haqqında ətraflı məlumat verib. Qeyd edib ki, XV əsrdən başlayaraq Avropada şərq dillərini öyrənmək və öyrətmək məqsədi ilə məktəb və institutlar açılıb, universitetlərdə kafedralar təşkil olunub, qrammatika kitabları və lüğətlər hazırlanıb. Tarixi və iqtisadi-siyasi münasibətlər zəminində meydana gələn türk-italyan əlaqələri nəticəsində İtaliyada türk dünyasına maraq artıb və bu istiqamətdə türk xalqlarının dilinə, tarixinə və ədəbiyyatına dair çox sayda əsərlər yazılıb. İtalyanların türkologiya sahəsindəki fəaliyyətləri Avropada da mühüm əhəmiyyət daşıdığı kimi, türk dünyasında da xüsusi diqqət çəkir.

Məruzənin "Türk-italyan münasibətlərinin tarixinə qısa nəzər" adlı bəhsində hər iki xalq arasında yaranmış tarixi əlaqələrin səbəblərindən, italyan şəhər dövlətlərinin Şərqdə, xüsusilə türk coğrafiyasındakı iqtisadi-siyasi və diplomatik fəaliyyətindən geniş söz açılıb. "Klassik italyan türkologiyası: İtaliyada ilk türkoloji araşdırmalar" və "İtaliyada müasir türkologiya" adlı bəhslərdə isə italyanların türklər haqqında qələmə aldıqları ilk əsərlər və müasir mərhələdə italyan türkologiyasının əsas istiqamətləri haqqında geniş məlumat verilib.

# Hər şeydən üstün - Vətən!



*Bir dəqiqəlik gözlərimi yumub şəhərin səsini dinləyirəm. Şəhər sanki dil açıb mənimlə danışır. Səssizliyi unudub balaca uşaq kimi yeni sözlər öyrənir. Lüğətində isə ancaq sevinc sözlərini yazır. Bu səhnəyə şahid olaraq təəccüblənirəm. Mənim əlimdən tutur. Sonra bir fırça verir. Deyir ki, gözəl şəkil çək! O şəkildə çoxlu insanlar olsun. Fərqi yoxdur qoca, cavan, uşaq... Əsas odur ki, Vətəninə bağlı insanlar çəkəsən. Mən o əsərə baxanda millətin gücünü hiss edim. Yaratdığın tablonu seyr edərkən keçmişini gələcəyin uğuruna çevirən birlik görüm. Bu birliyin səsi dünyanın bütün yerlərində eşidilsin. Yad ediləndə yaddaşlarda fəxrlə bir ad səslənsin - Azərbaycan!*

Bu vaxt sanki gözümə qoca tarixin baxışı tuşlanır. Mənə baxıb söyləyir ki, bu hissi yaşamaq lazımdır. Görmək ilə kifayətlənsən, mənasız olar. Onun dediklərinə əməl edirəm. Ayaq saxlayıb Vətənimə musiqi kimi qulaq asıram. Sətirləri o qədər mənalıdır ki, insanın ruhunu sakitləşdirir. Musiqinin nəqəratı isə "Qarabağ Azərbaycandır" kimi səslənir. Elə bu vaxt 44 günlük Vətən müharibəsini xatırlayıram. Ağlıma isə tək bir kəlmə gəlir. Qələbə! Bu söz çox cümlənin səbəbi, eyni zamanda başlanğıcıdır. Çünki Biz Vətəni hər bir şeydən üstün bildik. Bunu sözdə deyil, əməldə etdik. Biz ölkəmizi yaşatmaq üçün canımızdan, qanımızdan keçdik. Gözümüzün yaşını silib Zəfəri yaşatdıq. Dünyaya xalqımızın gücünü göstərdik. Kim olduğumuzu bildirdik. Özümüzü sübut etdik. Və Qalibiyyətin ayaq səslərini eşitdik!

İndi sizə kimlərdən deyim? İki oğlunu vətənə qurban vermiş atadan, yoxsa ümidini şəhid oğluna bağlamış anadan? İstəsəm də deyə bilmərəm. Bu ağrı nə söz, nə də cümlə ilə ifadə olunur. Səbəbi isə bəzi yaraların dilsiz olmasıdır. Biz şəhid kəlməsini eşidəndə qəlbimiz sızlasa belə, ölkəmizi öz canımızdan üstün tutan millətik. Rütbəmizdən asılı olmayaraq mənliyimizi, kimliyimizi daim zirvələrə yüksəldirik. General-mayor Polad Həşimov kimi...O, əsgərlərlə birlikdə düşmənə elə bir dağ çəkdi ki, o yaranın izi bir də sağalmaz. Sağalsa belə, qabıq bağlamağa gücü çatmaz. Çünki türklər bir dəfə şəhid olur, min dəfə dirilirlər. Eynən Cəbrayıl Dövlətzadə kimi...O, Polad Həşimovun qisasını aldı. Yaşının kiçik olmasına baxmayaraq, güclü Vətən oğlu olduğunu sübut etdi. Və Vətən torpağına döndü. Bütün şəhidlərimiz kimi...

Arxa cəbhəmiz də ön cəbhəmizlə birlikdə savaşdı. Ali Baş Komandanımız, Xalqımız, Dövlətimiz, Ordumuz bir səslə "Qarabağ Azərbaycandır!" dedi. Bu söz bizə güc verdi - "Dəmir Yumruq" olduq! Xalq olaraq bu Qələbəni, Sevinci birlikdə qazandıq.

İndi bütün bunlara nəzər yetirib, göydə hökmranlığını yaşayan bayrağımıza baxıram. Bayrağın ətrafını quşlar bürüyüb. Onlara baxanda səmada bizi izləyən şəhidlərimizi xəyal edirəm. Bu zaman Çingiz Mustafayev gözümün önündə canlanır. Çiynində kamerası ilə Polad Həşimovun başçılıq etdiyi Qələbə paradını çəkir. Uzaqdan Xudayarın "Vətən yaxşıdır!" ifası səslənir. Bu səfər Çingiz Mustafayev insanların kədərini deyil, sevincini kameraya çəkir...

***Nəzrin Gəncəliyeva***
*BDU-nun "Zəfər dastanı" esse müsabiqəsində III yerin qalibi, Jurnalistika fakültəsinin III kurs tələbəsi*

# Türk və ispan dillərindəki frazeoloji birləşmələrin xüsusiyyətləri müqayisəli təhlil olunub

***Noyabrın 1-də Şərqşünaslıq fakültəsinin Türk filologiyası kafedrasında "Müasir türk və ispan dillərindəki frazeoloji birləşmələrin qrammatik və leksik-semantik xüsusiyyətləri" adlı elmi seminar keçirilib.*** Seminarda kafedranın baş müəllimi Nərminə Məmmədova eyniadlı məruzə ilə çıxış edib.

Mühazirəçi müqayisəli frazeologiyanın müasir dilçilikdə ən aktual məsələlərdən biri olduğunu vurğulayıb. Qeyd edib ki, ispan və türk dilləri kimi həm tipoloji, həm də genealoji baxımdan bir-birindən fərqli feillərin frazeoloji sistemlərinin müqayisəli təhlili böyük maraq doğurur. Nərminə Məmmədova daha sonra müasir türk və ispan dillərinin frazeoloji birləşmələrinin iki və ya daha çox sözün birləşməsi əsasında təşəkkül tapdığını nümunələrlə izah edib.

Sonda mühazirəçi seminar iştirakçılarının mövzu ilə bağlı suallarını cavablandırıb.

# Nanoaraşdırmalar elmi-tədqiqat laboratoriyasının seminarı keçirilib



***Noyabrın 1-də Bakı Dövlət Universitetinin Tədqiqat, İnkişaf və İnnovasiyalar üzrə Mükəmməllik Mərkəzinin Nanoaraşdırmalar elmi-tədqiqat laboratoriyasının elmi seminarı keçirilib.*** Seminarda laboratoriyanın elmi işçisi Almara Rəhimli "TSD metodu vasitəsilə PVX/TiO2 əsaslı nanokompozitlərin yük halının təyini" mövzusunda məruzə ilə çıxış edib. Məruzəçi Termostimullaşdırılmış depolyarizasiya metodu və həmin metoddan istifadə etməklə PVX/TiO2 əsaslı nanokompozitlərin yük halının tədqiqinin nəticələri haqqında məlumat verib. O, həmçinin elektrotermopolyarlaşmanın (ETP) PVX/TiO2 əsaslı nanokompozitlərin aktiv xassələrinə təsirindən danışıb və qeyd edib ki, ETP prosesinin təsiri altında PVX/TiO2 əsaslı nanokompozitlərin fazalararası sərhədində sərhədyanı yüklər toplanır. Bu yüklər yüksək intensivlikli daxili lokal sahə yaradır, onun təsiri altında TiO2 nanohissəciklərinin əlavə lüminessensiya mərkəzləri aktivləşir, nəticədə lüminessensiya intensivliyi artır.

Məruzə üzrə məlumatlar slaydlar vasitəsi ilə təqdim edilib.

Seminarın sonunda məruzəçi iştirakçıların mövzu ilə bağlı suallarını cavablandırıb.

# Kimya fakültəsində "Qarabağın təbii sərvətləri və mədəni irsi" adlı tədbir



***Noyabrın 1-də Bakı Dövlət Universitetinin Kimya fakültəsinin Tələbə Elmi Cəmiyyətinin təşəbbüsü ilə "Şuşa ili"nə həsr olunmuş "Qarabağın təbii sərvətləri və mədəni irsi" adlı tədbir keçirilib.***

Əvvəlcə Dövlət himni səsləndirilib, torpaqlarımızın azadlığı uğrunda həlak olan şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Kimya fakültəsinin dekanı Fuad Kərimli bildirib ki, işğal olunmuş ərazilərdə Ermənistan tərəfindən otuz ilə yaxın müddətdə vandalizm siyasəti həyata keçirilib, təbii sərvətlər, infrakstruktur vəhşicəsinə talan edilib, tarixi abidələrimiz dağıdılıb. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə doğma torpaqlarımız işğaldan azad edildikdən sonra bütün dünya ermənilərin törətdiyi ekoloji, mədəni soyqırımın şahidi olur. Fuad Kərimli gəncləri erməni yalanlarını ifşa etmək üçün bütün istiqamətlərdə davamlı fəaliyyət göstərməyə çağırıb.

Kimya fakültəsinin dekan müavini Taleh Qəhrəmanov isə qeyd edib ki, ermənilər tərəfindən bu cür vandalizm aktları təkcə azərbaycanlılara qarşı törədilməyib. O, erməni millətçilərinin terrorçu mahiyyəti, insanlığa qarşı törətdikləri cinayətlər barədə tələbələrə məlumat verib. Bildirib ki, hazırda Azərbaycan dünyada multikultural dəyərlərin inkişaf etdiyi ölkə kimi tanınır. Xalqımız haqlı olaraq beynəlxalq təşkilatlardan ermənilərin törətdikləri vandalizm aktlarına qarşı ədalətli münasibət göstərilməsini tələb edir.

Tədbirdə Kimya fakültəsinin II kurs tələbəsi Aytac Vəliyeva "İşğal faktının mədəni irsimizə təsiri", IV kurs tələbəsi Hüseyn Quluzadə "İşğaldan azad edilmiş ərazilərimizin təbii sərvətləri və erməni vandalizmi", IV kurs tələbəsi Daşqın Abdulla isə "Azərbaycan təbiətinə qarşı ekoloji terror" mövzularında çıxışlarını təqdim ediblər.

Tədbirin sonunda fakültə Tələbə Elmi Cəmiyyətinin sədri İsa İsayevin rəhbərliyi ilə hazırlanmış videoçarx təqdim olunub.

# BDU-da təlimatçı fəaliyyətinin psixoloji aspektləri müzakirə olunub

***Noyabrın 1-də Bakı Dövlət Universitetinin Elmi fəaliyyətin təşkili və innovasiyalar Mərkəzinin Magistratura və doktorantura şöbəsinin təşkilatçılığı ilə "Təlimatçı fəaliyyətinin psixoloji aspektləri" ("Train the trainers" proqramı) mövzusunda seminar keçirilib.***

Seminarda Biologiya, Ekologiya və torpaqşünaslıq, Jurnalistika, Filologiya, Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültələrinin doktorantları (dissertantları) iştirak ediblər.

Sosial elmlər və psixologiya fakültəsinin Sosial və pedaqoji psixologiya kafedrasının fəlsəfə doktoru proqramı üzrə dissertantı Səbinə Estrova eyniadlı məruzəsində təhsilalanların və gələcək təlimçilərin pedaqoji fəaliyyətinin psixoloji aspektləri barədə məlumat verib. Bu fəaliyyətin dinləyicilərə şəxsiyyətin mənəvi, əqli keyfiyyətlərinin formalaşdırılması, inkişaf etdirilməsi və təkmilləşdirilməsi üsullarını öyrətməkdən ibarət olmasını vurğulayıb.

Seminarda təlimatçı fəaliyyətinin psixoloji aspektləri üzrə faktorlar və xüsusiyyətlər araşdırılıb. Daha sonra Magistratura və doktorantura şöbəsinin müdiri Mirnamik Bəşirov seminarın aktuallığı, pedaqoji və psixoloji aspektlərin araşdırılmasının bütün sahələr üçün önəmli olduğunu vurğulayıb, müasir səviyyədə təqdimatı üçün məruzəçiyə təşəkkür edib. Seminarın sonunda iştirakçılara sertifikatlar təqdim edilib.

# BDU-nun İsrailin Holon Texnologiya İnstitutu ilə ikili diplom proqramı davam edir



***Bakı Dövlət Universitetinin İsrailin Holon Texnologiya İnstitutu ilə ikili diplom proqramı uğurla davam edir.***

Holon Texnologiya İnstitutu ilə BDU-nun Tətbiqi riyaziyyat və kibernetika fakültəsinin Kompüter elmləri ixtisası üzrə bakalavr pilləsində ikili diplom proqramının icrasına 2020-2021-ci tədris ilinin yaz semestrindən başlanılıb.

2021/2022-ci tədris ilində daha 5 tələbənin proqrama cəlb edilməsi ilə sözügedən ikili diplom proqramında təhsil alan tələbələrin sayı 10-a çatdırılıb. Proqrama əsasən, tələbələr 5 semestr BDU-da, 3 semestr isə Holon Texnologiya İnstitutunda təhsil alırlar. Proqramda tədris ingilis dilində aparılır və tələbələrə 3 semestr ərzində 9 fənn Holon Texnologiya İnstitutunun müəllimləri tərəfindən tədris olunur. Bu ilin oktyabr ayında proqramda təhsil alan tələbələrdən 5-i məzun olub, digər 5 tələbə isə təhsillərini davam etdirmək üçün İsrailə yola düşüb.

Proqramın əsas məqsədi kompüter elmləri sahəsində effektiv alqoritmlərin qurulması və təhlilinin müasir metodlarını, texnologiyalarını real sənaye məsələlərinin həllində tətbiq etmək bacarığına malik mütəxəssislər hazırlamaqdır.

# "Gənc tədqiqatçılara dəstək" layihəsinin icrasına başlanılıb

***Noyabrın 17-də Bakı Dövlət Universitetinin Elmi fəaliyyətin təşkili və innovasiyalar Mərkəzinin Doktorantura və magistratura şöbəsinin təşkilatçılığı ilə "Gənc tədqiqatçılara dəstək" layihəsinin icrasına başlanılıb.***

Bununla əlaqədar keçirilən tədbirdə Elmi fəaliyyətin təşkili və innovasiyalar Mərkəzinin direktoru Mais Süleymanov layihənin əhəmiyyətini vurğulayıb. Qeyd edib ki, layihənin əsas məqsədi magistratura və doktorantura səviyyəsində təhsil alan tələbələri, eləcə də gənc tədqiqatçı müəllimləri elmi-tədqiqat işinin təşkili və aparılması sahəsində zəruri məlumatlarla tanış etmək, müvafiq bacarıqlar aşılamaqdır.

Magistratura və doktorantura şöbəsinin müdiri Mirnamik Bəşirov layihə haqqında geniş məlumat verib. Sosial elmlər və psixologiya fakültəsinin dosenti Kəmalə Qəhrəmanova layihənin əhəmiyyətindən bəhs edib, praktik xarakter daşıdığını vurğulayıb.

İSSN Beynəlxalq Agentliyinin Azərbaycan üzrə əlaqələndiricisi Xəyalə Məmmədova iştirakçılara beynəlxalq elmi jurnallara müraciət və nəşr qaydaları ilə bağlı geniş məruzə edib.

Tədbirin sonunda məruzəçi verilən sualları cavablandırıb.

# Azərbaycan Yazıçılar Birliyinin katibi Səlim Babullaoğlu ilə görüş keçirilib

***Noyabrın 14-də Bakı Dövlət Universitetində Kitabxanaçılıq-informasiya fakültəsinin təşkilatçılığı ilə "Məzunlarla görüş" layihəsi çərçivəsində Azərbaycan Yazıçılar Birliyinin (AYB) katibi, şair, tərcüməçi, esseist Səlim Babullaoğlu ilə görüş keçirilib. Kitabxanaçılıq-informasiya fakültəsinin dekanı Ələmdar Cabbarlı fakültənin yaranmasının 60 illiyi ərəfəsində həyata keçirilən layihə barədə məlumat verib, bu cür görüşlərin tələbələrin mütaliə mədəniyyətinin, estetik zövqünün formalaşmasında və eləcə də onların sosial fəallıqlarının artmasında mühüm rol oynadığını bildirib.***



Tədbirdə çıxış edən Azərbaycan Yazıçılar Birliyinin birinci katibi, Xalq yazıçısı Çingiz Abdullayev Səlim Babullaoğlunun çağdaş ədəbiyyatımızın inkişafındakı rolundan bəhs edib. Bildirib ki, Səlim Babulloğlu ədəbiyyatımızda istedadlı şair, tərcüməçi və esseist kimi imzasını təsdiqləyib: "Səlim Babullaoğlu eyni zamanda Azərbaycan Yazıçılar Birliyinin beynəlxalq əlaqələr və tərcümə məsələləri üzrə katibi kimi Azərbaycan ədəbiyyatının, Qarabağ həqiqətlərinin xaricdə təbliği ilə bağlı mühüm layihələr həyata keçirir, nəşr etdirdiyi kitablarla beynəlxalq kitab sərgilərində ölkəmizi layiqincə təmsil edir".

Görüşdə "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin sədr müavini, Əməkdar artist Rafiq Həşimov, AYB-nin katibi İlqar Fəhmi Səlim Babullaoğlunun çoxşaxəli yaradıcılığı haqqında söz açıb, ədibin ölkəmizdə və xaricdə çap olunan kitablarından, baş redaktorluğu ilə nəşr olunan "Dünya ədəbiyyatı" və "Kitabçı" dərgilərinin əhəmiyyətindən bəhs ediblər. Onun rəhbərliyi ilə 2022-ci ildə gerçəkləşdirilən "Sözün də su kimi lətafəti var" I Bakı Beynəlxalq Poeziya Festivalının və Azərbaycan da daxil olmaqla, dünyanın 30 ölkəsindən 44 şairin iştirak etdiyi "Şuşaya salam" layihəsinin böyük rəğbətlə qarşılandığını bildiriblər.

BDU-nun Humanitar məsələlər və gənclər siyasəti şöbəsinin müdiri Ramin Səmədov, Kitabşünaslıq və nəşriyyat işi kafedrasının müdiri Knyaz Aslan, Biblioqrafiyaşünaslıq kafedrasının müdiri Nadir İsmayılov, Kitabxanaçılıq-informasiya fakültəsinin dekan müavini Zahidə Rzayeva çıxışlarında istedadlı şairin əsərlərinin məziyyətlərindən danışıblar.

Səlim Babullaoğlu onunla görüşə şərait yaratdıqlarına görə BDU rəhbərliyinə təşəkkürünü bildirib, görüş iştirakçıları üçün seirlərini səsləndirib.

Diskussiya şəraitində davam edən görüş tələbələrin böyük marağına səbəb olub, Səlim Babullaoğlu imzalı kitablarını tələbələrə hədiyyə edib.

# Xalq yazıçısı Süleyman Rəhimova həsr olunmuş elmi seminar keçirilib

***Noyabrın 17-də Kitabxanaçılıq-informasiya fakültəsində professor-müəllim heyətinin, doktorant və magistrantların iştirakı ilə "Xalq yazıçısı Süleyman Rəhimov Azərbaycanda kitabxana quruculuğunun təşkilatçısı kimi" mövzusunda elmi seminar keçirilib. Elmi seminarda BDU-nun Biblioqrafiyaşünaslıq kafedrasının müdiri, dosent Nadir İsmayılov mövzu ilə bağlı məruzə edib.***



Məruzədə XX əsr Azərbaycan ictimai fikir tarixinin və ədəbi prosesinin görkəmli nümayəndəsi, Xalq yazıçısı Süleyman Rəhimovun milli mədəniyyətimizin inkişafı, o cümlədən, kitabxana-biblioqrafiya quruculuğu, ölkəmizdə ali kitabxanaçılıq təhsilinin təşkili və inkişafı sahəsindəki xidmətləri şərh olunub. Süleyman Rəhimovun kitabxana-biblioqrafiya quruculuğu sahəsindəki irsi mədəniyyət tarixi kontekstində araşdırılıb. Bildirilib ki, Süleyman Rəhimov ötən əsrin 30-40-cı illərindən etibarən müxtəlif mətbuat orqanlarında Azərbaycanda kitabxana işinin təşkili, əhalinin maarifləndirilməsi, oxucu zövqünün və mütaliə mədəniyyətinin formalaşması kimi aktual məsələlərə dair çoxsaylı məqalələr dərc etdirib. Həmin məqalələrdə sahə ilə bağlı problemlər, onların həlli yolları göstərilib, eyni zamanda ölkəmizdə kitabxanaşünaslıqla bağlı ilk elmi fikirlər irəli sürülüb.

1945-1953-cü illərdə Azərbaycan Nazirlər Soveti yanında Mədəni-maarif Müəssisələri Komitəsinin sədri olarkən Süleyman Rəhimov bu sahəyə bilavasitə rəhbərlik edib. Bu dövrdə məhz onun səyləri ilə kitabxana işinin inkişafı ilə bağlı bir sıra mühüm qərarlar qəbul olunub. Bölgələrdə kitabxanaların açılması, kitabxana fondlarının zənginləşdirilməsi ilə bağlı tədbirlər həyata keçirilib, bu sahəyə əsaslı maliyyənin ayrılmasına nail olunub. Qeyd olunub ki, Süleyman Rəhimovun bu sahədə ən böyük xidmətlərindən biri də Mirzə Fətəli Axundov adına Milli Kitabxananın indiki binasının milli ornamentlər əsasında layihəsinin hazırlanması, təsdiqi və həyata keçirilməsinə bilavasitə rəhbərlik etməsi hesab olunur.

Məruzədə vurğulanıb ki, Süleyman Rəhimov kitabxana fəaliyyəti üzrə ixtisaslı kadrların hazırlanmasını vacib hesab edib, bu prosesin institusional formada həyata keçirilməsi üçün əməli addımlar atıb. O, 1947-ci ildə BDU-nun Filologiya fakültəsinin nəzdində kitabxanaçılıq ixtisasının açılmasında, Kitabxanaşünaslıq və biblioqrafiya kafedrasının yaranmasında, kafedra üçün müəllim kadrlarının seçilməsində mühüm rol oynayıb, bu ixtisas üzrə təhsil alan tələbələrə Kitab tarixi fənnindən ilk mühazirəni də məhz özü oxuyub.

Kitabxanaçılıq-informasiya fakültəsinin yaranmasının 60 illiyinə həsr olunmuş elmi seminar iştirakçıların marağına səbəb olub, məruzə ətrafında müzakirələr aparılıb.

# BDU-nun Qazax filialında "Şuşa - dünən, bu gün, sabah" mövzusunda Respublika elmi konfransı

***Noyabrın 28-də Bakı Dövlət Universitetinin Qazax filialının və Qazax Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə "Şuşa - dünən, bu gün, sabah" mövzusunda Respublika elmi konfransı keçirilib.***

Konfrans öz işinə torpaqlarımızın azadlığı uğrunda həlak olan şəhidlərimizin əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb. Sonra Şuşanın 270 illiyinə həsr olunmuş videoçarx təqdim olunub.

BDU-nun Qazax filialının direktoru Arif Rüstəmov konfransa 13 müxtəlif elmi-tədqiqat mərkəzi və ali təhsil müəssisəsindən 133 elmi məqalə təqdim olunduğunu bildirib. Təqdim olunmuş elmi işlərin gələcəkdə kitab şəklində çap ediləcəyini qeyd edən natiq həmin toplunun gənc tədqiqatçılar, tələbə və magistrantlara töhfə olacağını söyləyib.

Qazax Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov 44 günlük Vətən müharibəsində Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qəhrəman Ordumuzun tarixi Qələbə qazandığını, 30 ilə yaxın düşmən əsarətində olan torpaqlarımızda üçrəngli bayrağımızı ucaltdığını qeyd edib. O, ölkə başçısının imzaladığı "Şuşa şəhərinin Azərbaycanın mədəniyyət paytaxtı elan edilməsi haqqında" 7 may 2021-ci il tarixli, "Azərbaycan Respublikasında 2022-ci ilin "Şuşa İli" elan edilməsi haqqında" 5 yanvar 2022-ci il tarixli sərəncamlarının əhəmiyyətindən söz açıb.

Plenar iclasda BDU-nun Qazax filialının dosenti İmaş Hacıyev, baş müəllimi Ülviyyə Bayramova, AMEA Gəncə bölməsinin böyük elmi işçisi Əlimuxtar Muxtarov, Gəncə Dövlət Universitetinin dosenti Cavid Bağırzadə, Azərbaycan Aqrar Universitetinin dosenti Elvin Abbasov, Qazax Dövlət Sosial-İqtisadi Kollecin müəllimi Elvira Əfəndiyeva müxtəlif mövzularda çıxış ediblər.

Plenar iclas başa çatdıqdan sonra konfrans öz işini 4 bölmədə davam etdirib. Bölmə iclasları "Şuşa: 270 ilə tarixi ekskursiya. Azərbaycanın ictimai-siyasi həyatında Şuşanın rolu", "Şuşanın təhsil və maarifçilik ənənələri", "Şuşanın Azərbaycanın ədəbi irsində yeri", "Azərbaycanın mədəniyyət paytaxtı Şuşa multikultural dəyərlərin daşıyıcısı kimi" mövzularına həsr olunub.

# "Paşa Həyat Sığorta"nın BDU tələbələri üçün təlimi: "Sığorta, aktuar, risk"

***Noyabrın 24-də Bakı Dövlət Universiteti və "Paşa Həyat Sığorta" ASC arasında imzalanmış əməkdaşlıq haqqında memoranduma uyğun olaraq tələbələr üçün "Sığorta, aktuar, risk" mövzusunda təlim sessiyası keçirilib.***

BDU-nun Karyera və məzunlarla əlaqə sektorunun baş mütəxəssisi İlkin Şərifov tələbələri əmək bazarının tələbləri və sektorun əsas fəaliyyət istiqamətləri ilə tanış edib. Həmçinin biznes fəaliyyətində sığorta risklərinin müəyyən edilməsinin və aktuar hesablamaların önəmini vurğulayıb.

"Paşa Həyat Sığorta"nın əməkdaşı Nərmin Salmanova şirkətin fəaliyyəti, strategiyası və mövcud vakansiyalar haqqında tələbələri məlumatlandırıb.

Daha sonra şirkətin Sığorta riskləri şöbəsinin müdiri, BDU məzunu Cəlal Quliyev mövzu ilə bağlı geniş məlumat verib.

Təlimin sonunda iştirakçıların mövzu ətrafında çoxsaylı sualları cavablandırılıb və işə qəbul olunmaq istəyən namizədlərlə qısa müsahibələr təşkil edilib.

# BDU-da Sumqayıt Dövlət Universitetinin 60 illik yubileyinə həsr olunmuş dəyirmi masa

***Noyabrın 11-də Bakı Dövlət Universitetində Sumqayıt Dövlət Universitetinin 60 illik yubileyinə həsr olunmuş dəyirmi masa keçirilib.***

Tədbirdə çıxış edən BDU-nun rektoru Elçin Babayev qeyd edib ki, Ulu öndər Heydər Əliyevin əsasını qoyduğu elm və təhsil siyasəti, zəngin maarifçilik ənənələri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva tərəfindən uğurla həyata keçirilir. Ölkədə təhsilin milli və bəşəri ənənələr üzərində inkişafında ali məktəblərin üzərinə şərəfli və məsuliyyətli vəzifələr düşür. Bu vəzifələrin həyata keçirilməsində SDU-nun da özünəməxsus yeri var. 1962-ci ildən Azərbaycan Neft və Kimya İnstitutunun tədris bazası kimi fəaliyyətə başlamış SDU 1992-ci ildə müstəqil Azərbaycan Sənaye İnstitutuna çevrilib. Bu təhsil müəssisəsinin yaradılması Sumqayıtın iqtisadiyyatı və sənayesinin inkişafına kömək edən texniki sahələr üzrə kadrların hazırlanması prosesinə, ekoloji problemləri olan şəhərin sağlam zonaya çevrilməsinə, elm, təhsil və mədəniyyətin inkişafına təkan verib. Ümummilli lider Heydər Əliyevin 13 iyun 2000-ci il tarixində "Azərbaycan Respublikasında təhsil sisteminin təkmilləşdirilməsi haqqında" Fərmanı ilə Azərbaycan Sənaye Universitetinin bazasında Sumqayıt Dövlət Universitetinin yaradılması mühüm hadisəyə çevrilib. Hazırda SDU beynəlxalq standartlara cavab verən, yüksəkixtisaslı kadrlara malik universitetə çevrilmək istiqamətində uğurlu tədbirlər həyata keçirir. İdarəetmə sistemində yeni yanaşmalar təhsilin, elmin inkişafına, müasir texnologiyaların tətbiqinə zəmin yaradır.



Rektor qeyd edib ki, ölkəmizin elm və təhsil siyasətinin inkişafına öz töhfələrini verən BDU ilə Sumqayıt Dövlət Universiteti arasında müxtəlif sahələrdə uğurlu əməkdaşlıq əlaqələri mövcuddur. Elmi əməkdaşlıq, müdafiələrin təşkili, elmi-pedaqoji heyətin BDU-da təcrübə keçməsi, konfranslarda iştirak bu iki ali təhsil ocağı arasında əlaqələrin daha da güclənməsinə xidmət edir.

DU-nun rektoru Elxan Hüseynov isə qeyd edib ki, Sumqayıt Dövlət Universitetinin işçi heyətinin əksəriyyətini BDU məzunları təşkil edir. O, BDU-nun digər ali məktəblər üçün örnək olduğunu, iki universitetin gələcəkdə bir çox ortaq layihələrə imza ata biləcəyini vurğulayıb. Bildirib ki, SDU da BDU kimi klassik universitetdir. Universitetdə 7 fakültə, 29 kafedra, 6 elmi-tədqiqat laboratoriyası, Tədris-Metodik Mərkəz, Doktorantura və Magistratura şöbələri fəaliyyət göstərir. Universitetdə fəlsəfə və elmlər doktoru proqramları üzrə mütəxəssis hazırlığı aparılır.

BDU-nun Elm və innovasiyalar üzrə prorektoru Hüseyn Məmmədov vurğulayıb ki, paytaxta ən yaxın, sənaye müəssisələrinin mərkəzində yerləşən, regionda yeganə ali təhsil ocağı olan SDU həm humanitar, həm də tətbiqi ixtisaslar üzrə mütəxəssis hazırlayır. Hüseyn Məmmədov diqqətə çatdırıb ki, beynəlxalq layihələrin hazırlanmasında əsas meyarlardan biri "Industry application" - sənayedə tətbiq meyarıdır. Bu mənada da SDU-nun üstünlüyü böyükdür. Belə ki, SDU-nun Sumqayıtda yerləşən sənaye müəssisələri ilə olan əlaqələrindən və BDU-nun elmi potensialından istifadə etməklə böyük həcmli birgə qrant layihələri hazırlamaq, gənc tədqiqatçıları layihələrə cəlb etmək olar. Bu cür əlaqələr BDU və SDU məzunlarının yüksək ixtisaslı kadrlar kimi hazırlanmasına, ölkə və beynəlxalq səviyyədə elm və təhsil fəaliyyəti sahəsində universitetin mövqeyinin möhkəmlənməsinə, nüfuzunun artmasına xidmət edəcək, gənc tədqiqatçıların yaradıcılıq potensialını inkişaf etdirəcək, elmi əlaqələri genişləndirəcək. Hazırda SDU-nun 26-dan çox məzunu BDU-da həm inzibati-idarəetmədə, həm də müxtəlif fakültələrdə elmi-pedaqoji fəaliyyətlə məşğuldur. Hazırda BDU-da fəlsəfə doktoru proqramı üzrə təhsil alan 7 doktorantın elmi rəhbəri SDU-nun professorudur.

Daha sonra akademik Vasif Babazadə, SDU-nun Tarix və coğrafiya fakültəsinin dekanı Adil Baxşəliyev, BDU-nun Tarix fakültəsinin dekanı İbrahim Zeynalov, SDU-nun müəllimləri Osman Hacıyev və Sona Məhərrəmova çıxış edərək Sumqayıt Dövlət Universitetinin ölkənin ali təhsil sistemində oynadığı roldan, fəaliyyətindən, iki ali təhsil ocağı arasında əlaqələrin perspektivlərindən danışıblar.

# İrəvan Müəllimlər Seminariyasının 140 illiyinə həsr olunmuş Respublika elmi konfransı keçirilib

***Noyabrın 28-də Sosial elmlər və psixologiya fakültəsinin Pedaqogika kafedrası tərəfindən İrəvan Müəllimlər Seminariyasının 140 illiyinə həsr olunmuş "İrəvan Müəllimlər Seminariyası: Tarixilik və müasirlik" mövzusunda Respublika elmi konfransı keçirilib.***

Əvvəlcə İrəvan Müəllimlər Seminariyasının tarixi ilə bağlı videoçarx nümayiş etdirilib.

BDU-nun Sosial elmlər və psixologiya fakültəsinin dekanı Rövşən Cavadov İrəvan Müəllimlər Seminariyasının Azərbaycanın təhsil tarixində rolu, konfransın əhəmiyyəti barədə məlumat verib. Bildirib ki, İrəvan şəhəri tarixən azərbaycanlıların köklü yaşadığı böyük elm, maarif və mədəniyyət mərkəzlərindən biri olub. Şəhərdə Azərbaycan xalqına məxsus son dərəcə zəngin ədəbi-mədəni mühit formalaşıb. İrəvan xanlığı çar Rusiyasının tərkibinə qatıldıqdan sonra burada dünyəvi təhsilə xüsusi diqqət yetirilməsində həmin mühitin əhəmiyyətli rolu olub. XIX əsrin ikinci yarısından etibarən Cənubi Qafqazda maarifçilik hərəkatı geniş vüsət alıb. Regionda dünyəvi təhsil verən yeni tipli məktəbin - İrəvan Müəllimlər Seminariyasının açılması da məhz bu vaxtlara təsadüf edir.

Pedaqoji elmlər doktoru, Əməkdar elm xadimi, professor Fərrux Rüstəmov isə bildirib ki, 1881-ci ilin noyabr ayında fəaliyyətə başlayan İrəvan Müəllimlər Seminariyası çar hakimiyyətinin bölgədəki maraqları naminə yaradılmasına baxmayaraq, 40 ilə yaxın müddətdə hazırladığı müasir dünyagörüşünə və düşüncə tərzinə malik yüksəkixtisaslı milli müəllim kadrları ilə azərbaycanlıların üstünlük təşkil etdiyi İrəvan mahalında ədəbi-ictimai, elmi-mədəni həyatın ənənəvi dolğunluğunun və canlılığının qorunub saxlanılmasında təqdirəlayiq xidmətlər göstərib, pedaqoji fikir salnaməmizə yaddaqalan səhifələr yazıb.

BDU-nun professoru Hikmət Əlizadə, professor əvəzi Məcid İsmixanov, Azərbaycan Dövlət Pedaqoji Universitetinin professorları Rüfət Hüseynzadə, Həsən Bayramov, İramin İsayev çıxışlarında İrəvan Müəllimlər Seminariyasının Azərbaycanın maarifçilik tarixində xüsusi əhəmiyyətini qeyd ediblər. Vurğulanıb ki, görkəmli maarifpərvər Firidun bəy Köçərli seminariyanın ilk müəllimlərindən olub. Seminariyanın məzunları sırasında xalqımızın bir çox tanınmış şəxsiyyətləri və dövrünün görkəmli ziyalıları var.

Konfrans 5 bölmə üzrə işini davam etdirib.

# ADNSU-da BDU-nun Kitabxanaçılıq-informasiya fakültəsinin 60 illik yubileyi qeyd olunub

***Noyabrın 24-də Azərbaycan Dövlət Neft və Sənaye Universitetində (ADNSU) Bakı Dövlət Universitetinin Kitabxanaçılıq-informasiya fakültəsinin 60 illik yubileyinə həsr olunmuş "Müasir gənclik və rəqəmsal kitabxana" mövzusunda tədbir keçirilib.***

ADNSU-nun Elmi işlər üzrə prorektoru, professor Lətafət Qardaşova tədbir iştirakçılarını salamlayıb, fakültənin kollektivini, tələbə və məzunlarını 60 illik yubiley münasibətilə təbrik edib. Tədbirin moderatoru - AzİÎ e-Kitab Evinin direktoru, Kitabxanaçılıq-informasiya fakültəsinin məzunu Səlahət Mahmudova müasir cəmiyyətdə kitabxanaçılıq və informasiya fəaliyyətinin əhəmiyyətindən danışıb. Bildirib ki, bu sahədə kadr hazırlığında BDU-nun Kitabxanaçılıq-informasiya fakültəsi xüsusi mövqeyə malikdir: "Fakültə sahə üzrə elmi mərkəz kimi də nüfuz qazanıb. Bu günə qədər fakültəni 6000-dən çox məzun bitirib, onlar ölkənin bütün kitabxana-informasiya strukturlarında səmərəli fəaliyyət göstərirlər". Səlahət Mahmudova vurğulayıb ki, rəhbərlik etdiyi qurumun əməkdaşlarının əksəriyyəti məhz bu fakültənin məzunlarıdır.



Tədbirdə Kitabxanaçılıq-informasiya fakültəsinin dekanı Ələmdar Cabbarlı, dekan müavini Zahidə Rzayeva, kafedra müdirləri Nadir İsmayılov, Knyaz Aslan, Sevda Xəlfova, Biblioqrafiyaşünaslıq kafedrasının magistrantı Lamiyə Əliyeva çıxış edərək fakültənin tarixi, bu günü, gələcəyi və qarşıda duran vəzifələri barədə məlumat veriblər. Çıxış edənlər fakültənin 60 illik yubileyinə həsr olunmuş tədbirin keçirilməsinə görə ADNSU-nun rəhbərliyinə minnətdarlıq ediblər.

Tədbir AzİÎ e-Kitab Evi ilə tanışlıqla davam edib, iştirakçılara AzİÎ e-Kitab Evinin proqram və sistem təminatı, eləcə də 24/7 fəaliyyəti barədə məlumat verilib.

Sonda BDU-nun Kitabxanaçılıq-informasiya fakültəsinin 60 illiyinə həsr olunmuş videoçarx nümayiş olunub.

# Kitabxanaçılıq-informasiya fakültəsinin əməkdaşının ingilis dilində dərs vəsaiti nəşr olunub

***Kitabxanaçılıq-informasiya fakültəsinin Kitabxanaşünaslıq kafedrasının müəllimi, tarix üzrə fəlsəfə doktoru Eldəniz Məmmədovun ingilis dilində yeni dərs vəsaiti nəşr olunub.***

"Azərbaycanda kitab və kitabxana tarixi" ("History of books and libraries in Azerbaijan") adlı kitabın elmi redaktorları kitabxanaşünaslıq və informasiya elmləri üzrə alim, professor Cəfər Mehrad və ADA Universiteti Kitabxanasının direktoru, texnika üzrə fəlsəfə doktoru Elçin Məmmədovdur. Əsərin rəyçiləri BDU-nun Kitabxanaşünaslıq kafedrasının müdiri, dosent Elçin Əhmədov, Kitabşünaslıq və nəşriyyat işi kafedrasının müdiri, dosent Knyaz Aslan və Azərbaycan Dövlət İqtisad Universitetinin Kitabxana-İnformasiya Mərkəzinin direktoru, tarix üzrə fəlsəfə doktoru Adilə Abdullayevadır.




İlk dəfə ingilis dilində hazırlanmış dərs vəsaitində qədim zamanlardan XXI əsrin əvvəllərinədək Azərbaycanda kitab və kitabxana mədəniyyətinin formalaşması və inkişafının tarixi nəzəriyyəsi əks olunur. Ölkəmizdə kitab mədəniyyətinin inkişafının tarixi xronologiya əsasında tədqiq edildiyi dərs vəsaitində hazırda bu sahədə olan problemlər, onların həlli yolları, qarşıda duran hədəflər şərh olunur. Kitabın müasir dövrümüzü əhatə edən son bölməsində Ulu öndər Heydər Əliyevin və onun bütün sahələrdə olduğu kimi, mədəniyyət sahəsində də siyasətini uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin kitabxana işinə qayğısından bəhs olunur. Vurğulanır ki, hazırda ölkə əhalisinin informasiya təminatının ödənilməsində mühüm rol oynayan kitabxana şəbəkələri hərtərəfli inkişaf etdirilir.

BDU-nun Kitabxanaçılıq-informasiya fakültəsinin yaranmasının 60 illiyinə həsr olunmuş dərs vəsaiti kitabxanaşünaslıq və informasiya elmləri üzrə təhsil alan tələbələr, həmçinin yerli və əcnəbi kitabxana-informasiya mütəxəssisləri, o cümlədən mədəniyyət tarixi tədqiqatçıları üçün nəzərdə tutulub.

# Ərəb Media Forumunun prezidentinin Jurnalistika fakültəsinin tələbələri ilə onlayn görüşü

***Noyabrın 15-də Küveytdə fəaliyyət göstərən Ərəb Media Forumunun prezidenti Madi Əl Xamis Jurnalistika fakültəsinin tələbələri ilə onlayn formatda görüşüb.***

Görüşdə ərəb ölkələrində medianın tarixi inkişaf yolu və hazırkı vəziyyəti, Azərbaycan və ərəb ölkələri mediası arasındakı əlaqələr, jurnalistikanın nəzəri əsasları, müasir meylləri, həmçinin Madi Əl Xamisin müəllifi olduğu "Jurnalistikanın on qızıl qaydası" kitabı ilə bağlı müzakirələr aparılıb.

Görüşün əvvəlində qonağa Jurnalistika fakültəsində həyata keçirilən təlim-tədris prosesi haqqında qısa məlumat verilib. O da vurğulanıb ki, 2022-ci il Azərbaycanda "Şuşa ili" elan edilib və il ərzində ölkədə, eləcə də BDU-da müxtəlif tədbirlər təşkil olunub.



Beynəlxalq jurnalistika və informasiya siyasəti kafedrasının təşkilatçılığı ilə baş tutan görüşə BDU-nun rəhbərliyi, fakültə dekanlığı və Azərbaycanın Küveytdəki səfirliyi təşkilati dəstək verib.

Qeyd edək ki, Ərəb Media Forumunun prezidenti Madi Əl Xamis 2021-ci ilin noyabrında Bakıda səfərdə olub.

# BDU-nun Elmi Kitabxanasında "Necə nəşr etməli?" mövzusunda sonuncu vebinar keçirilib

***Bakı Dövlət Universitetinin Elmi Kitabxanasının təşkilatçılığı ilə noyabrın 16-da Azərbaycan Kitabxana İnformasiya Konsorsiumu çərçivəsində "Məqalənin təbliğ edilməsi və istinadların artırılması" ("How to promote your article and increase citations") mövzusunda növbəti vebinar keçiriləcək.***

Vebinarda "Sage" nəşriyyatının əməkdaşları - nüfuzlu tədqiqatçı redaktorlar Cessika Lipovski, Kristian Vakkari və Sin skarişbrik iştirak edib. Vebinar ingilis dilində sual-cavab sessiyası ilə keçirilib.

Beynəlxalq nəşriyyatlarda məqalə nəşrinin müxtəlif aspektlərinə həsr olunan silsilə vebinarların budəfəki buraxılışında araşdırmanın hədəf (düzgün) auditoriyaya çatmasını təmin etmək, məqaləni yaymaq, ona edilən istinadların sayını artırmaq və akademik məqaləni təbliğ etməklə bağlı praktik məsləhətlər verilib.

# "Müasir dövrdə Türkiyənin xarici siyasətində əsas trendlər" mövzusunda elmi seminar keçirilib



***Noyabrın 14-də Tarix fakültəsində elmi seminar keçirilib.*** Fakültənin elmi işlər üzrə dekan müavini Kəmalə Nəcəfovanın moderatorluğu ilə keçən seminarda Asiya və Afrika ölkələri tarixi kafedrasının baş müəllimi, tarix üzrə fəlsəfə doktoru Günel Əliyeva-Məmmədova "Müasir dövrdə Türkiyənin xarici siyasətində əsas trendlər" mövzusunda məruzə ilə çıxış edib. Məruzəçi Türkiyənin xarici siyasətinin bütün əsas konsepsiyaları slaydlarla nümayiş etdirib. Türkiyənin xarici siyasətində Azərbaycanla qırılmaz dostluq, qardaşlıq münasibətlərinin qırmızı xətlə keçdiyini vurğulayıb.

Seminarın mövzusunun metodoloji və nəzəri əsasını müasir mərhələdə Türkiyənin xarici siyasət aspektlərinə həsr olunan elmi məqalələr, internet resursları, həmçinin müəllifin gəldiyi nəticələr təşkil edir. Təqdimatda müəllifin cari dövrün beynəlxalq problemlərinin konseptual müddəalarının Türkiyənin xarici və daxili siyasətinə təsirinə həsr olunan monoqrafiyasından da istifadə edilib. Məruzəçi bildirib ki, Türkiyənin yeni xarici siyasət konsepsiyası ilk dəfə Əhməd Davudoğlunun "Strateji dərinlik. Türkiyənin beynəlxalq vəziyyəti" adlı fundamental əsərində ifadə etdiyi "mərkəzi dövlət" ideyasına əsaslanır.

Elmi seminarda 44 günlük Vətən müharibəsində Türkiyə - Azərbaycan qardaşlıq münasibətlərinin yüksək səviyyəsinin təhlilinə xüsusi yer verilib. Tarixi Şuşa bəyannaməsinin əhəmiyyəti, Türk Dövlətləri Birliyi Təşkilatında hər iki dövlətin aparıcı rolu təhlil olunub.

Elmi seminar maraqlı müzakirələrlə yadda qalıb.

# "Valideyn-övlad münasibətləri" mövzusunda təlim



***Noyabrın 15-də Bakı Dövlət Universitetinin Psixoloji yardım sektoru tələbələr üçün "Valideyn-övlad münasibətləri" mövzusunda təlim təşkil edib.***

Təlimdə valideyn-övlad ünsiyyəti, münasibətlərdə yaranan çətinliklər və onların aradan qaldırılma yolları müzakirə olunub.

Təlimdə tələbələrə valideynlərlə münasibətlərdə yaranan çətinliklərin aradan qaldırılmasına kömək edən məlumatlar verilib. Ətrafa, cəmiyyətə qarşı münasibətdə valideynlərin rolu təhlil edilib. Valideynlərlə ünsiyyətin şəxsin xarakterinin formalaşmasına təsiri haqqında müzakirə aparılıb.

Təlimin sonunda valideynlərlə münasibətlərdə çətinliklərlə üzləşən tələbələrə mütəxəssislər tərəfindən həll yolları göstərilib.

## BDU-nun basketbol komandası I Tələbə Basketbol Liqasına vəsiqə qazanıb

***Noyabrın 30-da Elm və Təhsil Nazirliyinin və Azərbaycan Basketbol Federasiyasının təşkilatçılığı ilə ali təhsil müəssisələri arasında I Tələbə Basketbol Liqasının seçmə mərhələsi keçirilib.*** Seçmə mərhələnin qrup mərhələsində Bakı Dövlət Universitetinin basketbol komandası ilə yanaşı, Azərbaycan Dövlət Pedaqoji Universiteti, Azərbaycan Memarlıq və İnşaat Universiteti, Dövlət Sərhəd Xidmətinin Akademiyası və Azərbaycan Dövlət Aqrar Universitetinin tələbələrdən ibarət komandaları iştirak ediblər.

Qrup mərhələsini birinci yerlə tamamlayan BDU-nun basketbol komandası Liqaya birbaşa vəsiqə qazanıb.

# Əməkdar jurnalist Elşad Eyvazlı "Elektron media" mövzusunda mühazirə deyib

*Noyabrın 5-də Əməkdar jurnalist, "Modern.az" İnformasiya Agentliyinin baş direktoru, Mətbuat Şurasının İdarə Heyətinin üzvü Elşad Eyvazlı Kitabxanaçılıq-informasiya fakültəsinin tələbələri üçün Elektron nəşrlər fənnindən "Elektron media" mövzusunda mühazirə deyib.*




Elşad Eyvazlı mühazirəsində əvvəlcə ənənəvi media ilə elektron media arasında müqayisəli təhlillər aparıb, onların fərqli və üstün tərəfləri barədə prinsipial məsələləri şərh edib. Natiq ötən əsrin sonlarından başlayaraq dünyada yeni media növünün - elektron medianın meydana gəldiyini və onun tez bir zamanda müxtəlif parametrlər üzrə ənənəvi mətbuatı üstələdiyini diqqətə çatdırıb. Elektron medianın informasiyanın həm məzmun, həm forma baxımından təqdim olunmasına və xüsusilə operativliyinə görə geniş imkanlara malik olduğunu bildirib. Mühazirədə elektron media resurslarında multimedia komponentlərinin yer almasının mühüm əhəmiyyət kəsb etdiyi vurğulanıb, müasir dünyada informasiyanın məzmunu ilə yanaşı, onun təqdim olunma formasının vacibliyi qeyd olunub.

Ölkəmizdə elektron medianın sürətlə inkişaf etdiyini bildirən məruzəçi yeni media növünün müxtəlif seqmentləri ilə bağlı detallı informasiyaları tələbələrin nəzərinə çatdırıb. Elşad Eyvazlı eyni zamanda bu sahədə olan problemlərdən də bəhs edib. Xüsusilə elektron mediada bir çox hallarda dəqiqləşdirilməmiş informasiyaların yer alması, ənənəvi mediadan fərqli olaraq burada dezinformasiyanı yayanların adətən məsuliyyətdən kənarda qaldıqları bildirilib.

Dərs zamanı həmçinin tələbələrə mövzu ilə bağlı praktiki tapşırıqlar verilib və onların nəticələri müzakirə olunub.

Elşad Eyvazlının mühazirəsi geniş diskussiyaya səbəb olub. Əməkdar jurnalist tələbələrin mövzu ilə bağlı çoxsaylı suallarını cavablandırıb.

# "Zəfərin izi ilə" mövzusunda tədbir

*Noyabrın 22-də Jurnalistika və Tarix fakültələrinin könüllülərinin birgə təşkilatçılığı ilə "Zəfərin izi ilə" adlı tədbir keçirilib.*



Əvvəlcə Dövlət himni səsləndirilib, torpaqlarımızın azadlığı uğrunda həlak olan şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Jurnalistika fakültəsinin dekan müavini Samir Mirzəyev və Tarix fakültəsinin Azərbaycan tarixi (humanitar fakültələr üzrə) kafedrasının dosenti Xumar Səfərova Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində qazanılan şanlı Zəfərdə gənclərin rolundan bəhs edib, BDU-da bu istiqamətdə həyata keçirilən tədbirlərin əhəmiyyətini qeyd ediblər. Bildirilib ki, Vətən müharibəsində qələbəni qanı ilə yazan müqəddəs şəhidlərimizin arasında 20 BDU məzunu da var. Onların xatirəsi daim əziz tutulur, ehtiramla yad edilir.

Daha sonra tələbələr tərəfindən vətənpərvərlik mövzusunda mahnı və şeirlər səsləndirilib.

Tədbirin sonunda tələbələr "Mən Azərbaycanlıyam" musiqisinin sədaları altında Azərbaycan və Türkiyə bayraqlarını dalğalandırıblar.

# Tarix fakültəsində elmi seminar

***Noyabrın 30-da Tarix fakültəsində "II Qarabağ müharibəsi və Fransanın mövqeyi" mövzusunda elmi seminar keçirilib.*** Tarix fakültəsinin elmi işlər üzrə dekan müavini Kəmalə Nəcəfovanın moderatorluğu ilə keçirilən seminarda Avropa və Amerika ölkələrinin yeni və müasir tarixi kafedrasının dosenti Məmmədağa Baxışov mövzu ilə bağlı məruzə edib. 30 ildən artıq davam etmiş və artıq tarixin arxivinə atılan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və 44 gün davam etmiş Vətən müharibəsində tarixi ədalətin bərpa olunmasından danışan məruzəçi Azərbaycan dövlətinin şanlı qələbəni təmin etmək üçün müdrik iqtisadi, siyasi-diplomatik və hərbi quruculuq siyasəti barədə məlumat verib.

Məruzədə 30 ilə yaxın bir müddətdə BMT-nin qəbul etdiyi, lakin kağız üzərində qalan qətnamələr və münaqişəni tənzimləmək üçün yaradılmış ATƏT- in Minsk qrupunun bu sahədə fəaliyyətsizliyi təhlil edilib, həmsədrlərdən biri kimi Fransanın münaqişə ilə bağlı dürüst olmayan vasitəçi mövqeyinə və ikili standartlı siyasətinə xüsusi diqqət yetirilib. Məmmədağa Baxışov çıxışını Prezident İlham Əliyevin ADA Universitetində keçirilən "Orta Dəhliz boyunca: geosiyasət, təhlükəsizlik və iqtisadiyyat" konfransında mövzu ilə bağlı səsləndirdiyi bu sözlərlə yekunlaşdırıb: "Biz heç bir ölkə ilə, beynəlxalq qurumla Qarabağdan danışmaq fikrində deyilik. Fransa Ermənistan və Azərbaycan arasında sülh danışıqlarında iştirak edə bilməz. Onu bu formatdan uzaqlaşdıran biz yox, özləri oldu".

# "Məişət zorakılığının qarşısının alınması və onunla mübarizə" adlı tədbir keçirilib

*Noyabrın 21-də Bakı Dövlət Universitetində Hüquq, Sosial elmlər və psixologiya fakültələrinin Tələbə-Gənclər təşkilatlarının (TGT) birgə təşkilatçılığı ilə "Məişət zorakılığının qarşısının alınması və onunla mübarizə" mövzusunda tədbir keçirilib.*

Tədbirdə çıxış edən fakültə TGT sədrləri Nihad Rəhimli və Səbinə Mustafayeva ali təhsil müəssisələrində müxtəlif sosial problemlər üzrə maarifləndirmə işlərinin aparılmasının önəmini qeyd ediblər. Daha sonra məişət zorakılığının başvermə səbəbləri, hüquqi və kliniki tərəfləri izah olunub. Məişət zorakılığına qarşı mübarizə istiqamətində bir sıra praktiki təkliflər irəli sürülüb. Qeyd olunub ki, məişət zorakılığının qarşısının alınması məqsədilə müntəzəm maarifləndirmə tədbirlərinin həyata keçirilməsi əhalinin hüquqi biliklərinin və dövlət qurumların işinin səmərəliliyinin artırılmasına müsbət töhfə verir.

Sonda tədbir iştirakçıları tərəfindən geniş müzakirələr aparılıb və təqdim edilən çoxsaylı suallar cavablandırılıb.

# "Paşa Bank"ın BDU tələbələri üçün təlimi

*Noyabrın 25-də Bakı Dövlət Universitetinin Karyera və məzunlarla əlaqə sektorunun təşkilatçılığı ilə "Paşa Bank" ASC tərəfindən tələbələr üçün "Məhsul idarəedilməsi" mövzusunda təlim keçirilib.*

Sektorun baş mütəxəssisi İlkin Şərifov iştirakçılara mövzu ilə bağlı məlumat verib, keyfiyyətli məhsul idarəetməsinin əmək bazarında önəmini vurğulayıb.

"Paşa Bank"ın əməkdaşı Təhminə Misirli isə tələbələrə məhsul menecerliyi, məhsulların effektiv idarəolunması barədə danışıb. Uğurlu məhsul meneceri üçün tələb olunan bacarıq və öhdəlikləri izah edib. Bildirib ki, məhsul meneceri şirkətdə yeni məhsulun yaradılması və satışa çıxarılmasından məsul olan, ideyalar və inkişaf strategiyasını yaradan, komanda toplayan, planlaşdırma aparan və qarşıya qoyulan öhdəliklərin icrasına nəzarət edən şəxsdir. Hər bir məhsulun əsas məqsədi müştərilər üçün fayda yaratmaqdır, məhz buna görə menecer auditoriyanı, bazar şərtlərini və rəqabəti dərindən təhlil etməlidir.

Təlim tələbələr tərəfindən maraqla qarşılanıb.

Sonda mövzunu mənimsəyən iştirakçılara şirkət tərəfindən sertifikat və həvəsləndirici hədiyyələr təqdim edilib.

# Tələbələr üçün "Gənc Torpaqşünaslar Klubu" layihəsinə start verilir

*"Aqrar İnkişaf Könüllüləri" təşkilatı və BDU-nun Ekologiya və torpaqşünaslıq fakültəsinin birgə təşkilatçılığı ilə "Gənc Torpaqşünaslar Klubu" layihəsinə start verilir.*

Layihənin məqsədi Torpaqşünaslıq və aqrokimya, Yer quruluşu və daşınmaz əmlakın kadastrı və sair ixtisaslar üzrə təhsil alan gənclərin aqrar sahədə bilik və praktiki bacarıqlarını artırmaqdır. Layihə həm də aqrar sahədəki problemlərin araşdırılması və həll olunmasına yardım məqsədi daşıyır.

Layihə çərçivəsində tələbələrin Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində olan elmi-tədqiqat institutlarına ekskursiyaları, həmçinin Abşeron yarımadası ərazisində torpaqların monitorinqinin həyata keçirilməsi, təlim və görüşlərin təşkili planlaşdırılır.

# "İngilis dilini öyrən - sıfırdan sonsuzadək" mövzusunda təlim

*Noyabrın 24-də Bakı Dövlət Universitetinin SABAH Mərkəzinin təşkilatçılığı ilə "İngilis dilini öyrən - sıfırdan sonsuzadək" mövzunda təlim keçirilib.*

ABŞ-ın Corc Vaşinqton Universitetinin magistrantı, ingilis dili mütəxəssisi Abdulxaliq Məmmədli tərəfindən keçirilən təlimdə SABAH qruplarının müxtəlif ixtisaslarında təhsil alan tələbələrə ingilis dilinin öyrənilməsi üçün ən effektiv metodlar, düzgün yanaşma, öyrənmə strategiyası və müxtəlif faydalı məlumat bazaları haqqında ətraflı məlumat verilib.

Məruzəçi xarici dil öyrənməklə bağlı öz şəxsi təcrübələrini və nəzəri məlumatları bölüşüb.

İnteraktiv şəraitdə keçən təlimin sonunda tələbələrin sualları cavablandırılıb.

# Tələbələrlə "Qarabağın dirçəlişində həmrəyliyin rolu" mövzusunda görüş

***Noyabrın 14-də Bakı Dövlət Universitetinin tələbələri ilə "Qarabağın dirçəlişində həmrəyliyin rolu" mövzusunda görüş keçirilib.***

Görüşdə BDU-nun rektoru Elçin Babayev, Qarabağ Dirçəliş Fondunun İdarə Heyətinin sədri Rəhman Hacıyev, Cənubi Qafqaz Tədqiqatlar Mərkəzinin rəhbəri Fərhad Məmmədov, eləcə də Universitetin professor-müəllim heyəti və 500-ə yaxın tələbəsi iştirak edib.

BDU-nun rektoru Elçin Babayev bildirib ki, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Ordumuz 44 günlük Vətən müharibəsi nəticəsində xalqımızı 30 ilə yaxın həsrətlə gözlədiyi Qarabağ torpaqlarına qovuşdurdu, ərazi bütövlüyümüzü bərpa etdi: "Azərbaycan müharibə bitəndən cəmi bir neçə gün sonra dərhal azad edilmiş torpaqlarda fantastik bir templə quruculuq-yenidənqurma işlərinə başladı. Təsadüfi deyil ki, Azərbaycanın postmüharibə dövründə inkişafla bağlı təcrübəsi bir çox dünya dövlətləri tərəfindən öyrənilir".

Rektor Qarabağ Dirçəliş Fondunun azad edilən torpaqlarımızın bərpası ilə bağlı mühüm vəzifələr yerinə yetirdiyini və bu prosesin əsas hərəkətverici qüvvəsinin gənclər olduğunu deyib: "Azərbaycan bu işləri yeni konsepsiya ilə həyata keçirir. Azad edilmiş ərazilərimizdə yeni massivlər salınır, kəndlər, şəhərlər tikilir, yaşıl enerjiyə üstünlük verilir, tarixi-mədəni abidələrimiz bərpa olunur, infrastruktur yenidən qurulur. Qarabağımız çox qısa bir müddətdə Azərbaycanın ən güclü iqtisadi zonalarından birinə çevriləcək. Bakı Dövlət Universiteti də azad edilmiş ərazilərimizdə elm və təhsilin inkişafı ilə bağlı bir neçə layihə təklif edib. Ümid edirəm ki, biz bu layihələri həyata keçirəcəyik".





Sonra Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın ideya müəllifi olduğu "Karabakh.Center" internet-resursunun (https://karabakh.center/az) materialları əsasında hazırlanan "Qarabağda urbisid" videoçarxı nümayiş etdirilib.

Qarabağ Dirçəliş Fondunun İdarə Heyətinin sədri Rəhman Hacıyev təqdimatla çıxış edərək görüş iştirakçılarına Prezident İlham Əliyevin 4 yanvar 2021-ci il tarixli Fərmanı əsasında yaradılan QDF-in fəaliyyət istiqamətləri, görülmüş işlər və nəzərdə tutulan layihələr barədə ətraflı məlumat verib.

Rəhman Hacıyev işğaldan azad edilən ərazilərdə ermənilərin törətdikləri dağıntıların, ölkəmizə vurulan zərərin miqyasının həddindən artıq böyük olduğunu diqqətə çatdırıb. Dəyən zərərin nəticələrini tez bir zamanda aradan qaldırmaq və Qarabağı yüksək rifahlı regiona çevirmək üçün həmrəylik nümayiş etdirmək mütləqdir: "Birgə atacağımız addımlar həm dövlətin yükünü azalda, həm də bərpa və yenidənqurma istiqamətində görülən işləri sürətləndirə bilər. Dövlət başçısının tapşırıqlarına uyğun olaraq hazırda həmin ərazilərdə ciddi bərpa-quruculuq işləri aparılır, yeni yollar, hava limanları tikilir, infrastruktur bərpa olunur. Lakin nəzərə alınmalıdır ki, dağıntıların aradan qaldırılması, yaşayış məntəqələrinin, infrastrukturun bərpası böyük vəsait və müəyyən vaxt tələb edən bir prosesdir. Tarixə nəzər saldıqda görərik ki, insanların həmrəy olması, səylərin birləşdirilməsi qısa bir zaman kəsiyində qarşıya qoyulan məqsədlərə çatmağa imkan verir. Məsələn, Birinci və İkinci Dünya müharibələri zamanı Avropa şəhərlərinin bir çoxu ciddi dağıntılara məruz qalmış, bəziləri demək olar ki, yer üzündən silinmişdi. Buna baxmayaraq, insanlar birləşərək qısa bir zamanda həmin şəhərləri yenidən bərpa etdilər. Onlar bunu həm də ABŞ-ın köməyi ilə etdilər. Azərbaycan isə bütün bu işləri öz gücü, öz imkanları hesabına görür. Buna görə də hər birimiz dövləti dəstəkləməli, həmrəylik nümayiş etdirərək Qarabağın bərpasında yaxından iştirak etməliyik".

Rəhman Hacıyev işğaldan azad olunan ərazilərdə Fondun dəstəyi ilə həyata keçirilən layihələr barədə də ətraflı məlumat verib.

Qarşıya qoyulan məqsədlərə çatmaq, Qarabağı daha tez bərpa etmək üçün ianəçiliyin təbliğinin vacibliyini qeyd edən İdarə Heyətinin sədri bərpa prosesində tələbələrin, gənclərin rolundan da danışıb: "Bu günün tələbələri sabahın mütəxəssisləri, iş adamları, investorlarıdır. Onlar mühüm vəzifələr tutmaqla ölkənin sosial-iqtisadi həyatında aktiv iştirak edəcək və azad olunan ərazilərin bərpasına öz töhfələrini verəcəklər. Buna görə də tələbələrlə, gənclərlə mütəmadi görüşlərin keçirilməsi, onların düşüncə və təkliflərinin öyrənilməsi bizim üçün çox vacibdir".

Daha sonra çıxış edən Cənubi Qafqaz Tədqiqatlar Mərkəzinin rəhbəri Fərhad Məmmədov gənclərlə analoji görüşlərin silsilə şəklində keçirilməsinin vacibliyini qeyd edib, onların Qarabağın bərpasına öz töhfələrini verəcəklərinə əminliyini bildirib.

Çıxışlardan sonra 2 saatdan artıq davam edən görüş müzakirələr və sual-cavab sessiyası ilə davam edib. Tədbir iştirakçıları tələbələrin ünvanladıqları çoxsaylı sualları cavablandırıblar.

Qeyd edək ki, yarandığı gündən indiyədək bir çox təhsil müəssisəsi Qarabağın bərpasına dəstək göstərmək məqsədilə Qarabağ Dirçəliş Fonduna ianə edib. Bu təhsil müəssisələrindən biri də BDU-dur. Fondla Universitet arasında əməkdaşlığın davam etdirilməsi və birgə layihələrin, tədbirlərin təşkil olunması planlaşdırılır.

# Daşkənd Dövlət Özbək Dili və Ədəbiyyatı Universitetinin professoru BDU-da mühazirə deyib

***Noyabrın 28-də Özbəkistanın Əlişir Nəvai adına Daşkənd Dövlət Özbək Dili və Ədəbiyyatı Universitetinin professoru Nurbay Cabbarov Bakı Dövlət Universitetinin (BDU) Kitabxanaçılıq-informasiya fakültəsinin professor-müəllim heyəti, gənc tədqiqatçıları və tələbələri üçün "Türk dövlətlərinin ədəbi-mədəni və elmi əlaqələrinin formalaşmasında kitabxanaların rolu" mövzusunda mühazirə deyib.***

Professor Nurbay Cabbarov əvvəlcə ölkənin ən nüfuzlu ali təhsil müəssisəsi olan BDU-da olmağından məmnunluğunu ifadə edib. Eyni soya, ortaq tarixə və mədəniyyətə malik xalqlarımızın dostluq və qardaşlıq münasibətlərindən danışıb. Özbəklərin hər zaman Azərbaycan ədəbiyyatına, mədəniyyətinə və elminə böyük maraq göstərdiyini vurğulayıb. Ölkələrimiz arasında əlaqələrin tarixindən bəhs edən natiq bu gün Azərbaycan Prezidenti İlham Əliyevin və Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin səyləri ilə münasibətlərimizin ən yüksək səviyyəyə çatdığını bildirib. Son illər Azərbaycanla Özbəkistan arasında elmi əlaqələrin gücləndiyini, xüsusilə BDU ilə Özbəkistan universitetləri arasında əməkdaşlıq haqqında müqavilələrin imzalandığını diqqətə çatdırıb.



Alimin mühazirəsində türk dövlətlərinin ədəbi-mədəni və elmi əlaqələrinin formalaşmasında, türk xalqlarının milli irsinin mühafizəsində kitabxanaların müstəsna rolundan bəhs olunub. Bildirilib ki, kitab və kitabxana mədəniyyəti sahəsində dünya mədəni irsinə mühüm töhfələr vermiş türk xalqları bu gün də həmin missiyanı uğurla davam etdirirlər. XX əsrin sonlarında müstəqilliklərini bərpa etdikdən sonra türk dövlətlərinin əlaqələrinin daha da inkişaf etdiyini qeyd edən natiq bu sahədə türk mədəniyyəti və incəsənətinin inkişafı üzrə beynəlxalq təşkilat olan TÜRKSOY-un fəaliyyətini yüksək dəyərləndirib. Bu platforma çərçivəsində türk dövlətlərinin milli kitabxanalarının əlaqələrini xüsusi vurğulayıb. Alim qeyd edib ki, çağdaş dövrdə cəmiyyətin həyatında kitabxanaların rolu sürətlə artır, kitabxanalar artıq sadəcə kitab saxlayıcısı kimi deyil, sosial institut və mədəniyyət mərkəzləri funksiyasını da yerinə yetirirlər. Professor Nurbay Cabbarov müasir kommunikasiya sistemləri, onların gətirdikləri yeniliklər barədə dinləyicilərə ətraflı məlumat verib, ənənəvi kitabxanalarla elektron kitabxanaların müqayisəli təhlilini aparıb, elektron informasiya resurslarının türk xalqlarının inteqrasiyasındakı mühüm rolundan bəhs edib. Mühazirədə həmçinin Özbəkistanda fəaliyyət göstərən kitabxanalar, onların tarixi, müasir iş metodları, fondları barədə ətraflı məlumatlar təqdim olunub.

Professor Nurbay Cabbarovun mühazirəsi auditoriya tərəfindən maraqla dinlənilib, alim iştirakçıların çoxsaylı suallarını cavablandırıb.

# BDU-da "Zəkanın gücü" adlı intellektual yarış keçirilib

***Noyabrın 15-də Bakı Dövlət Universitetinin Ekologiya və torpaqşünaslıq fakültəsində "BDU könüllüləri" və "Ecolight" klubunun birgə təşkilatçılığı ilə "Zəkanın gücü" adlı intellektual yarış keçirilib.***

Yarışda 13 fakültənin komandası iştirak edib. Tarix fakültəsinin "Qayıdış" komandası I yerə, Ekologiya və torpaqşünaslıq fakültəsinin "Ecosfer" komandası II yerə, Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin "Persona Qrata" komandası III yerə layiq görülüb.

I yerin qaliblərinə hədiyyə və sertifikat, II və III yerin qaliblərinə sertifikatlar təqdim edilib.

# Hüquq fakültəsində ELSA Azərbaycan-ın təqdimat mərasimi keçirilib



***Noyabrın 25-də Hüquq fakültəsində Avropa Hüquqşünas Tələbələr Assosiasiyasının Azərbaycan nümayəndəliyinin (ELSA Azərbaycan) təqdimat mərasimi keçirilib.***

Təqdimat mərasimindən əvvəl Milli Məclisin deputatı Kamal Cəfərov, Hüquq fakültəsinin dekanı Zaur Əliyev və ELSA Azərbaycan təşkilatının Milli İdarə Heyətinin iştirakı ilə görüş keçirilib. İclasda Hüquq fakültəsi ilə ELSA Azərbaycan arasında mövcud olan əlaqələr, gələcək əməkdaşlıq perspektivləri müzakirə edilib.

Təqdimat mərasimində Kamal Cəfərov və Zaur Əliyev çıxış edərək ELSA Azərbaycan təşkilatının fəaliyyəti haqqında fikirlərini bildiriblər.

Qeyd olunub ki, hazırda Azərbaycanın müasir, müstəqil düşüncəli, dövlət siyasətinə sadiq, peşəkar, gənc hüquqşünaslara, kadrlara ehtiyacı var. Avropanın 44 ölkəsindən 350-dən çox şəhər və universiteti, həmçinin 60 mindən çox gənci sıralarında birləşdirən ELSA dünya üzrə hüquq təhsili alan gənclərin və tələbələrin ən böyük təşkilatıdır. Bu təşkilatın əsası 1981-ci ildə qoyulub. Azərbaycan nümayəndəliyi isə 2010-cu ildə təsis olunub.

Daha sonra isə ELSA Azərbaycan-ın 8 nəfərdən ibarət Milli İdarə Heyəti tərəfindən təşkilat və onun həyata keçirdiyi layihələr barədə tələbələrə ətraflı məlumat verilib.

# Fizika dərslərində saxlanma qanunlarının metodikasına dair elmi seminar



***Noyabrın 25-də Fizika fakültəsində "Fizika dərslərində saxlanma qanunları və simmetriya haqqında təsəvvürlərin formalaşdırılması" mövzusunda elmi seminar keçirilib.***

Seminarda Ümumi fizika və fizikanın tədrisi metodikası kafedrasının müdiri Rəhim Rəhimov mövzu ilə bağlı məruzə edib. O bildirib ki, şagirdlərdə dünyanın fiziki mənzərəsi haqqında tam təsəvvürlərin formalaşdırılması üçün simmetriya pirinsiplərinə uyğun olaraq saxlanma qanunlarının çıxarılmasının mümkünlüyünü izah etmək lazımdır. Məruzəçi Fizika dərslərində simmetriya anlayışının tətbiqini öyrənərkən riayət edilməli olan metodiki qaydaları sadalayıb. Qeyd edib ki, fizika qanunlarına münasibətdə simmetriya həmin qanunların bu və ya digər çevirmələrə nəzərən dəyişməzliyini ifadə edir. Simmetriya fiziki obyekt və hadisələrin quruluşunda qərarlaşma, nizamlılıq, tamlıq, gözəllik və məqsədəuyğunluq deməkdir. Simmetriya və asimmetriya bir yerdə vəhdət təşkil edir, dialektik qarşılıqlı təsirdə olur. Fiziki hadisələrin gözəlliyi və harmoniyası həmişə simmetriya ilə deyil, daha çox simmetriya və asimmetriyanın dialektik birləşməsi ilə müəyyən olunur.

Seminarda nəzərə çatdırılıb ki, orta məktəblərdə simmetriya prinsiplərinin şagirdlər tərəfindən öyrənilməsi onlara fiziki biliyin formalaşmasında mövcud olan ardıcıllığın mənasını və incəliyini başa düşməyə imkan verir. Bu isə öz növbəsində şagirdlərin şüurunda dünyanın fiziki mənzərəsinin formalaşmasına kömək edir.

Seminarın sonunda mövzu ilə bağlı məruzəçiyə suallar ünvanlanıb

# Kolmoqorov tənliklərinin Maple proqram paketində araşdırılmasına dair elmi seminar

***Noyabrın 28-də Tətbiqi riyaziyyat və kibernetika fakültəsinin Əməliyyatlar tədqiqi və ehtimal nəzəriyyəsi kafedrasında "Kəsilməz Markov proseslərinə aid Kolmoqorov tənliklərinin Maple proqram paketində araşdırılması" mövzusunda elmi seminar keçirilib.***

Seminarda Əməliyyatlar tədqiqi və ehtimal nəzəriyyəsi kafedrasının dosenti Qurban Qasımov mövzu ilə bağlı məruzə edib.

Məruzəçi bildirib ki, diffuziya tipli Markov proseslərinə aid şərti keçid ehtimal sıxlığı üçün Fokker-Plank-Kolmoqorov tənlikləri Maple proqram mühitində araşdırılıb. Bu tənliklərə daxil olan, təsadüfi prosesin ordinatının və onun dispersiyasının dəyişmə sürətlərini xarakterizə edən funksiyaların müxtəlif şəkillərinə (xətti, kvadratik və s.) uyğun hallar öyrənilib.

Birbaşa Furye, Mellini inteqral çevirmələrinin tətbiqi, xarakteristik funksiyaya keçid və dəyişənlərin əvəzolunma üsullarını tətbiq etməklə, Fokker-Plank-Kolmoqorov tənliklərinin həllinin analitik ifadələri, 2d, 3d və animate-qrafikləri qurulub. Alınan nəticələrin ehtimal təhlilləri aparılıb. Prosesin normallığı məsələsi üçün həllin koreliasiyası araşdırılıb. Bəzi xüsusi funksiyalardan (Kummer, Bessel funksiyaları kimi) istifadə edərək, prosesin qamma və beta paylanmalarla əlaqəsi əsaslandırılıb. Fokker-Plank-Kolmoqorov tənliklərinin çoxtərəfli araşdırılması üçün Maple proqram hazırlanıb. Proqram paketlərində bu tip məsələlərin araşdırılması çoxsaylı problemləri də ortaya çıxarır və onların həll olunmasında ümumi alqoritm vermiş olur.

Sonda məruzəçi iştirakçıların suallarını cavablandırıb.

# Bu il BDU-nun Elmi Kitabxanası 55000-dən çox oxucuya xidmət göstərib

Bakı Dövlət Universitetinin Elmi Kitabxanası bu il 55000-dən çox oxucuya xidmət göstərib. Kitabxananın 50252-si tələbə və magistr, 4748-i professor-müəllim heyətindən ibarət olan oxucuları müxtəlif dillərdə çap və elektron resurslardan istifadə ediblər. Elmi Kitabxananın beynəlxalq nəşriyyatlarla əməkdaşlığı sayəsində istifadəçilər üçün 13000-dən çox elektron jurnal, 8000-ə yaxın elektron kitab və müxtəlif məzmunlu məlumat bazalarından istifadə imkanı yaradılıb. Kitabxanadan ən çox humanitar yönümlü fakültələrin tələbələri istifadə edib.

BDU-nun Elmi Kitabxanası həm nəzdində fəaliyyət göstərən Azərbaycan Kitabxana İnformasiya Konsorsiumu (Az.KİK) çərçivəsində, həm də respublika ali məktəb kitabxanalarının metodik mərkəzi kimi mütəmadi olaraq digər ali məktəb kitabxanalarında innovativ informasiya xidmətləri, beynəlxalq elektron resurslara çıxış, elmi araşdırmalar zamanı elektron resurslarda tammətnli məqalələrdən istifadə imkanları, beynəlxalq nəşriyyatların əməkdaşlarının iştirakı ilə məlumatlandırıcı-maarifləndirici xarakterli təqdimatlar, təlim-treninqlər keçirir.

2022-ci ildə Elmi Kitabxana Mübadilə-ehtiyat fondundan BDU-nun nəzdində İqtisadiyyat və Humanitar Kollecin kitabxanasına 153 adda (561 nüsxə), ADA Universitetinə 32 adda (140 nüsxə), Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Kitabxana-informasiya Mərkəzinə 17 adda (50 nüsxə), Sumqayıt Dövlət Universitetinin Elmi Kitabxanasına 6 adda (140 nüsxə) kitab hədiyyə edib.

Qeyd edək ki, BDU-nun Elmi Kitabxanası respublika ali məktəb kitabxanaları arasında ən zəngin fonda, oxucu kontingentinə, qiymətli əlyazma və nadir nüsxələrə malikdir.

# Fe nanonaqillərinin sintezinə dair elmi seminar

***Noyabrın 21-də Bakı Dövlət Universitetinin Tədqiqat, İnkişaf və İnnovasiyalar üzrə Mükəmməllik Mərkəzinin Nanoaraşdırmalar elmi-tədqiqat laboratoriyasında "Fe nanonaqillərinin sintezi və xassələrinin tədqiqi (icmal)" mövzusunda elmi seminar keçirilib.***

Seminarda məruzə ilə çıxış edən kiçik elmi işçi Sevinc Məmmədyarova bildirib ki, 1D nanomateriallar elektronikada, maqnit qurğularında, optika və kataliz sahəsində geniş tətbiq sahəsinə malikdir. Bunların içərisində Fe nanonaqilləri mühüm əhəmiyyət kəsb edir. O, Fe nanonaqillərinin müxtəlif metodlarla (kimyəvi reduksiya, hidrotermiki və elektrokimyəvi çökdürmə) sintezi və xassələri haqqında məlumat verib. Maqnit sahəsinin intensivliyi, reduksiyaedicinin qatılığı, reaksiya müddəti və reaksiya temperaturu kimi müxtəlif parametrlərin Fe nanostrukturların morfologiyasına təsirindən danışıb və nanonaqillərin sintezi üçün optimal reaksiya şəraiti barədə iştirakçıları məlumatlandırıb.

Seminarda Fe nanonaqillərin müxtəlif mühitlərdə stabilliyi və baş verən dəyişikliklərin müşahidəsi üçün rentgen difraksiya (XRD) və diferensial skan edən kalorimetr (DSC) nəticələri haqqında da danışılıb. Məruzə üzrə məlumatlar slaydlar vasitəsi ilə təqdim edilib. Seminarın sonunda məruzəçi iştirakçıların mövzu ilə bağlı suallarını cavablandırıb.

# BDU-da X Azərbaycan-Koreya dili nitq müsabiqəsi keçirilib



***Noyabrın 28-də Bakı Dövlət Universiteti, Koreya Respublikasının Azərbaycandakı səfirliyi, Koreya Fondu və Azərbaycan Koreya dili Müəllimləri Assosiasiyasının təşkilatçılığı ilə X Azərbaycan-Koreya dili nitq müsabiqəsi keçirilib.***

Müsabiqədə Bakı Dövlət Universiteti, Bakı Mühəndislik Universiteti, Azərbaycan Dillər Universiteti, Naxçıvan Dövlət Universiteti və Gəncə Texnologiya Universitetinin ümumilikdə 11 tələbəsi iştirak edib.

Tədbirdə çıxış edən BDU-nun Şərqşünaslıq fakültəsinin dekanı Aydan Xəndan müsabiqə iştirakçılarını təbrik edib. Bildirib ki, bu il Azərbaycan ilə Koreya arasındakı diplomatik əlaqələrin qurulmasının 30 illiyi qeyd olunur. Koreyaşünaslıq üzrə mədəniyyət tədbirinin keçirilməsi iki ölkə arasında münasibətlərin inkişafına töhfə sayıla bilər.

Sonra Koreya Respublikasının Azərbaycandakı səfirliyinin III katibi Vu Ci Youn çıxış edərək, müsabiqənin təşkilinə görə BDU rəhbərliyinə, Koreya Fonduna və Azərbaycan Koreya dili Müəllimləri Assosiasiyasına təşəkkür edib. O, mütəmadi keçirilən müsabiqənin tələbələrin Koreya dilini mənimsəmələrinə müsbət təsir etdiyini vurğulayıb.

Koreya Fondunun rəsmi nümayəndəsi, Fondun Müstəqil Dövlətlər Birliyi (MDB) üzrə direktoru Lim Cheol-voo müsabiqənin əhəmiyyətindən danışıb. Koreya İncəsənət və Hanqıl Mərkəzinin direktoru O Su Min "Koreyanın ruhu, Arirançın müxtəlifliyi" mövzusunda Koreya musiqi alətinin müşayiəti ilə maraqlı mühazirə oxuyub.

Sonra tədbir iştirakçıları arasında uduşlu lotereya oynanılıb. BDU-nun Uzaq Şərq dilləri və ədəbiyyatı kafedrasının müdiri Oqtay Cəlilbəyli müsabiqənin tələbələr arasında dilə marağı artırdığını, dilin mənimsənilməsi üçün əsl bilik mühiti yaratdığını diqqətə çatdırıb. Bu isə beynəlxalq standartlara cavab verən mütəxəssislərin hazırlanması işinə böyük dəstəkdir.

Müsabiqənin nəticələrinə əsasən, BDU-nun tələbələri Nigar Əmrahzadə I, Lalə Məmmədova II, Mədinə Tapdıqlı III yerləri tutublar. III yerin daha bir qalibi isə Bakı Mühəndislik Universitetinin tələbəsi Nigar Qurbanova olub.

Müsabiqə qaliblərinə hədiyyə və sertifikatlar təqdim edilib.

# BDU "ANKOSlink 2022" beynəlxalq konfransında təmsil olunub




***Noyabrın 29-da Bakı Dövlət Universitetinin Elmi Kitabxanasının direktoru Nigar İsmayılova və kitabxananın Metodiki iş və əməkdaşlıq şöbəsinin müdiri Cəmilə Yusifova Anadolu Universitet Kitabxanaları Konsorsiumu (ANKOS) tərəfindən Türkiyənin Antalya şəhərində "İnformasiyanın əldə edilməsində bərabərsizlik və davamlılıq" mövzusunda keçirilən beynəlxalq konfransda iştirak ediblər. Konfransda yerli kitabxanalar BDU-da fəaliyyət göstərən Azərbaycan Kitabxana İnformasiya Konsorsiumu (Az.KİK) ilə təmsil olunub.***

Dünyanın müxtəlif ölkəsindən 200-ə yaxın universitet və 60-dan çox şirkətin, 500-dən çox kitabxana və konsorsium rəhbərinin, kitabxana-informasiya mütəxəssislərinin qatıldığı konfransda elektron xidmətlər, açıq məlumat bazaları, informasiya əldə etməkdə davamlılıq, davamlı rəqəmsal mühafizə, elm və təhsil resursları, verilənlər bazasının idarəedilməsi, süni intellektin kitabxana işinə tətbiqi, beynəlxalq nəşriyyatlara abunəlik və s. kimi məsələlər müzakirə olunub.

Konfransda Az.KİK-ə üzv olan 10 kitabxananın rəhbər və əməkdaşlarından ibarət 15 nəfərlik nümayəndə heyəti ilə ANKOSlink-in təşkilatçıları, məşhur nəşriyyatların Türkiyə üzrə nümayəndələri arasında görüşlər keçirilib. Müxtəlif panellərdə EBSCO, İEEE, "Clarivate Analytics", "Wiley", "Wolters Kluwer", "Gemini" nəşriyyatlarının təmsilçilərinin birgə fəaliyyət məqsədilə təqdimatları dinlənilib.

Konfransın son günü Elmi Kitabxananın direktoru Nigar İsmayılova və Az.KİK-in rəhbəri Cəmilə Yusifova "Azərbaycan Kitabxana İnformasiya Konsorsiumunun inkişafı" adlı məruzə ilə çıxış ediblər. Məruzədə Az.KİK-in 2022-ci ildəki fəaliyyəti, EİFL.net, İFLA, ANKOS və s. beynəlxalq təşkilatlarla əməkdaşlıq, EBSCO, İEEE, "Sage" və bir çox beynəlxalq nəşriyyatların elektron resurslarından istifadə, ölkədaxili akademik kitabxanalar üçün vebinarların təşkili haqqında məlumat verilib.

Sonda məruzəçilər konfransın təşkilatçıları tərəfindən plaketlə təltif olunublar.

# "Kəlağayı tariximiz, mədəniyyətimiz, yaraşığımızdır!" adlı tədbir keçirilib

***Noyabrın 28-də Bakı Dövlət Universitetinin Biologiya fakültəsində "Kəlağayı tariximiz, mədəniyyətimiz, yaraşığımızdır!" mövzusunda tədbir keçirilib.***

Biologiya fakültəsinin dekanı Afət Məmmədova qeyd edib ki, milli dəyərlərimizdən olan kəlağayı gözəllik, ismət, ləyaqət, ehtiram, sədaqət rəmzi olmaqla yanaşı, özündə odlar yurdu Azərbaycanın qədim tarixini, mədəniyyətini, adət-ənənələrini yaşadır. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın səyləri nəticəsində kəlağayı sənətinin Azərbaycan xalqının milli-mənəvi dəyərlər sistemində və adət-ənənələrimizdə ən mühüm mədəniyyət nümunələrindən olduğu beynəlxalq səviyyədə təsdiq edilib. Belə ki, UNESCO-nun Qeyri-Maddi Mədəni İrs üzrə Hökumətlərarası Komitəsinin 2014-cü il noyabrın 26-da keçirilən iclasında Azərbaycan kəlağayı sənəti "Kəlağayı simvolizmi və ənənəvi sənəti" adı ilə UNESCO-nun Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına daxil edilib.

Botanika və bitki fiziologiyası kafedrasının dosenti Sevda Tahirli "Azərbaycan xanımının bəzəyi- kəlağayı" adlı çıxışında kəlağayıların yaranması, ornamentləri, müxtəlif dövrlərdə istifadə qaydası, ipəkçiliyin tarixi, inkişafı və s. ilə bağlı tədbir iştirakçılarına məlumat verib.

BDU-nun Azərbaycan şifahi xalq ədəbiyyatı kafedrasının doktorantı Aynurə Qurban, Botanika və bitki fiziologiyası kafedrasının müəllimi Nigar Alıyeva isə çıxışlarında xalq yaradıcılığında kəlağayının tərənnümü barədə danışıb, bu kimi tədbirlərin tələbələrin milli ruhunun yüksəldilməsində böyük rolunu qeyd ediblər.

Tədbirin sonunda tələbələr Kəmaləddin Hüseynov və Ayxan Məmmədov kəlağayı haqqında müxtəlif şeir və mahnılar ifa ediblər.



# Göbələk xəstəliklərinə dair elmi seminar



***Noyabrın 29-da Biologiya fakültəsində "Göbələklər və onların canlı orqanizmlərdə törətdiyi xəstəliklər" mövzusunda elmi seminar keçirilib.***

Botanika və bitki fiziologiyası kafedrasının dosenti Lalə Mehdiyeva mövzu ilə bağlı məruzə edib. Məruzəçi göbələklərin insan, heyvan, quş, bitki və həşəratlarda yaratdığı xəstəliklər barədə məlumat verib. Bildirib ki, Plazmodiophora brassica kələmdə kila, Oomycota göbələkləri kartofda fitoftora (Phytophthora intestans), üzümdə mildium (Plazmopara viticola), Chytridiomycota kələmdə qara ayaq, kartofda xərçəng (Olpidium brassica, Synchytrium endobioticum), Zygomycota göbələkləri (Mucor və Rizopus) insanlarda dermatomikoz xəstəliklərini əmələ gətirir.

Seminar iştirakçıları ali göbələklərin taxıl bitkiləri, meşə ağacları, meyvə və tərəvəzlərdə törətdikləri xəstəliklər barədə də ətraflı məlumatlandırılıb.

Göbələklərin faydalı xüsusiyyətlərinin də olduğunu qeyd edən məruzəçi bildirib ki, Mucor göbələklərindən keyfiyyətli içkilərin alınmasında istifadə olunur. Quzuqarnı (Morchella esculenta), Quzu göbələyi (Gyromitra esculenta), rus, fransız və Qafqaz donbalan göbələkləri insanların qidası üçün əhəmiyyətlidir.

Şampinyonlar (Agaricales) da qida kimi istifadə olunur və zülal tərkibinə görə birinci yerdədir.

Seminarda göbələklərin müxtəlif növlərinin spesifikliyi və orqanizmlərdə yaratdığı dönməz problemlər müzakirə edilib, məruzəçiyə müxtəlif suallar ünvanlanıb.

# BDU-da ilk dərs günündən 103 il keçir

***1919-cu il sentyabrın 1-də gərgin müzakirələrdən sonra Azərbaycan Xalq Cümhuriyyətinin parlamenti ictimai fikir tariximizdə, elmin, maarifin inkişafında əvəzedilməz xidmətlər göstərəcək ilk universitetin açılması haqqında qanun qəbul edib. Bakı Dövlət Universitetinin idarə olunması və onun tədris-elmi fəaliyyətinin tənzimlənməsi qaydalarını müəyyən edən nizamnamə 1919-cu il sentyabrın 29-da, parlamentin 79-cu iclasında qəbul olunub.***



Universitet Şurası 1919-cu il noyabrın 10-da olan ilk iclasında professorların və digər akademik heyətin tərkibini təsdiq edib. 1919-cu il noyabrın 15-də şənbə günü universitetdə birinci dərs günü elan edilib. Universitetin ilk rektoru Kazan Universitetinin professoru, məşhur cərrah Vasili İvanoviç Razumovski olub.

1969-cu ildən - ümummilli liderimiz Heydər Əliyevin ölkəyə rəhbərlik etməsindən sonra BDU-nun həyatında yeni mərhələ başladı. Bu tarixdən sonra BDU Azərbaycan elminin və təhsilinin flaqmanı kimi ölkədə və ittifaq respublikalarının təhsil və elm ocaqları arasında böyük nüfuz qazandı. Universitetin 50 illik yubiley tədbirlərinə Ulu öndər Heydər Əliyevin şəxsən rəhbərlik etməsi, dövlət başçısı kimi bu ali təhsil müəssisəsinə hərtərəfli qayğısı BDU-nun şöhrətini daha da artırdı. 50 illik yubiley tədbirində Ümummilli lider Heydər Əliyevin böyük cəsarət nümayiş etdirərək ana dilimizdə çıxış etməsi bu gün də qədirbilən xalqımız tərəfindən ehtiram, hörmət və izzətlə yad edilir. Ulu öndərimiz özü də həmin tarixi hadisəni dəfələrlə yada salmışdı: "Xatirimdədir, universitetin 50 illik yubileyində çıxış edərkən, şübhəsiz ki, öz ana dilimdə, Azərbaycan dilində danışdım. Bu, böyük bir sensasiya kimi qəbul olundu - nə cür olur ki, respublikanın rəhbəri Azərbaycan dilində çıxış edir. Bəziləri məni bu hadisə münasibətilə təbrik edirdilər, minnətdarlıqlarını bildirirdilər. Dilini sevən, milli ruhla yaşayan insanlar, doğrudan da, bunu böyük bir hadisə kimi qəbul etdilər". Bu tarixi hadisənin, həmin dövrdə müdrik rəhbərin ali təhsil ocağına xüsusi diqqət və qayğısının sayəsində universitet yenidən milli oyanışın mərkəzinə, müstəqilliyimizə gedən yolun carçısına çevrildi.

BDU Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonrakı dövrdə də Ulu öndər Heydər Əliyevin sayəsində inkişafının yeni və daha inamlı mərhələsinə qədəm qoydu. Müstəqilliyin ilk illərindən ölkədə olan problemlərə, çətinliklərə rəğmən Ümummilli liderimiz universitetin elmi potensialı və maddi-texniki bazasının inkişafı üçün mühüm tədbirlər həyata keçirdi. Bu gün qürurla söyləyirik ki, ulu öndər Heydər Əliyev BDU-nun dünya şöhrətli məzunu olmaqla yanaşı, hər zaman bu ali təhsil müəssisəsinin hamisi olub.

Doğma universitetimiz son 19 ildə Prezident İlham Əliyevin də diqqət və qayğısı ilə əhatə olunub. Prezidentin müvafiq Sərəncamı ilə 2019-cu ildə BDU-nun 100 illik yubileyi təntənəli şəkildə ölkədə və xaricdə qeyd olunub, əməkdaşlarımız ali dövlət mükafatları ilə təltif edilib. Dövlətimizin başçısının universitetin 100 illik yubiley mərasimindəki proqram xarakterli çıxışı bu gün hər birimiz üçün yol xəritəsidir. BDU kollektivi həmişə olduğu kimi bu gün də Ulu Öndərin siyasətini, Prezident İlham Əliyevin müəyyənləşdirdiyi prioritetləri rəhbər tutaraq öz fəaliyyətini davam etdirir və ölkəmizin inkişafı naminə əzmlə çalışır. Xüsusilə, tarixi Zəfərlə bitən 44 günlük Vətən müharibəsindən ötən 2 il ərzində kollektivimiz və tələbələrimiz əldə etdiyimiz şanlı qələbədən güc alaraq Azərbaycanda elmə, təhsilə, vətəndaş cəmiyyəti quruculuğuna daha böyük töhfələr verir. Kollektivimiz, tələbələrimiz respublikamızda dövlətçiliyin daha da möhkəmləndirilməsi, ulu öndər Heydər Əliyevin inkişaf doktrinasının parlaq şəkildə həyata keçirilməsi yolunda öz missiyasını yerinə yetirir, Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın diqqət və qayğısı ilə əhatə olunaraq elmimizə və təhsilimizə xidmət göstərməkdən şərəf duyur.

103 il əvvəl 2 fakültə, 44 nəfər professor-müəllim heyəti və 1094 tələbə ilə fəaliyyətə başlayan universitetdə hazırda 16 fakültə, 120 kafedra, 2 elmi-tədqiqat institutu, Tədqiqat, İnkişaf və İnnovasiyalar üzrə Mükəmməllik Mərkəzi, elmi-tədqiqat laboratoriyaları, 2 milyondan çox kitab fondu olan Elmi Kitabxana, 5 muzey, 5 beynəlxalq institut və mərkəz, 1 filial, 1 kollec və 1 lisey fəaliyyət göstərir. Universitetdə ali təhsilin bütün səviyyələrində 24 mindən çox tələbə təhsil alır, 3 mindən çox əməkdaş, o cümlədən 1500 nəfərə qədər professor-müəllim heyəti və elmi işçi çalışır. Onlardan 250-dən çoxu elmlər doktoru, professor, 1000 nəfərə yaxın əməkdaş isə fəlsəfə doktoru, dosentdir.

Hazırda universitetdə tədris tarixi ənənələrin və innovativ dünya təcrübəsinin vəhdəti şəklində həyata keçirilir, elmi-tədqiqat işlərinin məzmunu yenilənir, beynəlxalq akademik əlaqələr, eyni zamanda ölkədaxili əməkdaşlıq inkişaf etdirilir.

Universitetdə elmi fəaliyyətin səmərəli təşkili məqsədilə müəyyənləşdirilən strateji xətt sayəsində son dövrlər aparılan elmi-tədqiqat işlərinin məzmunu yenilənib, səviyyəsi artıb, alınan nəticələrin bilavasitə tətbiq sahələrinə yönəldilməsi istiqamətində əvvəlki illərlə müqayisədə daha müsbət nəticələr əldə edilib. BDU-da 2021-ci ildə ilk dəfə olaraq yaradılmış Tədqiqat, İnkişaf və İnnovasiyalar üzrə Mükəmməllik Mərkəzi (Center of Excellence) təhsil-elm-istehsalat əlaqəsinin tətbiqi və elmi nəticələrin kommersiyalaşdırılması prinsiplərini əsas götürərək sənaye və istehsalat ilə əlaqələri genişləndirib. Mükəmməllik Mərkəzinin nəzdində Sənaye kimyası, Biomühəndislik, Mikrobiologiya və virusologiya, Astrokosmik və atmosfer tədqiqatları və Rəqəmsal araşdırmalar kimi yeni sənayeyönümlü elmi-tədqiqat laboratoriyalarının yaradılması qurumun fəaliyyətini daha da gücləndirib.

BDU Avropa və dünya tendensiyalarına uyğun qabaqcıl texnologiya və nailiyyətlər səviyyəsində peşəkar sahələrin yaradılması və inkişafını təmin edə bilən mütəxəssislər, elmi və elmi-pedaqoji, mühəndis-texniki kadrlar hazırlayan, sənaye müəssisələri ilə olan mövcud əlaqələri inkişaf etdirməklə elmi nəticələri kommersiyalaşdıran struktura və bazaya malikdir. "Clarivate Analytics" Beynəlxalq İnformasiya Agentliyinin rəsmi məlumatına əsasən, BDU-nun Hirş indeksi (h-indeksi) artaraq hazırda 54-ə yüksəlib. Müqayisə üçün qeyd edək ki, bu göstərici 2018-ci ildə 35-ə, ötən il 47-ə bərabər idi.

Son illər BDU-da dünyanın nüfuzlu universitetləri ilə əməkdaşlıq çərçivəsində bir neçə ikili diplom proqramı həyata keçirilir. BDU "Times Higher Education" beynəlxalq reytinqinə Azərbaycan üzrə daxil olan yeganə, "QS World University Rankings" beynəlxalq reytinqində isə ölkəmizi təmsil edən iki universitetdən biridir. Azərbaycan üzrə "Web of Science" bazasında indekslənən jurnallarda dərc olunmuş məqalələrin 25 faizi BDU-nun alimlərinə məxsusdur.

Son illər universitetin beynəlxalq əlaqələri də ən müxtəlif platformalarda genişlənməkdə və inkişaf etməkdədir. Son dövrlər BDU ilə Türkiyənin Bilkənt, Ankara, İstanbul, Kafkas və digər universitetləri, İzmir Yüksək Texnologiya İnstitutu, Fransanın Lion-2 Universiteti, Almaniyanın Martin Lüter adına Halle-Vittenberq Universiteti, Berlin Texniki Universiteti, Çinin Anhui Universiteti, Çex Respublikasının Cənubi Bohemia Universiteti, Özbəkistanın Daşkənd Dövlət Hüquq Universiteti, Daşkənd Dövlət Şərqşünaslıq Universiteti, Q.V.Plexanov adına Rusiya İqtisad Universiteti, Cənubi Koreyanın Kyunqvoon Universiteti, Qazaxıstanın Əl-Farabi adına Qazax Milli Universiteti, Atırau Dövlət Universiteti, Pakistanın Lahor Universiteti, İsrailin Holon Texnologiya İnstitutu, ABŞ-ın Linkoln Universiteti, Portuqaliyanın Tomar Politexnik Universiteti, İsveçrənin Biznes və Beynəlxalq Tədqiqatlar Universiteti və digər universitetlər arasında əməkdaşlıq sazişləri, bakalavriat, magistratura və doktorantura səviyyələri üzrə ikili diplom proqramına dair müqavilələr imzalanıb. 2022-ci ildə həmçinin BDU Almaniyanın Berlin Humboldt, Çexiyanın Karlova, Rumıniyanın Babes-Bolyai Universitetləri ilə Erasmus mübadilə protokolu imzalayıb. Bütün bunlar BDU-nun dünyanın qabaqcıl elm və təhsil məkanına inteqrasiyasını şərtləndirir və bu prosesi daha da sürətləndirir.

BDU nüfuzlu beynəlxalq təşkilatlarla da əməkdaşlığı özünün proritetlərindən hesab edir və bu istiqamətdə səylərini günbəgün gücləndirir. Bu il BDU daha bir beynəlxalq quruma - ICESCO-nun nəzdində fəaliyyət göstərən İslam Dünyası Universitetləri Federasiyasına (FUIW) üzv qəbul edildi. FUIW-ə üzvlük BDU-nun akademik və inzibati imkanlarının genişlənməsinə, elmi tədqiqatların inkişafına və təcrübə mübadiləsinin reallaşmasına şərait yaradacaq. 1987-ci ildə Mərakeşin Rabat şəhərində əsası qoyulmuş İslam Dünyası Universitetləri Federasiyasının əsas məqsədi bütün sahələrdə elmi tədqiqatların səviyyəsini yüksəltmək, təhsil, elm, mədəniyyət və texnologiya sahələrində təcrübə mübadiləsini artırmaq, islam ölkələrində elmi və texnoloji inkişafdan faydalanmaq üçün ali təhsilin təkmilləşdirilməsi və inkişafına yardım etməkdir.

2022-ci ildən Universitetdə ICESCO-nun Biotibbi materiallar kafedrasının fəaliyyətə başlaması da xüsusi qeyd edilməlidir. Həmçinin vurğulamaq lazımdır ki, kafedra ICESCO-nun Azərbaycanda ilk ixtisaslaşdırılmış kafedrasıdır. Biotibbi materiallar kafedrasının yaradılmasında məqsəd sənaye və akademik ictimaiyyət arasında əlaqələri, təhsil-elm-sənaye üçlüyünün qarşılıqlı inteqrasiyasını inkişaf etdirmək, tələbə və gənc alimləri biotibbi materialların tətbiqi ilə bağlı tədqiqatlara cəlb etmək, həmçinin bu sahədə beynəlxalq əməkdaşlığı genişləndirməkdir. Kafedrada akademik heyətlə sənayedən olan mütəxəssislərin birgə əməkdaşlığı tibbin müxtəlif sahələri üçün perspektiv sayılan nanomodifikasiya olunmuş materialların laboratoriyadan istehsalata kliniki transferinin məqsədyönlü şəkildə asan həyata keçirilməsinə şərait yaradılacaq. Beynəlxalq fənlərarası şəbəkənin yaradılması yolu ilə nanosistemlərin ilkin dizaynının hazırlanması, effektivliyinin klinikadan əvvəlki sınaqlarının aparılması, farmakokinetika və toksikliyinin müəyyən edilməsinə nail olunacaq. Kafedra biotibbi materiallar üzərində tədqiqat işlərinin aparılmasına, ICESCO-ya üzv dövlətlərdən olan tələbə və gənc alimlərin bu araşdırmalara cəlb edilməsinə və müxtəlif ölkələrlə bu sahədə əməkdaşlığın qurulmasına yardım göstərəcək.

BDU ölkəmizdə "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı"na uyğun olaraq dünya elminin qabaqcıl elmi və təlim-tədris nailiyyətlərindən istifadə etməklə əmək bazarının tələblərinə uyğun mütəxəssislərin hazırlanması istiqamətində ABŞ, Almaniya, Fransa, İsrail, İsveç, Qazaxıstan və s. kimi ölkələrin qabaqcıl 8 universitet və institutu ilə bakalavriat, magistratura, doktorantura pilləsi üzrə beynəlxalq ikili diplom proqramlarını tətbiq edir. BDU beynəlxalq reytinqlərdə mövqeyini möhkəmləndirir. Ötən il BDU Azərbaycandan yeganə universitet olaraq Times Higher Education beynəlxalq reytinqinə daxil edilib.

BDU-da beynəlxalq əlaqələrlə yanaşı, ölkədaxili əməkdaşlığa da xüsusi önəm verilir. Bu əlaqələr dövlət qurumları və özəl şirkətlərlə yaradılır, bilavasitə tədris prosesinin, elmi tədqiqat fəaliyyətinin səmərəli təşkilinə, eləcə də məzunların işlə təmin olunmasına yönəldilir. Son dövrlər Qarabağ Dirçəliş Fondu, Baş Prokurorluq, Əqli Mülkiyyət Agentliyi, Vəkillər Kollegiyası, Əmlak Məsələləri Dövlət Xidməti, Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA), DOST Agentliyi, AzerGold, PAŞA Bank, "PAŞA sığorta", "PAŞA Həyat Sığorta", Mediasiya Şurası, Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu, "Xəzər TV" MMC, "ARB 24" telekanalı və digər qurumlarla müvafiq memorandumlar, müqavilələr imzalanıb. Təsadüfi deyil ki, BDU-nun əlaqələrinin inkişafı nəticəsində son 2 ildə 30-a yaxın milli və beynəlxalq qrant və müqavilə əsasında layihə həyata keçirilib, 80-dən çox tələbə, doktorant, gənc tədqiqatçı layihələrdə təmsil olunub.

2020-ci ilin sentyabr ayının 27-də mənfur düşmənin növbəti təxribatlarına cavab olaraq başlayan və tarixi Zəfərlə başa çatan Vətən müharibəsində BDU kollektivi, tələbələrimiz və məzunlarımız həm ön, həm də arxa cəbhədə fədakarlıq göstərib. Universitetin çoxsaylı tələbə və məzunu könüllü olaraq cəbhəyə yollanmış, onlardan 19 nəfəri müqəddəs şəhidlik zirvəsinə ucalıb. Universitet rəhbərliyi və kollektivi mütəmadi olaraq şəhid məzun və tələbələrin ailə üzvləri ilə əlaqə saxlayır, Vətən müharibəsindən qalib əsgər kimi qayıtmış və təhsilini davam etdirən tələbələrə xüsusi həssaslıqla yanaşır. Eyni zamanda, Vətən müharibəsi günlərində BDU kollektivi və tələbələri ön cəbhədə olduğu kimi, arxa cəbhədə də mübarizə aparıb, xüsusilə informasiya savaşına özlərinin töhfələrini veriblər. Tarixi qələbədən keçən dövr ərzində də BDU kollektivi bu sahədə fəaliyyətini davam etdirir, informasiya müharibəsində, müharibənin nəticələrinin araşdırılmasında mühüm rol oynayır.

Vətən müharibəsində müzəffər sərkərdəmiz, Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuzun parlaq Qələbəsindən sonra BDU-da iki akademik layihəyə başlanılıb. BDU-nun nüfuzlu professor-müəllim heyətinin, ölkəmizin nüfuzlu alimlərinin iştirak etdiyi hər iki layihə uğurla yerinə yetirilib. Bu layihələrdən birincisi - "Azərbaycan məcburi köçkünlərinin pozulmuş hüquqlarına dair kompleks beynəlxalq hesabat" Azərbaycan və ingilis dillərində nəşr olunub və ictimaiyyətə təqdim edilib. Beynəlxalq hesabatda təqribən 30 ilə yaxın müddətdə Ermənistan tərəfindən Azərbaycan Respublikası ərazilərinin işğalı nəticəsində həmin ərazilərdən olan məcburi köçkünlərin pozulmuş hüquqlarının, dəymiş ziyanın əhatə dairəsinin və istiqamətlərinin müəyyən edilməsi, beynəlxalq təcrübəni öyrənməklə pozulmuş hüquqların bərpası, nəhayət dəymiş ziyanın Ermənistan tərəfindən ödənilməsi üçün beynəlxalq-hüquqi mexanizmlər təhlil edilib. Hesab edirik ki, hesabat olduqca aktual bir məsələnin beynəlxalq-hüquqi müstəvidə həll olunmasına yönəlib və məsələnin gələcəkdə müsbət həll olunmasına da töhfə verəcək.

İkinci akademik layihə isə "Vətən müharibəsi dövründə yerli və xarici medianın fəaliyyətinin təhlili" layihəsidir. Biz ölkəmizin jurnalistika elmi sahəsində ən böyük elmi potensialı olan ali məktəbi kimi, hesab etdik ki, Vətən müharibəsi dövründə Azərbaycan Respublikası Prezidentinin xarici KİV-ə müsahibələrinin Azərbaycanın haqq səsinin dünya ictimaiyyətinə çatdırılmasında, informasiya müharibəsində oynadığı əvəzsiz rolunu öyrənmək, müharibə dövründə yerli və xarici mediada dərc olunan məqalələri və müsahibələri araşdırmaq, beynəlxalq medianın baxışını və yerli medianın fəaliyyətini akademik səviyyədə qiymətləndirərək, bu materiallardan tədris prosesində istifadə etmək zəruridir. Ona görə də universitetin nüfuzlu alimləri və ölkəmizin tanınmış jurnalistləri bu layihəyə cəlb edildi. Layihə uğurla başa çatdı və layihə çərçivəsində üç kitab nəşr olundu.

Birinci kitabda - "Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Vətən müharibəsi dövründə xarici kütləvi informasiya vasitələrinə müsahibələri" kitabında Vətən müharibəsinin getdiyi gərgin günlərdə dövlətimizin başçısının xarici media orqanlarının nümayəndələrinə verdiyi parlaq müsahibələri, bu müsahibələrin informasiya cəbhəsində, Qarabağ həqiqətlərinin, Azərbaycanın haqq mübarizəsinin dünya ictimaiyyətinə çatdırılmasında müstəsna rolu təhlil edilib. Kitabda Prezidentin həmin parlaq müsahibələri jurnalistika aspektindən təhlil olunub, ölkə rəhbərinin müsahibələri və bu müsahibələrin təhlili BDU Elmi Şurasının qərarı ilə dərs vəsaiti kimi təsdiq edilib. İnanırıq ki, bu dərs vəsaiti tədris prosesində geniş istifadə olunacaq, jurnalistika, tarix, beynəlxalq münasibətlər və digər əlaqəli ixtisaslar üzrə təhsil alan tələbələr üçün qiymətli mənbə olacaq.

"Vətən müharibəsi yerli və xarici mediada" adlı ikinci kitabda Vətən müharibəsi dövründə ölkə KİV-nin fəaliyyəti, xarici media orqanlarında, eləcə də Ermənistan mətbuatında dərc olunan məqalələr, müsahibələr, reportajlar, analitik yazılar və s. araşdırılıb, beynəlxalq medianın müharibəyə baxışına nəzər salınıb, fərqli yanaşmalar sistemləşdirilib, ümumiləşdirmələr aparılaraq təqdim olunub.

"Vətən müharibəsi dövründə Bakı Dövlət Universitetinin professor-müəllim heyəti və tələbələrinin ölkə mediasında çıxışları" adlı üçüncü kitabda isə 44 günlük Vətən müharibəsi dövründə BDU-nun professor-müəllim heyəti və tələbələrinin kütləvi informasiya vasitələrində çıxışları toplanıb.

Artıq ikinci ildir ki, doğma universitetimizin yaradılmasının növbəti ildönümünü torpaqlarımızın azadlığı, ərazi bütövlüyümüzün təmin olunması şəraitində qeyd edirik. Möhkəm təməlləri ulu öndərimiz Heydər Əliyev tərəfindən qoyulan müstəqil Azərbaycan Respublikası Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin sayəsində dünyanın ən qüdrətli dövlətlərindən birinə çevrilib. Tarixi Zəfərimizlə başa çatan Vətən müharibəsindən keçən dövr ərzində ölkəmiz günbəgün daha da inkişaf edir. Düşmən tapdağından azad edilmiş əzəli torpaqlarımızda müqayisəyəgəlməz sürətlə genişmiqyaslı quruculuq işləri aparılır, qəsəbələr salınır, hava limanları inşa edilir. Böyük Zəfər digər zəfərlərə yol açır. BDU-nun çoxminli kollektivi və tələbələri də qalib ölkənin məğrur vətəndaşları kimi ölkəmizin bugünkü inkişafından, tərəqqisindən güc alaraq gələcəyə daha böyük inamla addımlayır.

Ümummilli Liderimiz Heydər Əliyevin dediyi kimi, Bakı Dövlət Universiteti Azərbaycan xalqının, Azərbaycan Respublikasının milli sərvətidir, milli iftixarıdır! Milli sərvətimizi qoruyaq və inkişaf etdirək!

# BDU-da YAP-ın yaranmasının 30-cu ildönümü qeyd olunub

***Noyabrın 18-də Bakı Dövlət Universitetində Yeni Azərbaycan Partiyası (YAP) Yasamal rayon təşkilatı, "Zahid Xəlilov 23" ərazi ilk partiya təşkilatının birgə təşkilatçılığı ilə partiyanın təsis edilməsinin 30-cu ildönümü qeyd olunub.***



Tədbirdə Ümummilli lider Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda həlak olan şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Ulu öndərə həsr olunmuş videoçarx nümayiş olunub.

Tədbirin moderatoru, professor Zahid Cəfərov Ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə yaradılan YAP-ın keçdiyi şərəfli inkişaf yolundan bəhs edib. Qeyd olunub ki, YAP-ın yaradılması müstəqil Azərbaycan dövlətinin möhkəmləndirilməsində və inkişafında tarixi rol oynayıb. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin partiyaya sədr seçilməsindən sonra isə YAP inkişafının yeni mərhələsinə qədəm qoyub.

Daha sonra çıxış edən AMEA-nın müxbir üzvü, BDU rektorunun elm və təhsil məsələləri üzrə müşaviri Aydın Kazımzadə Ulu öndər Heydər Əliyevin yaradıcısı olduğu YAP-ın dövlətimizin başçısı İlham Əliyevin rəhbərliyi ilə əhəmiyyətli uğurlara imza atdığını, sıralarını kəmiyyət və keyfiyyət baxımından daha da zənginləşdirdiyini diqqətə çatdırıb. Çıxışda YAP-ın qarşıya qoyduğu vəzifələrin yerinə yetirilməsində rayon və ərazi partiya təşkilatlarının rolunun, onların mütəşəkkil, aktiv fəaliyyətinin vacibliyi qeyd edilib.

YAP Veteranlar Şurasının üzvü, professor Şahlar Əsgərov, YAP Yasamal rayon təşkilatının sədri Bəxtiyar Nəbiyev, AMEA-nın müxbir üzvü, professor Misir Mərdanov YAP-ın keçdiyi tarixi yol və Vətən müharibəsinin tariximizdəki rolundan bəhs ediblər. Çıxışlarda dövlətimizin başçısının rəhbərlik etdiyi partiyanın cəmiyyətdə böyük inam və etimada sahib olduğu vurğulanıb, bildirilib ki, 44 günlük Vətən müharibəsində qazanılan Zəfər partiyanın nüfuzunu daha da yüksəldib.

Tədbirin sonunda YAP-ın və rayon təşkilatının ictimai-siyasi həyatında fəal iştirakına görə bir qrup partiya üzvünə Fəxri fərman təqdim edilib.

# Rektor Elçin Babayev BDU-da ilk dərsin başlamasının 103 illiyi münasibətilə tələbələrə xüsusi mühazirə deyib

***Noyabrın 15-də Bakı Dövlət Universitetinin rektoru Elçin Babayev Universitetdə ilk dərsin başlamasının 103 illiyi münasibətilə Fizika fakültəsinin tələbələrinə mühazirə deyib.***



Mühazirənin əvvəlində rektor tələbələrə BDU-nun keçdiyi şərəfli tarixi yol barədə məlumat verib. Qeyd edib ki, 103 il ərzində BDU Azərbaycan xalqının övladlarına ali təhsil vermək, Vətənimizin dünya elm və mədəniyyət məkanında layiqli yer tutmasını təmin etmək kimi ən uca missiyasını layiqincə yerinə yetirib. BDU-nun məzunu olan 200 mindən artıq yüksəkixtisaslı kadr ölkəmizi bütün sahələrdə ləyaqətlə təmsil edib və etməkdədir. BDU-nun ən böyük məzunu isə Ümummilli liderimiz Heydər Əliyevdir. O, BDU-nu "Azərbaycan xalqının, Azərbaycan Respublikasının milli sərvəti, milli iftixarı" adlandırıb.

Rektor vurğulayıb ki, 1919-cu il noyabrın 15-i Universitetdə ilk dərs günü elan olunub. Universitet ilk tədris ilini 2 fakültə (Tarix-filologiya, Tibb fakültələri) və 1094 tələbə ilə başlayıb. Universitetin ilk rektoru Kazan Universitetinin professoru, məşhur cərrah Vasili İvanoviç Razumovski olub. BDU öz fəaliyyətinin bütün dövrlərində elm və təhsil məbədi olmaqla yanaşı, həm də Azərbaycan dilinin, milli şüurun, vətənpərvərlik ruhunun inkişafında xidmətlər göstərmiş mərkəz rolunu oynayıb.

Daha sonra rektor tələbələrə Günəş fizikası ilə bağlı mühazirə deyib.

Mühazirədə Günəş fizikası üzrə əsas məlumatlara, Günəşin qlobal parametrlərinə, daxili quruluşuna, atmosferinin əsas xüsusiyyətlərinə və müşahidə olunan fəal törəmələrinə geniş yer ayrılıb. Günəşin nüvəsində istilik-nüvə reaksiyaları hesabına enerjinin generasiya olunması, bu enerjinin səthinə ötürülmə mexanizmləri izah olunub. Tələbələrə son illər Günəşin tədqiqi istiqamətində fəaliyyət göstərən müasir kosmik missiyalara dair biliklər çatdırılıb. Mühazirədə həmçinin bu istiqamətdə həllini gözləyən problemlərin nəzəri əsasları ilə yanaşı, müşahidə məlumatları, bu məlumatların analizi və mümkün modelləşdirilməsi barədə elmi biliklər təsvir edilib.

Mühazirənin sonunda rektor tələbələrin suallarını cavablandırıb.

# "Puankare hipotezinin isbatı tarixçəsi" mövzusunda elmi seminar keçirilib

***Noyabrın 16-da Tətbiqi riyaziyyat və kibernetika fakültəsinin Riyazi fizika tənlikləri kafedrasında növbəti elmi seminar keçirilib.***

Seminarda kafedranın dosenti, fizika-riyaziyyat elmləri namizədi Nəzakət Məmmədova "Puankare hipotezinin isbatı tarixçəsi" mövzusunda məruzə edib.

Məruzəçi dahi fransız alimi Anri Puankare tərəfindən 1904-cü ildə verilmiş və "Minilliyin məsələləri" siyahısında yer almış hipotez və onun isbatına dair çox maraqlı tarixi faktlarla



bağlı məlumatları diqqətə çatdırıb. Həmçinin qoyulan məsələnin rus alimi Qriqori Perelmanla əlaqədar tədqiqatını da seminar iştirakçıları ilə bölüşüb.

Elmi seminar mövzu ətrafında magistrant və əməkdaşların suallarının cavablandırılması ilə öz işini yekunlaşdırıb.

# "Necə nəşr etməli?" vebinarının sonuncu buraxılışı

***Noyabrın 18-də Bakı Dövlət Universitetinin Elmi Kitabxanasının təşkilatçılığı ilə Azərbaycan Kitabxana İnformasiya Konsorsiumu çərçivəsində "Necə nəşr etməli?" adlı silsilə vebinarın "Məqalənin təbliğ edilməsi və istinadların artırılması" ("How to promote your article and increase citations") mövzusunda sonuncu buraxılışı keçirilib.***

Vebinar "Sage" nəşriyyatının əməkdaşları - nüfuzlu tədqiqatçı redaktorlar Cesika Lipovski, Kristian Vakkari və Sin Skarişbrikin iştirakı ilə baş tutub.

Beynəlxalq nəşriyyatlarda məqalə nəşrinin müxtəlif aspektlərinə həsr olunan silsilə vebinarların noyabr ayı buraxılışında araşdırmanın hədəf (düzgün) auditoriyaya çatmasını təmin etmək, məqaləni yaymaq, ona edilən istinadların sayını artırmaq və akademik məqalənin təbliği ilə bağlı praktik məsləhətlər verilib.

Təqdimat xarakterli təlimin sonunda iştirakçıların sualları cavablandırılıb.

Bu ilin iyun ayından başlayaraq "Necə nəşr etməli?" adlı silsilə vebinarın əvvəlki buraxılışları da tədqiqatçılar tərəfindən maraqla qarşılanıb. "Jurnalı necə seçməli?" ("How to select a Journal?"), "Məqaləni necə yazmalı və düzəlişlərə dair məsləhətlər" ("How to write a journal article and advice on revisions"), "Ekspert rəyi" ("Peer Review"), "Açıq giriş və müəllif hüquqları" ("Open Access and autor rights") və s. kimi mövzular tədqiqatçılara məqalə yazılışı və nəşri istiqamətində yardımçı olub.

# Ümumdünya Uşaq Hüquqları Gününə həsr edilmiş tədbir

***Noyabrın 18-də Hüquq fakültəsində 20 noyabr - Ümumdünya Uşaq Hüquqları Gününə həsr edilmiş tədbir keçirilib.***

Tədbirdə qonaq qismində Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin əməkdaşları, Komitənin Uşaq Səfirləri Məclisinin üzvləri, Bakı şəhəri Yasamal rayonu 53 nömrəli məktəbin şagird, müəllim və valideynləri iştirak ediblər.




Hüquq fakültəsinin dekanı Zaur Əliyev Azərbaycanda uşaq siyasətinin əsasının Ümummilli lider Heydər Əliyev tərəfindən qoyulduğunu, uşaqların yüksək mənəvi-əxlaqi mühitdə, milli dəyərlər əsasında tərbiyə alaraq layiqli şəxsiyyət kimi yetişməsinə xüsusi önəm verildiyini bildirib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin uğurla davam etdirdiyi bu siyasət artıq milli strategiya kimi formalaşıb. Zaur Əliyev Birinci vitse-prezident Mehriban Əliyevanın uşaq hüquqlarına olan diqqətinin bu sahəyə qayğının daha da artmasına səbəb olduğunu qeyd edib. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qəhrəman Azərbaycan ordusunun işğalda olan torpaqlarımızı qısa müddətdə azad etməsindən, Qarabağda gedən böyük quruculuq işlərindən danışan Zaur Əliyev uşaqların qalib dövlətin xoşbəxt övladları olduqlarını vurğulayıb.

Hüquq fakültəsinin Mülki hüquq kafedrasının müdiri, professor Məhəbbət Dəmirçiyeva ailədə uşaqların tərbiyəsi, bu yöndə valideynlərin rolundan bəhs edib. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Hüquqi təminat şöbəsinin müdiri Taliyə İbrahimova dövlət uşaq siyasəti, uşaq hüquqlarının müdafiəsi sahəsində icra olunan fəaliyyət barədə məlumat verib. Komitənin uşaq səfirləri məclisinin üzvü Ayan Əhmədova məclis tərəfindən həyata keçirilən layihələrdən bəhs edib.

53 nömrəli məktəbin şagirdləri şeirlər səsləndirib, vətənpərvərlik mövsuzunda çıxışlar ediblər. Daha sonra uşaqlar fakültə ilə tanış olub, gələcəkdə Hüquq fakültəsinin tələbələri olmaq istədiklərini bildiriblər.

# BDU-da neft tullantılarının təmizlənməsi üçün yeni metod hazırlanıb

***Noyabrın 18-də Ekologiya və torpaqşünaslıq fakültəsinin Ekoloji kimya kafedrasında "Neft sənayesində tullantı sularının ekoloji effektli təmizlənməsi metodunun işlənməsi" mövzusunda elmi seminar keçirilib.***

Seminarda Ekoloji kimya kafedrasının doktorantı Nərmin Rəkidə eyniadlı məruzə edib.

Neft sənayesində texnoloji proseslər nəticəsində formalaşan istehsalat tullantı suları (İTS) mürəkkəb tərkiblidir. Dispersli sistemlər kolloid məhlula malik olduğundan həmin suların dərindən, 100%-ə qədər neft məhsulları tullantıları qarışığından (NMTQ) təmizlənməsi bu vaxta qədər həll olunmamış əsas ekoloji problemlərdən biridir. İlk dəfə olaraq istehsalat tullantı sularının mexaniki təmizləyici qurğularda xüsusi müəyyənləşdrilmiş miqdarda ekstragent kimi petroley efirindən, koaqulyant kimi $Al2(SO4)3$ duzunun 5%-li məhlulundan, floqulyant (bəzi hallarda həmçinin pH 9-10 olduqda neytrallaşdırıcı) kimi 5%-li $H2SO4$ turşusundan, tələb olunan hallarda neytrallaşdırıcı kimi 5%-li $NaHCO3$-dan istifadə edilməklə NMTQ-dən və asılı maddələrdən 100%-ə qədər tam dərindən təmizlənməsi üzrə ekoloji effektli metodika hazırlanıb. Həmin metodikadan istifadə etməklə neft sənayesində formalaşan istehsalat tullantı sularının digər mərhələlərdə fiziki-kimyəvi və bioloji təmizləyici metodlarla təmizlənməsinə ehtiyacın olmaması əsaslandırılıb. İşlənilmiş yeni metodikanın ekoloji və iqtisadi cəhətdən çox böyük əhəmiyyəti var.

Elmi seminar mövzu ətrafında sualların cavablandırılması ilə yekunlaşıb.

# Fizika fakültəsində ekonofizika elmi istiqaməti müzakirə olunub

***Noyabrın 18-də Fizika fakültəsinin elmi seminarı keçirilib. Seminarda Yarımkeçiricilər fizikası kafedrasının professoru Maarif Cəfərov yeni elmi istiqamət kimi tanınan ekonofizika haqqında təqdimatla çıxış edib.*** Məruzəçi bildirib ki, ekonofizika termini ilk dəfə 1997-ci ildə statistik fizikanın üsullarının tətbiq olunduğu maliyyə məlumatlarının ümumi təhlilində işlənib. 1998-ci ildən etibarən Avropa və Şimali Amerikada mütəmadi olaraq ekonofizika üzrə konfranslar keçirilir. Həmin konfranslarda iqtisadi proseslərin idarə olunmasına fizikanın qanunlarının tətbiqinə dair elmi araşdırmaların nəticələri təqdim olunub.

Maarif Cəfərov qeyd edib ki, hazırda bir çox aparıcı universitetlərdə ekonofizika üzrə mütəxəssis hazırlığı aparılır və bu ixtisas gələcəyin ixtisası hesab olunur. O, həmin ali təhsil müəssisələrində ekonofizika üzrə tədris prosesinin xüsusiyyətləri barədə danışıb. Xüsusən nəzəri fizikanın öyrənilməsinin zəruriliyini qeyd edib, bir sıra fiziki qanunauyğunluqların və proseslərin iqtisadiyyatda tətbiq oluna biləcəyi sahələri nümunə kimi göstərib. Son zamanlar müxtəlif illərdə iqtisadiyyat sahəsində Nobel mükafatı almış 3 nəfərin baza təhsilinin fizika olması da fiziki biliklərin iqtisadiyyatın inkişafında nə qədər yararlı olduğunu göstərir. Bu sahənin mütəxəssislərinin fikrincə, iqtisadi hadisələrin öyrənilməsi üçün fizikanın metodologiyasından istifadə olunduğu tədqiqatları ekonofizika kimi təsnif etmək olar.

Məruzəçi Moskva Dövlət Universitetinin nümunəsində ekonofizika ixtisası üzrə mütəxəssis hazırlığına dair tədris prosesinin təşkili, tədris olunan fənlər və s. barədə məlumat verib. O, BDU-nun Fizika fakültəsinin magistraturasında bu ixtisas üzrə kadr hazırlığı üçün görülməli olan işlərdən danışıb.

Fakültə dekanı Bəxtiyar Paşayev təqdim olunan məruzənin tamamilə yeni elm sahəsinə aid olduğunu və iqtisadiyyat üçün aktuallığını qeyd edib. Digər seminar iştirakçıları da bu sahədə tədris prosesinin təşkilinin zəruriliyini vurğulayıblar.

# BDU-nun alimi Azərbaycan Elm Fondunun qrant müsabiqəsinin qalibi olub

***Ekologiya və torpaqşünaslıq fakültəsinin Ekoloji kimya kafedrası Azərbaycan Elm Fondunun elan etdiyi "Qarabağ - Azərbaycandır!" məqsədli qrant müsabiqəsinin qalibi olub.*** "Qarabağ ərazisində çayların çirklənmə səviyyəsinin tədqiqi və aradan qaldırılma yollarının işlənilməsi" adlı layihəni Ekoloji kimya kafedrası Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə birgə həyata keçirəcək.

Layihənin rəhbəri Ekoloji kimya kafedrasının müdiri, professor Sevinc Hacıyevadır. Layihə 2022-2024-cü illəri əhatə edəcək.

# BMT/Azərbaycan beynəlxalq tədbirinin iştirakçıları "Azərkosmos"da

***Noyabrın 2-də Birləşmiş Millətlər Təşkilatının (BMT) Xarici Kosmos Məsələləri üzrə Ofisi (UNOOSA) və Bakı Dövlət Universitetinin (BDU) təşkilatçılığı, Qlobal Naviqasiya Peyk Sistemləri (GNSS) üzrə Beynəlxalq Komitə (ICG) və Amerika Birləşmiş Ştatları Milli Aeronavtika və Kosmos İdarəsinin (NASA) tərəfdaşlığı və dəstəyi ilə "Beynəlxalq Kosmik Hava Təşəbbüsü: Günəş, Kosmik Hava və Geosfer" BMT/Azərbaycan beynəlxalq tədbirinin iştirakçıları Azərbaycan Respublikasının Kosmik Agentliyinə (Azərkosmos) səfər ediblər.***



Qonaqlara Azərbaycanın kosmik sahə üzrə layihələri və Agentliyin fəaliyyəti haqqında ətraflı məlumat verilib. Daha sonra beynəlxalq tədbirin iştirakçıları "Azərspace-2" peykinin idarəetmə sistemi ilə tanış olublar.

Görüşdə qonaqları maraqlandıran suallar cavablandırılıb.

# Postbiotiklərin düz bağırsaq xərçənginin ilkin mərhələsinə təsirinə dair araşdırmalar davam edir

***Noyabrın 1-də Bakı Dövlət Universitetinin Tədqiqat, İnkişaf və İnnovasiyalar üzrə Mükəmməllik Mərkəzinin Mikrobiologiya və virusologiya elmi-tədqiqat laboratoriyasının müdiri, professor Xudaverdi Qənbərovun həmmüəllif olduğu "Postbiotiklərin düz bağırsaq xərçənginin ilkin mərhələsinə təsir versiyası ("Postbiotics versus probiotics in early-onset colorectal cancer") adlı məqalə "Web of Science" bazasına daxil olan İF-11.208 və Q1 kvartil "Critical Review in Food Science and Nutrition" (2022) jurnalında dərc olunub.***

Təqdim olunmuş icmal məqalədə probiotiklər (canlı südturşusu bakteriyaları) konsepsiyasına yenidən baxılıb, postbiotiklərlə (bakteriyaların sintez etdiyi metabolitlərlə) müqayisədə üstünlüklərə və məhdudiyyətlərə malik olması göstərilib. Biotiklər (probiotiklər, prebiotiklər və postbiotiklər) insanın bağırsaq florasına təsir göstərməklə onun sağlamlığına böyük fayda verirlər.

Probiotiklərin xərçəng əleyhinə əsas təsir mexanizmləri immun sisteminin tənzimlənməsi, xərçəng hüceyrələrinin çoxalmasını ingibirləşdirməsi, bağırsaqda disbakteriozu və baryer funksiyasını bərpa, bağırsağın xərçəng əleyhinə agentlərini biosintez etməsi və xərçəngin inkişafını törədən agentlərin azaldılması ilə bağlıdır

# BDU və BMT-nin Xarici Kosmos Məsələləri üzrə Ofisinin birgə beynəlxalq tədbiri keçirilib

***Noyabrın 2-də Birləşmiş Millətlər Təşkilatının (BMT) Xarici Kosmos Məsələləri üzrə Ofisi (UNOOSA) və Bakı Dövlət Universitetinin (BDU) təşkilatçılığı, Qlobal Naviqasiya Peyk Sistemləri (GNSS) üzrə Beynəlxalq Komitə (ICG) və Amerika Birləşmiş Ştatları Milli Aeronavtika və Kosmos İdarəsinin (NASA) tərəfdaşlığı və dəstəyi ilə "Beynəlxalq Kosmik Hava Təşəbbüsü: Günəş, Kosmik Hava və Geosfer" BMT/Azərbaycan beynəlxalq tədbiri ("United Nations/Azerbaijan Workshop on the International Space Weather Initiative: The Sun, Space Weather and Geosphere") öz işini davam etdirib.***



Tədbirin ilk 3 günündə Kosmik Hava üzrə dünyanın müxtəlif ölkələrində quraşdırılmış cihazlar və müvafiq məlumatlar bazası geniş təhlil olunub. Xüsusilə Kosmik Havanın modelləşdirilməsi üzrə aparılmış son elmi tədqiqatlara nəzər yetirilib. Müzakirələr zamanı Günəş atmosferindəki fəal törəmələrlə bağlı geomaqnit variasiyalarının Yerə təsirini qeydə alan cihazların iş prinsiplərinə və onların təkmilləşdirilməsi istiqamətində gələcək perspektivlərə geniş yer ayrılıb.

Kosmik Havanın təzahür formalarından biri kimi geomaqnit və ionosfer fəallığı Günəş küləyi, Tac Kütlə Atılmaları və digər yüksək sürətli yüklü zərrəciklər axını ilə əlaqədar olduğundan Günəş atmosferində baş verən qeyri-stasionar proseslərin nəzəri modelləşdirilməsi xüsusi əhəmiyyət kəsb edir. Tədbir çərçivəsində son illər bu sahədə işlənib hazırlanan yeni modellər iştirakçıların diqqətinə çatdırılıb. Müzakirələr Günəş və Günəş-Yer əlaqələrinin fizikasında öyrənilən fiziki hadisələrlə yanaşı, ümumilikdə kosmik plazma ilə bağlı olan digər prosesləri də əhatə edib. Tədbir çərçivəsində son illər aktuallıq qazanan Kosmik Havanın proqnozlaşdırılması istiqamətində görülən işlərə də geniş yer ayrılıb, geomaqnit fəallığının Qlobal Naviqasiya Peyk Sistemlərinə və GPS-sistemlərə, o cümlədən müxtəlif detektorlara, elektrik verilişinə, radioyayımına təsiri və digər məsələlər ətrafında müzakirələr aparılıb.



Tədbir öz işini milli və regional Kosmik Hava proqramları, həmçinin Kosmik Havanın tədris olunması istiqamətində görülmüş işlər üzrə müzakirələrlə davam etdirib.

Qeyd edək ki, beynəlxalq tədbirin yekununda dinlənilən məruzələr əsasında Kosmik Hava məlumatlarının yüksək dəqiqliklə toplanması, mübadiləsi və çatdırılması, həmçinin qabaqcıl təcrübələrin təşviqi yolu ilə modelləşdirmə və proqnozlaşdırma metodlarının dəqiqliyinin və etibarlığının artırılması üçün tövsiyələr hazırlanacaq.

Tədbirdəki müzakirələr həmçinin "Dayanıqlı İnkişaf üzrə 2030 Gündəliyi" və onun Dayanıqlı İnkişaf Məqsədləri (SDG) üçün müəyyən edilmiş hədəfləri ilə əlaqələndiriləcək, əldə olunan nəticə və tövsiyələr isə Birləşmiş Millətlər Təşkilatının Kosmosdan Dinc Məqsədlə İstifadə Komitəsinin (COPUOS) hesabatı çərçivəsində BMT-nin Baş Assambleyasına təqdim olunacaq.

Beynəlxalq tədbir noyabrın 5-dək davam edib.

# BDU-da hibrid formalı enerji sistemlərinin yaradılması və tətbiqi müzakirə olunub

***Noyabrın 3-də Bakı Dövlət Universitetinin Tədqiqat, İnkişaf və İnnovasiyalar üzrə Mükəmməllik Mərkəzinin Nanoaraşdırmalar elmi-tədqiqat laboratoriyasında növbəti elmi seminar keçirilib. Elmi seminarda laboratoriyanın əməkdaşı, Fizika fakültəsinin II kurs doktorantı Orxan Güləhmədov "Triboelektrik nanogeneratorlardan istifadə etməklə hibrid formalı enerji sistemlərinin yaradılması və tətbiqləri" mövzusunda çıxış edib.***



Məruzəçi bildirib ki, triboelektrik nanogeneratorlar (TENG) əsasında gündəlik həyatda müxtəlif alternativ enerji mənbələrindən (külək, günəş, su dalğaları, insanların hərəkəti ilə bağlı olan biomexaniki enerji və s.) istifadə etməklə hibrid formalı enerji generasiya edən sistemlər yaratmaq olar. Bu da öz növbəsində enerji istehsalında daha yaxşı nəticələr əldə etməyə imkan verir. Bu istiqamətdə TENG-lərin istifadəsi olduqca aktual hesab olunur. Belə ki, onların tətbiqi ilə yeni növ enerji generasiya edən hibrid sistemlər və eyni zamanda gündəlik həyatda ətraf mühitin, insanların sağlamlığının monitorinqini aparmaq üçün sensorlar hazırlamaq mümkündür.

Seminarın sonunda məruzəçi iştirakçıların mövzu ilə bağlı suallarını cavablandırıb.

# BDU aliminin həmmüəllif olduğu məqalə impakt faktorlu jurnalda dərc olunub

***Bakı Dövlət Universitetinin Biofizika və biokimya kafedrasının müdiri, professor Rövşən Xəlilovun həmmüəllif olduğu "1990-2019-cu illərdə 204 ölkə və ərazi üzrə ümumi və seçilmiş yaş qrupları üçün Səhiyyə Xidmətinə Əlçatanlıq və Keyfiyyət İndeksinin performansının qiymətləndirilməsi: Qlobal Xəstəlik Yükü Araşdırması 2019-dan sistematik təhlil" ("Assessing performance of the Healthcare Access and Quality Index, overall and by select age groups, for 204 countries and territories, 1990-2019: a systematic analysis from the Global Burden of Disease Study 2019") adlı elmi iş "Web of Science" elmmetrik bazasına daxil olan (IF: 38.927) "The Lancet Global Health" jurnalında çap olunub.***

Məlumdur ki, həyat boyu sağlamlıq ehtiyacları dəyişir. Buna görə də səhiyyə sistemlərinin bütün yaşlar üçün keyfiyyətli səhiyyə xidmətinə çıxışı təmin edib-etmədiyini qiymətləndirmək çox vacibdir. Məqalədə 2019-cu ildən qlobal xəstəliklər, yaralanmalar və risk faktorları tədqiq olunub, 1990-2019-cu illər arasında 204 yerdə ümumi və seçilmiş yaş qrupları üçün Səhiyyə Xidmətinə Əlçatanlıq və Keyfiyyət (HAQ) İndeksi ölçülüb.

# Tələbələr "Müsyö Jordan və dərviş Məstəli şah" tamaşasını izləyiblər



*Noyabrın 1-də Bakı Dövlət Universitetinin Tələbə Həmkarlar İttifaqı Komitəsinin "Mədəniyyət həftələri" layihəsi çərçivəsində Universitetin tələbələri Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrında "Müsyö Jordan və dərviş Məstəli şah" tamaşasını izləyiblər.*

Tələbələrə görkəmli dramaturq Mirzə Fətəli Axundzadənin bu məşhur komediyası barədə təqdimat edilib, yaradıcı heyət barədə ətraflı məlumat verilib. Tamaşa tələbələrdə böyük təəssürat yaradıb.

"Mədəniyyət həftələri" layihəsinin məqsədi tələbələrin bədii zövqünün formalaşdırılması, teatr və konsertlərə marağının artırılmasıdır.

# Azərbaycan Gənclər Fondunun "İstedadlı tələbələrin təhsil qrantı" layihəsi ilə bağlı görüş



*Noyabrın 1-də Bakı Dövlət Universitetində Azərbaycan Gənclər Fondunun "İstedadlı tələbələrin təhsil qrantı" layihəsi ilə bağlı görüş keçirilib.*

Tədbirdə çıxış edən BDU-nun Humanitar məsələlər və gənclər siyasəti şöbəsinin müdiri Ramin Səmədov gənclərə diqqət və qayğının dövlət siyasətinin əsas prioritetlərindən olduğunu bildirib və BDU-da həyata keçirilən sosial layihələrdən danışıb.

Daha sonra BDU-nun Tələbə Gənclər Təşkilatının sədri Ələkbər Həsənov Universitet tələbələrinin Gənclər Fondunun müxtəlif sosial layihələrində fəal iştirak etdiyini qeyd edərək, "İstedadlı tələbələrin təhsil qrantı" layihəsinə də marağın yüksək olduğunu diqqətə çatdırıb.

Azərbaycan Gənclər Fondunun Gənclərlə iş şöbəsinin mütəxəssisi Ülvi Adıgözəlov müsabiqə haqqında tələbələrə geniş məlumat verib. O bildirib ki, Azərbaycan Gənclər Fondu sosial həssas əhali kateqoriyasına aid olan istedadlı gənclərin təhsil xərclərinin qarşılanması üzrə növbəti müsabiqəni elan edib. Müsabiqənin əsas məqsədi təhsilin gənclər üçün daha da əlçatan edilməsi və insan kapitalının inkişafına dəstəyin göstərilməsidir.

Görüş zamanı tələbələrin diqqətinə çatdırılıb ki, ali və orta ixtisas təhsili müəssisələrinin tələbələrinə şamil ediləcək müsabiqədən əyani və qiyabi təhsilalma formaları üzrə bakalavr və magistr təhsili alan tələbələr yararlana biləcəklər.

Sonda müsabiqə ilə bağlı tələbələrin sualları cavablandırılıb.

# BDU-nun Heydər Əliyev Muzeyini ziyarət



*Noyabrın 3-də Bakı Dövlət Universitetinin Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin I kurs tələbələri Universitetin Heydər Əliyev Muzeyini ziyarət ediblər. Heydər Əliyev Muzeyinin direktoru Zəkiyyə Kərimova muzey haqqında tələbələrə məlumat verib.*

Bildirib ki, BDU-nun Heydər Əliyev muzeyi 1997-ci ildə Ulu öndərin şəxsi razılığı ilə yaradılıb və fəaliyyətə başlayıb. Muzeydə BDU-nun dünya şöhrətli məzunu və fəxri doktoru olan böyük şəxsiyyətin həyatının müxtəlif dövrlərini əks etdirən sənədlər nümayiş olunur.

Ümummilli lider Heydər Əliyevin gərgin fəaliyyəti ilə yanaşı, ömrünün ən incə məqamlarından bəhs edən sənədlər, fotoşəkillər, bu böyük şəxsiyyət haqqında Universitet alimlərinin yazdığı kitablar tələbələrdə böyük təəssürat yaradıb.

# Hüquq fakültəsinin tələbələri Penitensiar Xidmətin 4 saylı cəzaçəkmə müəssisəsinin fəaliyyəti ilə tanış olublar



*Noyabrın 4-də Hüquq fakültəsinin tələbələri Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin 4 saylı cəzaçəkmə müəssisəsinin fəaliyyəti ilə tanış olublar.*

Səfər 22 noyabr - Ədliyyə işçilərinin peşə bayramı günü münasibətilə ədliyyə orqanları və məhkəmələrlə tanışlıq aylığı çərçivəsində reallaşıb.

Tələbələr beynəlxalq standartlara uyğun inşa edilmiş cəzaçəkmə müəssisəsinin fəaliyyəti, qadın məhkumların saxlanma şəraiti barədə müfəssəl məlumat alıblar. Məhkumların çalışdıqları istehsalat sahələri, onların asudə vaxtlarının səmərəli keçirilməsi üçün yaradılmış klub, kitabxana, ibadət otağı, peşə məktəbi, habelə müasir avadanlıqla təchiz olunmuş tibb-sanitar hissəsi və yeməkxana tələbələrdə böyük maraq doğurub.



Tanışlıq zamanı həmçinin, qadın məhkumlardan ibarət özfəaliyyət dərnəyinin çıxışları izlənilib.

Tələbələrin Penitensiar Xidmətin fəaliyyəti, müvafiq hüquqi normativ sənədlərlə bağlı sualları cavablandırılıb.

# BDU könüllüləri Hərbi Qənimətlər Parkında




*Noyabrın 2-də Bakı Dövlət Universitetinin könülləri Hərbi Qənimətlər Parkını ziyarət ediblər.*

Ziyarətdə Şəqşünaslıq fakültəsinin sosial məsələlər üzrə dekan müavini Şahin Yusifli, fakültə könüllüləri və "Şərq ölkələri klubu"nun üzvləri iştirak ediblər.

Könüllülər 44 günlük Vətən müharibəsi zamanı düşməndən qənimət götürülən hərbi texnika, ermənilərin qoyub qaçdığı atıcı silahlar, ağır texnikalar, raket kompleksləri, hərbi nəqliyyat və digər sursatlarla tanış olublar.

Qeyd edək ki, Hərbi Qənimətlər Parkında ümumilikdə 300-dən çox eksponat, o cümlədən 150-dək ağır texnika, tanklar, döyüş maşınları, artilleriya qurğuları, zenit-raket kompleksləri, atıcı silahlar, hərbi nəqliyyat sərgilənir. Təqdim edilən eksponatlar, 10 səddən ibarət müdafiə sistemi, sığınacaqlar, hərbi kazarmalar, Vətən müharibəsinin gedişatı barədə məlumatlar Azərbaycana Zəfər qazandıran döyüşləri bir daha göz önündə canlandırmağa geniş imkan yaradır.

# "Layihələrin idarə olunmasında "Agile" yanaşması"mövzusunda təlim

*Noyabrın 15-də Bakı Dövlət Universiteti və "Paşa Sığorta" ASC arasında əməkdaşlıq memorandumuna uyğun olaraq tələbələr üçün "Layihələrin idarə olunmasında "Agile" yanaşması" mövzusunda təlim keçirilib.*



BDU-nun Karyera və məzunlarla əlaqə sektorunun müdiri Vasif Həsənov "Agile" yanaşmasının dövrün daha çox tələb olunan layihə idarəetmə növlərindən olduğunu bildirib və sektorun əmək bazarının yeni çağırışları istiqamətində apardığı fəaliyyətdən bəhs edib.

"Agile" Transformasiya Xidmətinin kouçu Elnur Məmmədli isə bu metodologiyanın yaranma tarixi, layihələrin idarə olunmasında tətbiqi haqqında iştirakçıları məlumatlandırıb. Qeyd edib ki, "Agile" bazarda baş verən bütün dəyişikliklərə, müştərilərin ehtiyaclarına, məhsullara olan tələblərə çevik reaksiya verə bilmək üçün bir yanaşmadır. Əmək bazarında bu sahəyə olan tələb hər keçən gün daha da artır.

Təlimin sonunda iştirakçılara şirkət tərəfindən sertifikat və həvəsləndirici hədiyyələr təqdim edilib.

# Hüquq fakültəsinin tələbələri Probasiya Xidmətinin fəaliyyəti ilə tanış olublar

*Noyabrın 18-də Hüquq fakültəsinin tələbələrinin 22 noyabr - Ədliyyə işçilərinin peşə bayramı günü münasibətilə ədliyyə orqanları və məhkəmələrlə tanışlıq aylığı çərçivəsində tədbirlər davam edir.*



Tələbələr üçün Probasiya Xidmətinin fəaliyyəti ilə tanışlıq təşkil edilib. Onlar əvvəlcə probasiya institutunun mahiyyəti və əhəmiyyəti, bu sahədə görülən işlər, azadlıqdan məhrumetməyə alternativ cəzaların icrası mexanizmləri, probasiya əməkdaşlarının vəzifələri, peşə hazırlığı, xidmətin fəaliyyət istiqamətləri, ictimai işlər növündə cəzanın icrasının təşkili, bu sahədə yeniliklər və s. barədə məlumatlandırılıblar.

Tələbələr həmçinin Xidmətin Elektron Monitorinq Mərkəzi ilə tanış olublar. Onlara elektron nəzarət vasitələri əyani nümayiş etdirilib, onların təyinatından, tətbiqi təcrübəsindən danışılıb, maraq doğuran suallara aydınlıq gətirilib.

# "Unibank" əməkdaşları karyera quruculuğuna dair ustad dərsləri keçiblər

*Noyabrın 18-də Bakı Dövlət Universiteti əmək bazarının aparıcı şirkətləri ilə tələbələrin görüşlərini davam etdirir. Tələbələrin karyera quruculuğuna həsr olunan növbəti görüş "Unibank" əməkdaşları ilə keçirilib.*



Tədbiri açıq elan edən BDU-nun Karyera və məzunlarla əlaqə sektorunun müdiri Vasif Həsənov Universitetlə "Unibank" arasında əməkdaşlıqdan danışıb, bankın gənclərin karyera quruculuğu istiqamətində atdığı addımları yüksək qiymətləndirib. Əmək bazarında baş verən sürətli dəyişikliklərin tələbələrə aşılanmasının vacibliyini qeyd edən Vasif Həsənov əmək bazarı ilə təhsil müəssisələrinin daha sıx əməkdaşlıq etməsinin zəruriliyini bildirib.

"Unibank"ın Təşkilatı inkişaf şöbəsinin müdiri Viktoriya Hüseynova görüş üçün yaradılan şəraitə görə təşəkkürünü bildirib və bu formada əməkdaşlığın davamlı olacağını qeyd edib.

Daha sonra bank əməkdaşları İnci Əsgərova "Uğurlu müsahibə", Əfqan Baxışov "Maliyyə xidmətlərində rəqəmsallaşmanın hüquqi çağırışları", Emin Ələsgərov "Data emalı", Arif Məmmədzadə "Pərakəndə bankçılıq" mövzularında ustad dərsləri keçib, iştirakçıları əmək bazarındakı tendensiyalarla tanış ediblər. Sonda tələbələrə şirkət tərəfindən həvəsləndirici hədiyyələr təqdim olunub.

# "Paşa Sığorta" ASC-nin BDU tələbələri üçün növbəti təlimi

*Noyabrın 11-də Bakı Dövlət Universiteti və "Paşa Sığorta" ASC arasında imzalanmış əməkdaşlıq haqqında memoranduma uyğun olaraq tələbələr üçün "Layihələrin idarəolunması" mövzusunda növbəti təlim keçirilib.*

BDU-nun Karyera və məzunlarla əlaqə sektorunun baş mütəxəssisi İlkin Şərifov tələbələrə əmək bazarında layiqli yer tutmaq üçün ideyaların layihəyə çevrilməsi, layihə yazılışının mərhələlərini öyrənməyin vacib olduğunu deyib. O, sektorun həyata keçirdiyi çoxsaylı təlimlər barədə də məlumat verib və tələbələri bu təlimlərdən yararlanmağa səsləyib.

"Paşa Sığorta"nın Layihələrin idarəolunması və biznes proseslərin optimallaşdırılması departamentinin əməkdaşı Ayşən Qarayeva layihələrin idarəolunmasının karyera yüksəlişində rolu barədə iştirakçıları məlumatlandırıb. Əmək bazarında bu sahəyə olan tələbin daha da artdığını qeyd edib.

Sonda tələbələrin mövzu ilə bağlı sualları cavablandırılıb.

# "TEKNOFEST"in Azərbaycandakı rəsmi nümayəndəsi Yusuf Polat BDU tələbələri ilə görüşüb




*Noyabrın 18-də "TEKNOFEST" Aerokosmik və Texnologiya Festivalının və T3 Fondunun Azərbaycandakı rəsmi nümayəndəsi, "Bilim Bakı" Mərkəzinin direktoru Yusuf Polat BDU tələbələri ilə görüşüb.*

Elmi fəaliyyətin təşkili və innovasiyalar Mərkəzinin direktoru Mais Süleymanov qonağı salamlayıb, Universitet haqqında ətraflı məlumat verib. "TEKNOFEST Azərbaycan" festivalına qatılan BDU komandaları və onların uğuru haqqında qonağı məlumatlandırıb. Diqqətə çatdırılıb ki, BDU-nun 9 komandası "TEKNOFEST Azərbaycan"ın final mərhələsində iştirak edib. Onlardan biri festivalda 2-ci, biri isə 3-cü yerə layiq görülüb.

Daha sonra Yusuf Polat tələbələrə festivalın tarixindən, məqsədindən və gələn il may ayında İstanbulda keçiriləcək "TEKNOFEST 2023" yarışmasından danışıb, bütün tələbələri bu festivalda iştiraka dəvət edib. Festivala hazırlaşan tələbələr öz layihələri ilə bağlı Yusuf Polata müxtəlif suallar ünvanlayıblar.

Qeyd edək ki, "TEKNOFEST 2023"də iştirak məqsədilə BDU-da 20-dən çox komanda hazırlaşır.

# "Buraxılış işində tədqiqat metodları" adlı təlim keçirilib

*Noyabrın 18-də Bakı Dövlət Universitetinin SABAH Mərkəzinin təşkilatçılığı ilə tələbələrə "Buraxılış işində tədqiqat metodları" mövzusunda təlim keçirilib.*

Ankara Universitetinin doktorantı və BDU-nun müəllimi Qoşqar Bəylərovun keçdiyi təlimdə SABAH qruplarının müvafiq ixtisasları üzrə IV kurs tələbələrinə elmi tədqiqat işi, tədqiqat metod və texnikaları, buraxılış işinin yazılma qaydaları, ədəbiyyat mənbələrindən düzgün istifadə, ədəbiyyat siyahısının tərtibi, istinad mədəniyyəti, plagiat, rəqəmsal tədqiqat yolları və elmi işlərin təqdimatlarının hazırlanma qaydaları haqqında ətraflı məlumat verilib.

Qeyd edək ki, interaktiv keçən təlimdə tələbələrin sualları cavablandırılıb. Həmçinin nümunələr əsasında fərqli ixtisaslardan olan tələbələrin buraxılış işi mövzularında istifadə edə biləcəkləri tədqiqat metod və texnikaları haqqında müzakirələr aparılıb.

# BDU tələbələri SABAH bilik yarışlarının qalibləri sırasında

**Elm və Təhsil Nazirliyinin SABAH qrupları layihəsi çərçivəsində təhsil, İT və mühəndislik üzrə bilik yarışları qaliblərinin mükafatlandırılması mərasimi keçirilib.**

***Noyabrın 4-də keçirilən tədbir Dövlət himninin səsləndirilməsi ilə başlayıb. Tədbirdə çıxış edən elm və təhsil nazirinin müavini Firudin Qurbanov SABAH qrupları çərçivəsində təşkil edilən bilik yarışlarını tələbələrin inkişafında, onların təlim və peşə hazırlığı üzrə biliklərinin dərinləşməsində və peşəkar kadr kimi yetişmələrində mühüm addım kimi dəyərləndirib.***

Nazir müavini Vətən müharibəsində qazanılan qələbədə elm və texnologiyanın mühüm rolundan danışaraq gələcəyimizin təhsilin inkişafı və innovasiyalar üzərində qurulmasının vacibliyini vurğulayıb. Firudin Qurbanov yüksəkixtisaslı mütəxəssis kimi formalaşmaq, sürətlə dəyişən əmək bazarında rəqabətədavamlı olmaq üçün tələbələrin bilik, bacarıq və müvafiq vərdişlərini daim inkişaf etdirməli olduqlarına diqqət çəkib. Firudin Qurbanov çıxışının sonunda qaliblərə uğurlar arzulayıb.



Daha sonra qaliblər təltif edilib. Qeyd edək ki, təhsil üzrə bilik yarışmasının final mərhələsində I yerin qalibi BDU SABAH qruplarının Riyaziyyat müəllimliyi ixtisası üzrə tələbəsi Fidan Cəbrayıllı, III yerin qalibi isə Tarix müəllimliyi ixtisasının tələbəsi Şaiq Mədətov olub. İT üzrə bilik yarışmasının final mərhələsində isə BDU-nun SABAH qruplarının "CodeNinja" və "SABAH Tech" komandaları II yerə, "OneZero" komandası isə III yerə çıxıb.

Sözügedən bilik yarışları istedadlı tələbələrin aşkar edilməsi, tələbələrin elmi-yaradıcı təşəbbüslərinin artırılması, onların sağlam rəqabət şəraitində elmi araşdırma fəaliyyətinə təşviq edilməsi və müvafiq ixtisaslar üzrə müxtəlif ali təhsil müəssisələrinin SABAH qrupları tələbələrinin inteqrasiyası məqsədilə təşkil olunub.

# BDU-nun əcnəbi tələbələri Hərbi Qənimətlər Parkını və II Şəhidlər xiyabanını ziyarət ediblər

***Noyabrın 5-də Bakı Dövlət Universitetində təhsil alan əcnəbi tələbələrin Hərbi Qənimətlər Parkına və İkinci Şəhidlər xiyabanına ziyarəti təşkil olunub.***

Əvvəlcə əcnəbi tələbələr Müzəffər Azərbaycan Ordusunun şanlı qələbəsinin canlı muzeyi olan Hərbi Qənimətlər Parkını ziyarət ediblər. 44 günlük Vətən müharibəsində əldə edilmiş şanlı qələbə barədə əcnəbi tələbələrə geniş məlumat verilib. Bildirilib ki, Vətən müharibəsinin gedişində düşməndən qənimət götürülən hərbi texnikanın bir qismi, ümumilikdə 300-dən çox eksponat, o cümlədən 150-dək ağır texnika, tanklar, döyüş maşınları, artilleriya qurğuları, zenit-raket kompleksləri, atıcı silahlar, hərbi nəqliyyat vasitələri bu parkda nümayiş olunur. Əcnəbi tələbələr Silahlı Qüvvələrimizin işğaldan azad olunan ərazilərdə ermənilərdən qənimət götürdükləri 2 mindən çox avtomobilin nömrə nişanlarından hazırlanan və üzərində "Qarabağ Azərbaycandır!" şüarı əks olunan kompozisiya, Ermənistan tərəfindən törədilən müharibə cinayətləri, o cümlədən döyüş bölgəsindən uzaq olan ərazilərimizin raket zərbələrinə məruz qalması, dinc sakinlərin qətlə yetirilməsi və yaralanması barədə faktlar, düşmən tərəfindən Azərbaycan ərazisinə atılmış, istifadəsi qadağan olunan "İskəndər -M" raketinin qalıqları ilə tanış olublar.



Daha sonra əcnəbi tələbələr II Şəhidlər xiyabanını ziyarət ediblər. Onlara Azərbaycanın illərlə məruz qaldığı erməni işğalı, torpaqlarının azad edilməsi uğrunda apardığı mübarizə, Vətən müharibəsi barədə ətraflı məlumat verilib. Əcnəbi tələbələr Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş şəhidlərin məzarlarının üzərinə gül dəstələri düzərək onların xatirələrinə dərin ehtiramlarını bildiriblər.

# BDU 2022-ci ildə də Azərbaycanda "Times Higher Education Subject Ranking" reytinq cədvəlinə düşən yeganə universitetdir

***Ölkəmizdə elmin və təhsilin inkişaf etdirilməsində, əmək bazarının tələblərinə uyğun yüksək ixtisaslı elmi və elmi-pedaqoji kadrların hazırlanmasında aparıcı ali təhsil müəssisələrindən olan və artıq təhsil-elm-tədqiqat-innovasiya mərkəzlərindən birinə çevrilmiş 103 yaşlı Bakı Dövlət Universiteti beynəlxalq reytinqlərdə mövqeyinin yaxşılaşdırılması istiqamətində mütəmadi addımlar atır.***

Son illər BDU-da aparılan islahatlar, elmə, təhsilə, beynəlmiləlləşməyə və tələbələrin sosial həyatına ayrılan xüsusi diqqətin nəticəsi olaraq 2022-ci ildə Bakı Dövlət Universiteti dünya universitetlərinin nüfuzlu ""The Times Higher Education" (by Subject Ranking)" reytinq cədvəlində Fiziki elmlər ( Fizika, Kimya, Geologiya, Astronomiya, Riyaziyyat və s.) və Mühəndislik elmləri (Kimya mühəndisliyi, Geologiya mühəndisliyi, Hidrogeologiya mühəndisliyi, Geofizika mühəndisliyi və s.) üzrə 1001+ mövqelərini tutub. Bununla da BDU 2022-ci il üzrə də Azərbaycandan nüfuzlu reytinq cədvəlində yer alan yeganə universitet olub.

# BDU-nun SABAH tələbələri "Kapital Bank"ın "Bizdən biri" təcrübə proqramına seçiliblər

***Noyabrın 28-də Bakı Dövlət Universitetinin SABAH qruplarının Hüquqşünaslıq ixtisasının IV kurs tələbələri Sultanə Sultan və Rüfət Nağıyev "Kapital Bank" ASC tərəfindən təşkil edilən "Bizdən biri" təcrübə proqramına seçiliblər. Hüquq təhsili alan 134 tələbə arasından seçilən tələbələr proqramda 3 ay təcrübə keçəcəklər.***

Qeyd edək ki, "Bizdən biri" təcrübə proqramı çərçivəsində tələbələr müxtəlif sahələr üzrə müqavilələrin hazırlanması, hüquqi ekspertizasının aparılması qaydası ilə tanış olacaq, eləcə də hüquqi mövzuda saysız müzakirələrdə iştirak edəcəklər.



**Buraxılışa məsul:** Afaq Sadıqova

**Redaksiya heyəti:** Əliş Ağamirzəyev, Vüqar Əliyev, Cahangir Məmmədli, Allahverdi Məmmədli, Xatirə Hüseynova, Samir Mirzəyev

**Dizayn - tərtibat:** Aynur Qurbanqızı

Bakı Dövlət Universitetinin mətbəəsində çap olunmuşdur.

**Çapa imzalanıb:** 30.11..2022

**Tiraj:** 1000 nüsxə

Redaksiyanın mövqeyi ilə müəlliflərin mövqeyi üst-üstə düşməyə bilər.

Dərc olunan məqalələrin mətninə görə redaksiya məsuliyyət daşımır.

**Əlaqə nömrəsi:** (+994 12) 538 42 08